

## Azərbaycanın haqq savaşını dünyanın bir sıra ölkələri dəstəkləyir

*Artıq bir aydan çoxdur ki, Azərbaycan işğal altında olan torpaqlarının azad olunması üçün haqq savaşına başlayıb. 30 ilə yaxın müddətdə öz torpaqlarını işğaldan azad etmək üçün sülh yolunu seçən Azərbaycan müharibəyə Ermənistanın təxribatı nəticəsində başladı. Tovuz istiqamətində hücuma keçən Ermənistan Silahlı Qüvvələri bu təxribatları ilə göstərdi ki, onlar nəinki torpaqlarımızı sülh yolu ilə geri qaytarmaq istəyir, əksinə daha çox ərazi...*

Səh.13


# Unikal

№37 (2032) 7 noyabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Əbülfəs Qarayevin unutduğu taleyüklü məsələ...

Onun rəhbərliyi dövründə Mədəniyyət Nazirliyi erməni vandalizminin maddi-mənəvi irsimizi dağıtmasına və özününküləşdirilməsinə qarşı səmərəli fəaliyyət göstərə bilməyib

*Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycanın işğal olunmuş ərazilərindəki mədəni və təbii irsin vəziyyəti ilə bağlı bəyanat yayıb. Bəyanatda Dağlıq Qarabağ ərazisində və onun ətraf rayonlarında yerləşən, yalnız Azərbaycana deyil, bütövlükdə Türk dünyasına məxsus olan tarixi abidələrin vəziyyəti ilə bağlı ciddi narahatlıq ifadə olunub. Bildirilib ki, işğalçı qüvvələr əcdadlarımızın yaratdığı qiymətli memarlıq nümunələrini dağıdıb, bununla da dünya miqyaslı mədəniyyət tarixinə böyük ziyan vurub. Qeyd edək ki, bu məsələdə uzun illər Mədəniyyət Nazirliyinin səmərəsiz fəaliyyəti cəmiyyətdə tənqid hədəfinə çevrilib. Halbuki Fondun bəyanatında da vurğulandığı kimi, maddi-mənəvi dəyərlərin...*

Səh.8

Səh.2




## Azərbaycanda karantin rejmi yenidən sərtləşdirildi

© Trend News

## "Artıq dünya Azərbaycanı qüdrətli bir dövlət kimi qəbul edir"



*Ordumuzun döyüş meydanındakı uğurlarına paralel olaraq, Prezident İlham Əliyevin siyasət və diplomatiya müstəvisindəki fəaliyyəti Azərbaycanı qələbəyə daha da yaxınlaşdırır. Əgər bir neçə ay öncəyə qədər beynəlxalq təşkilatlar, bir sıra iri dövlətlər Qarabağ məsələsində Azərbaycanın...*

Səh.4

## Cahangir Əsgərovun çətin seçimi



*Bir neçə gün öncə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi bu ilin yanvar-sentyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında aparıcı şirkətlərin adlarını açıqlayıb. Qurumun oktyabr ayı üzrə "İxrac icmalı"ndan belə məlum olur ki, dövlətə məxsus ixracatçı subyektlərin siyahısında...*

Səh.12

## İnvestisiya Holdinqinə daxil olan dövlət şirkətlərinin taleyi...



*"Bu holdinqin yaranma səbəbi dövlət şirkətlərinin qeyri-effektiv idarə olunmasından irəli gəldi. Yəni, uzun illərdir dövlət şirkətləri dotasiya almasına baxmayaraq, ziyanla çalışırdılar. Özlərini doğrultmurdular, ziyanla çalışırdılar, idarəetmədə şəffaflıq çatışmırdı. Bunların tənzimlənməsi...*

Səh.3

## Prezidentdən şirkətlərlə bağlı sərəncam



Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR), "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi haqqında Sərəncam imzalayıb.

Unikal.org Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələləri həll etmək, İqtisadiyyat Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqinə isə Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görmək tapşırılıb.

## Putin Təhlükəsizlik Şurasında Qarabağı müzakirə etdi

***Prezident Vladimir Putin Rusiya Təhlükəsizlik Şurasının daimi üzvləri ilə Federasiyanın bölgələrindəki koronavirus pandemiyası ilə mübarizə baxımından mövcud vəziyyət və Dağlıq Qarabağ ətrafındakı vəziyyəti müzakirə edib.***

Unikal.org "TASS" agentliyinə istinadən xəbər verir ki, bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

## Koronavirusa yoluxanların sayı 1400-ü ötdü

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1465 yeni yoluxma faktı qeydə alınıb, 805 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 17 nəfər vəfat edib.

## Düşmənin Ağdərədə yerləşən hərbi hissələri iflic vəziyyətindədir

***Ağdərədə yerləşən Ermənistan silahlı qüvvələri 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyası və 5-ci dağatıcı alayının bölmələrinin təminatında ciddi çatışmazlıqlar yaranıb. Belə ki, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatlar, yanacaq sürtkü materialları çatışmır.***

Müdafiə Nazirliyindən Unikal.org-a verilən məlumata görə, cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldurmaq imkanına malik deyil.

Bundan əlavə, qeyd olunan hərbi hissələrlə komandanlıq arasında rabitə əlaqəsi kəsilib və bölmələrin idarəolunmasında da problemlər yaranıb.

İşsiz şəxslərə 190 manat veriləcək

Nazirlər Kabineti yanında Operativ Qərargah Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində xüsusi karantin rejimində dəyişikliklər edilib.

Unikal.org xəbər verir ki, dəyişikliklə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 10 şəhər və rayon üzrə işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən aztəminatlı şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmə verilməsi tapşırılıb.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

## 2 şəhər, 8 rayonda ictimai nəqliyyat tamamilə işləməyəcək

***7 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək bəzi ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti tam dayandırılacaq.***

Unikal.org xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb. Həmin ərazilər Şəki, Lənkəran şəhərləri, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarıdır.

Xatırladaq ki, bu vaxtadək həmin inzibati ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti yalnız həftə sonları dayandırılırdı.

# Azərbaycanda karantin rejmi yenidən sərtləşdirildi - RƏSMİ

Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində xüsusi karantin rejimində dəyişikliklər edilib.

***"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.***

Ölkə ərazisində sanitar-epidemioloji vəziyyəti nəzərər alaraq Nazirlər Kabineti yanında Operativ Qərargah müxtəlif şəhər və rayonların ərazisində xüsusi karantin rejiminin yeni qaydalarının tətbiq edilməsinə dair qərar qəbul edib.

Qərara əsasən 2020-ci il 07 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində aşağıdakı sahələr istisna olmaqla, digər sahələr və istiqamətlərdə fəaliyyət dayandırılır:

- hüquq mühafizə, məhkəmə orqanlarının, hərbi xidmət nəzərdə tutulmuş orqanların və vəkillərin fəaliyyəti;
- digər dövlət orqanlarının (qurumlarının) fəaliyyəti (Nazirlər Kabineti tərəfindən müəyyən edilən say həddi çərçivəsində);
- səhiyyə və sosial xidmət müəssisələrinin fəaliyyəti, dezinfeksiya xidmətləri;
- kommunal xidmətlər (su,



elektrik enerjisi, qaz, istilik, rabitə və telekommunikasiya, məişət tullantıları);
- yük daşımaları və logistika xidmətləri;
- Fasiləsiz fəaliyyət göstərən müəssisələrin, həmçinin qida məhsullarının istehsalı, tədarükü, təchizatı, saxlanması və topdan satışı müəssisələrinin fəaliyyəti;
- kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı fəaliyyəti;
- apteklərin, ərzaq mağazalarının (bazarlar və yarmarkalar istisna olmaqla), yanacaqdoldurma məntəqələrinin fəaliyyəti;
- kütləvi informasiya vasitələrinin fəaliyyəti;
- maliyyə təşkilatlarının (bank, sığorta və s.) fəaliyyəti;
- mühafizə xidmətləri.

Bu vaxtadək həmin inzibati ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti yalnız həftə sonları dayandırılırdı. 2020-ci il 7 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək həmin ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti tam dayandırılacaqdır.

Bu qaydaların tətbiq olunduğu şəhər və rayonlarda:

- İqtisadiyyat nazirliyi tərəfindən bu şəhər və rayonlarda muzdlu işçilərin əmək haqqları üzrə müvafiq ödənişlər ediləcək və fərdi (mikro) sahibkarlara birdəfəlik maliyyə dəstəyi göstəriləcək;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 10 şəhər və rayon üzrə işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən aztəminatlı şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmə verilməsi tapşırılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargah yuxarıda sadalanan şəhər və rayonların sakinlərinə ciddi şəkildə evdə qalmağı tövsiyə edir, karantin rejiminin qaydalarına əməl etməyə çağırır.

# "Qubadlının məscidi donuzxanaya çevrilib" - Hikmət Hacıyev

***"Azərbaycanın işğaldan azad olunmuş Məmər kəndindəki XVIII əsrə aid məscid. Məscid tamamilə dağıdılıb. Vandalizmlə yanaşı, XVIII əsrin dini-mədəni abidəsi işğal zamanı Ermənistan tərəfindən təhqir əlaməti olaraq donuzxanaya çevrilib".***

Unikal.org xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz tvitter hesabında yazıb.

"Biz UNESCO, ICESCO və İƏT-i bu barbar əməlləri ciddi şəkildə pisləməyə çağırırıq", - o əlavə edib.




# Bu şəhər və rayonlarda iş fəaliyyəti məhdudlaşdırılır

***2020-ci il 07 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində iş fəaliyyəti məhdudlaşdırılır.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin qərarında qeyd edilib.

Qərara əsasən, aşağıdakı sahələr istisna olmaqla, digər sahələr və istiqamətlərdə fəaliyyət dayandırılır:

- hüquq mühafizə, məhkəmə orqanlarının, hərbi xidmət nəzərdə tutulmuş orqanların və vəkillə-



rin fəaliyyəti;
- digər dövlət orqanlarının (qurumlarının) fəaliyyəti (Nazirlər Kabineti tərəfindən müəyyən edilən say həddi çərçivəsində);
- səhiyyə və sosial xidmət müəssisələrinin fəaliyyəti, dezinfeksiya xidmətləri;
- kommunal xidmətlər (su, elektrik enerjisi, qaz, istilik, rabitə və telekommunikasiya, məişət tullantıları);
- yük daşımaları və logistika xidmətləri;
- Fasiləsiz fəaliyyət göstərən müəssisələrin, həmçinin qida məhsullarının istehsalı, tədarükü, təchizatı, saxlanması və topdan satışı müəssisələrinin fəaliyyəti;
- kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı fəaliyyəti;
- apteklərin, ərzaq mağazalarının (bazarlar və yarmarkalar istisna olmaqla), yanacaqdoldurma məntəqələrinin fəaliyyəti;
- kütləvi informasiya vasitələrinin fəaliyyəti;
- maliyyə təşkilatlarının (bank, sığorta və s.) fəaliyyəti;
- mühafizə xidmətləri.

# İnvestisiya Holdinqinə daxil olan dövlət şirkətlərinin taleyi...

## Natiq Cəfərli: "Bu qurumun yaranması gələcəkdə dövlət aktivlərində idarəetmənin optimallaşdırılması üçün hesablanıb"



***"Bu holdinqin yaranma səbəbi dövlət şirkətlərinin qeyri-effektiv idarə olunmasından və rentabelli çalışmamasından irəli gəldi. Yəni, uzun illərdir dövlət şirkətləri dotasiya almasına baxmayaraq, ziyanla çalışırdılar. Özlərini doğrultmurdular, ziyanla çalışırdılar, idarəetmədə şəffaflıq çatışmırdı. Bunların tənzimlənməsi üçün İnvestisiya Holdinqinin yaradılması qərarı verilib".***

Bu fikirləri Unikal.org-a açıqlamasında ReAL Partiyanın icra katibi, iqtisadçı Natiq Cəfərli deyib. O bildirib ki, bu holdinqin yaranması gələcəkdə dövlət aktivlərinin bir qisminin özəlləşməsinə, yaxud xarici və yerli iş adamlarına icarəyə verilməsi yolu ilə idarəetmənin optimallaşdırılması üçün hesablanıb. Onun sözlərinə görə, burada əsas hədəflərdən biri büdcədən ayrılan dotasiyaların minimuma endirilməsi və bu şirkətlərin gəlirlə işləməsinə nail olmaqdır:

"Dünənki fərmanın məntiqi aydındır. Üç il müddətində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı müəyyən addımların atılması İnvestisiya Holdinqinin idarə edilməsinə yönəlib. Holdinqin maliyyələşməsi də dövlət büdcəsi hesabına yox, həmin şirkətlərin mənfəətinin 20 faizi hesabına formalaşdırılacaq büdcə ilə reallaşacaq. Həmin dövlət şirkətləri mənfəətlə çalışmalıdırlar ki, onun 20 faizi İnvestisiya Holdinqinin daxili idarəetməsi üçün xərclənsin. Burada qaranlıq qalan bir məqam var ki, bu investisiya holdinqinə daxil olan şirkətlərin idarə olunması vertikalı necə olacaq. Məsələn, SOCAR-ın prezidenti qərar verərkən bu holdinqləmi məsləhətləşəcək? Qərar vermə mexanizmlər necə olacaq? Təəssüf ki, bununla bağlı aydın mənzərə yoxdur. Çünki sanki ikipilləli idarətmə sistemi qurulur, bu da özü-özlüyündə effektiv yol deyil. Şirkətlərin verəcəyi qərarları İnvestisiya Holdinqi təsdiqləməlidirmi, yoxsa onlar heç bir qərar verməyəcəklər? Bu istiqamətdə idarəetmə mexanizmləri ilə bağlı hələlik aydın təsəvvürlər yoxdur. Amma məntiq aydındır. Məntiq odur ki, dövlətin əlində olan aktivlər gəlir gətirməlidir. Dövlət əlavə yükdən qurtulmalıdır. Gələcəkdə özəlləşmə üçün açıq hala gətirilməlidir".

İtqisadçı onu da qeyd edib ki, İnvestisiya Holdinqinin yaranması və dövlət şirkətlərinin idarə edilməsi ona həvalə edilirsə, deməli son söz sahibi holdinq olacaq: "Əgər köhnə qaydada idarə olunacaqsa, o zaman bu holdinq nəyə lazım idi? Ona görə də düşünürəm ki, qərarların verilməsi mexanizmi ilə bağlı ya Nazirlər Kabineti, ya da İnvestisiya Holdinqi tərəfindən konkret qərar veriləcək. Ondan sonra dövlət şirkətlərinin rəhbərlərinin müstəqil qərar verib-verməyəcəyi bəlli olacaq. Hər halda, məntiq onu deyir ki, əsas qərarı İnvestisiya Holdinqi verəcək".

***Murad İbrahimli***

# "Bir ayda Silahlı Qüvvələr Fonduna bu qədər vəsait yığılması..." - Deputatdan reaksiya

***Müdafiə Nazirlyiinin rəsmi məlumatına görə, Silahlı Qüvvələrə Yardım Fonduna cari il noyabrın 2-dək 198.013.034,48 AZN, 10.996.105,84 ABŞ dolları, 165.596,19 avro, 495.521,33 türk lirəsi, 1.294,72 ingilis funt sterlinqi və 5.062.550,00 rubl vəsait daxil olub.***

Son bir ayda- oktyabrın 1-dən noyabrın 2-dək Silahlı Qüvvələrə Yardım Fonduna 77.906.626,24 AZN, 10.777.425,16 ABŞ dolları, 147.255,19 avro və 5.057.550,00 rubl vəsait daxil olub.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun Modern.az-a bildirdiyinə görə, qısa zamanda Silahlı Qüvvələrə Yardım Fonduna böyük həcmdə vəsaitin toplanması Azərbaycan xalqının bir yumruq kimi birləşməsinin göstəricisidir:



"Hazırda müşahidə edilən birlik Azərbaycan tarixindəki ən güclü birlik kimi xarakterizə olunur. Vəzifəsindən, məsləyindən, maddi durumundan asılı olmayaraq, hər kəs ordumuza dəstək olmağa çalışır. Hamı istəyir ki, bu qalibiyyətdə damla qədər də olsa payı, qatqısı olsun. Bununla da hər kəs öz əlindən gələn şəkildə qələbəyə töhfə verməyə çalışır".

Deputat deyib ki, bu halı parlamentdə təmsil etdiyi Füzuli rayonunda da müşahidə edib: "Bizim rayon sakinləri hansısa formada orduya dəstək olmağa çalışırlar. Hətta elələri var ki, öz həyətindən meyvə dərib göndərir. Bu o demək deyil ki, əsgərlərimizin buna ehtiyacı var, əslə. Sadəcə, insanlarımız hansısa şəkildə onların yanında olmağa çalışırlar. Bu məqamda orduya və Ali Baş Komandana inam çox vacib amildir ki, bu da ən yüksək səviyyədədir.

Fonda yardım edənlərin siyahısına nəzər yetirsək, burada yalnız dövlət qurumları və şirkətlərin adı əks olunmayıb. Çox sayda adi vətəndaşlarımız, pensiyaçıdan tutmuş işsizinə qədər hamı gücü çatan qədər orduya dəstək olur. Burada məbləğ önəmli deyil, əsas məsələnin mənəvi tərəfidir. Bu da birmənalı şəkildə vətəndaşlarımızın orduya, Ali Baş Komandana inamının və birliyin nəticəsi kimi xarakterizə olunmalıdır. Düşünürəm ki, bu birlik qələbə üçün çox vacib idi və biz xalq olaraq buna nail olduq. Bu gün əldə etdiyimiz və qısa zamanda əldə edəcəyimiz qələbələrin əsasını məhz Azərbaycanda bir yumruq kimi müşahidə edilən birlik formalaşdırdı. Xalq orduya, Ali Baş Komandanına inanır, ordu da öz xalqını qoruyur. Qarabağ Azərbaycandır!".



## Sahibə Qafarova: "Tezliklə Azərbaycan bayrağı Xankəndidə dalğalanacaq"

***"Erməni vandalizmi nəticəsində torpaqlarımızın çox hissəsi işğaldan azad edilməkdədir. Füzuli, Qubadlı, Zəngilan və Cəbrayılın kəndlərində Azərbaycan bayrağı dalğalanır. Hərbi əməliyyatların aparıldığı 1 ay 10 gündən çox müddət onu göstərir ki Azərbaycan Ordusu hər şeyə qadirdir".***

"Unikal" xəbər verir ki, bu fikirləri Milli Məclisin sədri Sahibə Qafarova plenar iclasda çıxışı zamanı deyib.

Sədr bildirib ki, bu müddət ərzində Ermənistanın hərbi bazası və canlı qüvvəsi məhv edilib: «Eyni zamanda, xalqımızın haqq işinə beynəlxalq münasibət də diqqət çəkir. Ermənistan Azərbaycana qarşı apardığı informasiya müharibəsində məğlubiyyətlə üzləşir. Ölkə başçısının beynəlxalq medaiaya müsahibələr verməsi, Ermənistanın iç üzünü və Azərbaycanın haqq işini ortaya qoyması beynəlxalq ictimaiyyətin hadisələri daha yaxından izləməsinin göstəricisidir. Tezliklə Azərbaycan bayrağı Şuşada, eləcə də Xankəndidə, Laçında dalğalanacaq. Yaşasın Azərbaycan ordusu! Qarabağ Azərbaycandır!".

## Bəxtiyar Əliyev: "Şəhərlərimiz darmadağın edilib, bunlar sənədləşdirilməlidir"



***"Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımız azad edilir. Biz inanırıq ki, müzəffər Azərbaycan Ordusu torpaqlarımızın bütövlüyünü və suverenliyini bərpa edəcək".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Elm və Təhsil komitəsinin sədri Bəxtiyar Əliyev parlamentin iclasında deyib.

Onun sözlərinə görə, bu gün Prezident İlham Əliyev xarici mətbuatdakı müsahibələrində Azərbaycan dövlətinin siyasətini və baş verən hadisələri çox ardıcıl şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırır:

"Prezident Azərbaycanın ünvanına səsləndirilən xoşagəlməz məsələlərə də aydınlıq gətirir. Bir daha diqqətə çatdırır ki, Azərbaycan Respublikası terrorçuluğa qarşı mübarizədə həmişə ön sırada dayanıb. Bir faktı mən diqqətə çatdırmaq istəyirəm ki, 2001-ci ilin sentyabr ayında ABŞ-da terror hadisəsi zamanı hələ AŞPA-da Avropa ölkələri susanda o zaman nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyev məsələ qaldırdı və bildirdi ki, biz susmalı deyilik və terrorizmə qarşı mübarizədə qüvvələrimizi səfərbər etməliyik".

B.Əliyev vurğulayıb ki, bu sözlər hələ o zaman deyilmiş və Azərbaycan xalqının, dövlətinin iradəsi ortaya qoyulmuşdu: "Bu gün torpaqlarımız işğaldan azad edildikcə biz görürük ki, bizim bütün kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz darmadağın edilib. Mədəni sərvətimiz məhv edilib. Düşünürəm ki, bu məsələlərlə bağlı sənədləşmə aparılmalı, cinayət işləri qaldırılmalı, bu işdə əli olmuş bütün insanlar cinayət məsuliyyətinə cəlb edilməli və onlar haqqında tədbirlər görülməlidir".

## TƏBİB-dən yeni təyinat

***Milli Hematologiya və Transfuziologiya Mərkəzində struktur dəyişikliyi olub.***

Mərkəzdə İctimaiyyətlə əlaqələr şöbəsi yaradılıb. Emil Lətifov İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri təyin edilib.

# “Artıq dünya Azərbaycanı qüdrətli bir dövlət kimi qəbul edir”

## Tahir Kərimli: “Son günlər döyüş meydanındakı uğurlardan sonra bizim köklü, döyüşkən bir xalq olduğumuz bir daha sübuta yetirildi”

***Ordumuzun döyüş meydanındakı uğurlarına paralel olaraq, Prezident İlham Əliyevin siyasət və diplomatiya müstəvisindəki fəaliyyəti Azərbaycanı qələbəyə daha da yaxınlaşdırır. Əgər bir neçə ay öncəyə qədər beynəlxalq təşkilatlar, bir sıra iri dövlətlər Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyinə qarşı ikili standartlarla yanaşırdılarsa, artıq bu tendensiya dəyişib.***

“Unikal” qəzetinə müsahibə verən Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli öncə bu mövzu ətrafında fikirlərini bölüşüb.

***-Tahir bəy, Prezident İlham Əliyev son bir ay ərzində ard-arda müxtəlif xarici mediaya müsahibələr verir. Ölkə başçısının çıxışları barədə nə deyə bilərsiniz?***

-Vətən Müharibəsi başlayandan bəri cənab Prezidentin çıxışları, müsahibələri müstəsna dərəcədə əhəmiyyətə malikdir. Prezident İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində növbəti dəfə Azərbaycanın haqlı mövqeyini qəti şəkildə ortaya qoydu.

Prezident bu çıxışları ilə indiyə kimi Azərbaycan haqqında formalaşmış yanlış informasiyanı dağıdaraq həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırır. Bəzən deyirlər ki, filan ölkənin müxbiri niyə belə sual verir. Mən deyirəm ki, qoy versin, çünki o suallar nəticəsində Azərbaycanla bağlı həqiqətlər bir daha ortaya qoyulur. Ola bilsin ki, Almaniyada bir çoxları elə bilir ki, Qarabağ erməni torpağıdır, bu münaqişədə Azərbaycan haqsızdır. Amma Prezident tarixə ekskursiya edir, faktlarla danışır, Gülüstan, Türkmənçay müqavilələrini əsas gətirir, ermənilərin Qafqaza gəlmə xalq olduğunu deyir və sübut edir. Almaniyada, Avropada da görürlər, anlayırlar ki, Ermənistan işğalçıdır. Ümumiyyətlə, bu çıxışlar nəticəsində dünya erməniliyinə yeni baxış formalaşır. Cənab Prezidentin sonuncu müsahibəsini daha cəsarətli hesab edirəm. Açıq şəkildə Minsk Qrupunun həmsədr dövlətlərinin ermənilərə necə dəstək verdiyini ortaya qoyur. Bunun üçün ciddi siyasi iradən olmalıdır. Prezident İlham Əliyev bu iradəni ortaya qoymağı bacarıb. Hesab edirəm ki, Prezident İlham Əliyevin bütün müsahibələri, çıxışları siyasi, diplomatik, strateji cəhətdən yüksək qiymətləndirilməlidir.

Bunlar hələ aysberqin görünən tərəfləridir. Diplomatiyamızın və siyasi iradəmizin görünməyən tərəfləri də böyükdür. Məsələn Fransa prezidenti Makron bir müddət əvvəl necə çərənləyirdi, amma indi sanki ağıllanıb. Qarşısındakı gücün sıradan bir güc olmadığını anlayaraq, bir qədər geri çəkilib. Bütün bunlar elə-belə olmayıb. Ona görə də mən hesab edirəm ki, biz təkcə Qarabağı işğaldan azad edib ərazi bütövlüyümüzü təmin etmirik,biz həmçinin, Azərbaycanın ləyaqəti, vüqarı bərpa olunur. Bu yolda cənab Prezidentin rolu müstəsna dərəcədə əhəmiyyətlidir. Bu proses başlayandan bəri bütün mənalarda Azərbaycan böyüyür, Ermənistan isə kiçilir. Azərbaycanın həm dövlət kimi imici, millət kimi dəyəri yüksəlir. Bütün bunlar həm siyasi, həm diplomatik, həm də hərbi uğurların nəticəsidir.



***-Vətən Müharibəsi başlamamışdan öncə beynəlxalq ictimaiyyətin, bir sıra dövlətlərin Azərbaycana, Qarabağ münaqişəsinə olan münasibəti ilə hazırkı dövrdə olan münasibətdə hansı fərqlər var?***

-Təbii ki, ciddi dəyişiklik var. Bir məqamı deyim ki, dünyanın bizə münasibəti ilə Azərbaycan xalqının öz-özünə olan münasibəti üst-üstə düşürdü. Hər şeydən öncə biz öz gözümüzdə daha da dəyərləndik, daha da gücləndik, başımız ucaldı. Biz son bir aydan çox müddətdə məğmun xalqdan qüdrətli xalqa çevrildik. Bu qısa müddətdə dövlətçilik ənənəsi olan, qəhrəman xalq olduğumuzu sübut eləməyə başladıq. Biz utanırdıq deyək ki, Koroğlu, Qaçaq Nəbi nəvələriyik. Bununla biz öz gözümüzdə böyüdük, özümüzə hörmətimiz artdı. Təbii ki, özünə hörmət edənə başqası da hörmət edər. Bizim güc göstərməyimiz, yüksək texnoloji silahlardan istifadə etməklə döyüşlərdə qalib gəlməyimiz dünyadakı Azərbaycan obrazını dəyişdi. Ermənilər indiyə kimi təbliğat aparırdılar ki, guya yüksək sivilizasiyalı xristian dövlətidirlər, amma Azərbaycan köçəri barbarlardır. Amma necə ola bilərdi ki, bu barbarlar burada multikultural mühit yaratdı, mədəniyyət formalaşdırdı, illərlə böyük tədbirlər təşkil elədi? Bütün bunlarla Azərbaycanın mədəni obrazı yaradıldı. Müharibəyə qədərki dövrdə beynəlxalq idman yarışları, musiqi festivalları təşkil olundu ki, hamısına da böyük vəsaitlər xərclənib. İndi aydın olur ki, bunların hamısı Azərbaycanın mədəni bir dövlət obrazının yaradılmasına hesablanıb. Dünya da bizə mədəni bir xalq kimi baxmağa başladı. Artıq dünya Azərbaycanı qüdrətli bir dövlət kimi qəbul edir. Son günlər döyüş meydanındakı uğurlardan sonra bizim köklü, döyüşkən bir xalq olduğumuz bir daha sübuta yetirildi. Bununla təkcə Azərbaycan yox, Türk dünyasının başı ucaldı.

***-Türkiyə-Azərbaycan münasibətləri hər zaman qardaşlıq müstəvisində olub. Amma bu mərhələdə sanki daha fərqli boyuta keçdi...***

-Biz hər zaman türklərdən arxayın olmuşuq. Ötən əsrdə də, indi də xilaskar missiyalarını ifadə ediblər. Zaman-zaman bizə qarşı da, digər türk xalqlarına qarşı dostluq, qardaşlıq ediblər. Onlarda milli şüur hər zaman yüksək olub. Şübhəsiz ki, Türkiyə bu işə qarışmasaydı, qarantiya olmasaydı, üçüncü dövlət prosesə asanlıqla müdaxilə edərdi və bu müdaxilə də bizim qələbə imkanlarımızı azaldardı. Bir məqamı deyim ki, son qırx gündə həyata keçirilən əməliyyatlar, Azərbaycan və türk hərbi sənətinin keçmiş sovet hərbi sənətinin üstələdiyi sübut olundu. Bu da çox vacib məqamlardan biridir.

***-Müsbət məqamlardan biri də o oldu ki, bu günə kimi hakimiyyətlə hər hansı məsələdə ortaq mövqeyə gələ bilməyən müxalifət belə vahid mövqedən çıxış etdi. Siyasi qüvvələrin vahid mövqedən çıxış etməsini necə dəyərləndirdiniz?***

-Əslində diqqət etdinizsə, bir müddət öncədən islahatlar, siyasi partiyalarla dialoq və sair proseslər başlamışdı. Amma bu müharibədə haqlılıq önə çıxdı. Məsələn, bayaq qeyd etdiyim kimi, müxalifət hakimiyyəti ittiham edirdi ki, niyə bu qədər tədbirlər keçirilir, milyonlarla vəsait xərclənir. Xudafərin Su Elektrik Stansiyası ilə bağlı narazılığımızı bəyan edirdik. Elə mənim özüm də Milli Məclisdə özümü cilovlaya bilmirdim, kəskin çıxış edirdim. Soruşurdum ki, kim qoymur bizi müharibə etməyə, Qarabağı almağa. Yəni, bu və ya digər məsələlərdə iqtidarı ittiham edirdik. İndi iqtidar müharibəni bu şəkildə yüksək səviyyədə aparmaqla müxalifəti də tərki-silah etmiş oldu. Bütün siyasi qüvvələrin ortaq məxrəcə gəlməsi çox yaxşıdır. Millət sanki yenidən doğulur, onun birliyi yaranır. İnsanların bir birinin gözündə dəyəri artır, etibarı yaranır.

***-Tahir bəy, Siz həm də cəbhədə övladı olan vətəndaşsınız. Bu səbəbdən də həm döyüşçü valideyni, həm bir ziyalı kimi hazırkı məqamda xalqımıza hansı çağırışı edərdiniz?***

-Övladının cəbhədə olması, döyüşməsi hər şeydən öncə mənim də vətən qarşısında üzümü ağ edir. Sanki bir borcumu yerinə yetirirəm. Ən əsası da hamıdan əvvəl öz bacımın yanında üzüm ağ olur. Mən indiyə kimi şəhid dayısı olduğumu deyirdim. Kimlərsə hesab edə bilərdi ki, mən bundan istifadə eləmişəm. Əsla. Mən ancaq fəxr eləmişəm. Amma indi öz övladım da döyüşdədir. İndi mənəvi haqq qazanmış oluram. Heç kimin balası heç kimdən artıq deyil. İndi bizim balamız bir candır. Amma bütövlükdə xalq özünü dərk edəndə, Vətən Müharibəsinə keçəndə hamı öz balasını vətən yolunda verməyə hazır olur. Artıq belə məqamda düşünmürsən ki, övlad mənimdi, deyirsən ki, vətənindir. Bu, şərəfli bir işdir. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimiz tez sağalsın. Mən qətiyyən şübhə etmirəm ki, qələbə bizim olacaq. Nəinki indiki müharibədə, birinci Qarabağ savaşında şəhid olan balalarımızın da qisası alınacaq. Torpaqlarımız azad ediləcək, qələbə bizim olacaq. Buna heç kimin şübhəsi olmasın.

***Z.Məmmədli***

# Cahangir Əsgərovun çətin seçimi

## AZAL ya dövlət büdcəsi üzərində ağır yükə çevrilməkdən qurtulmalıdır, ya da...

***Bir neçə gün öncə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi bu ilin yanvar-sentyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında aparıcı şirkətlərin adlarını açıqlayıb. Qurumun oktyabr ayı üzrə "İxrac icmalı"ndan belə məlum olur ki, dövlətə məxsus ixracatçı subyektlərin siyahısında "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) də adı var.***

Ekspertlərin fikrincə bu təəccüblü deyil. Çünki AZAL kifayət qədər böyük dövlət şirkətidir və onun adının qeyri-neft sektoru üzrə ixracında aparıcı müəssisələr arasında yer alması təbiidir. Önəmli olan adıçəkilən QSC-nin göstəricilərinin nə qədər yüksək olmasıdır. Ekspertlər bu baxımdan optimist deyillər. Onların fikrincə, həmin göstəricilər yetərincə yüksək olsaydı, AZAL az qala hər il zərər açıqlayan dövlət şirkətlərinin də ön sırasında dayanmazdı. Unutmayaq ki, bu ilin fevralında "Azərbaycan Hava Yolları"nın təkcə 2017-ci ili 41 milyon 568 milyon manat zərərlə başa vurduğu açıqlanmışdı.



Düzdür, aviaşirkətin maliyyə hesabatına görə, həmin rəqəm 2016-cı ilə nisbətən 83,7% azdır. Lakin istənilən halda Cahangir Əsgərovun rəhbərlik etdiyi QSC-nin hər il zərər açıqlamaqdan qurtula bilməməsi düşündürücüdür.

Üstəlik, qurumun yığılmış zərəri təkcə bir ildə 3 faiz də artaraq 1 milyard 433 milyon 579 min manata çatıb.

Xatırladaq ki, AZAL 1992-ci ildə yaradılıb, ölkənin milli aviadaşıyıcısıdır. Səhmləri 100 faiz dövlətə məxsus aviaşirkətin nizamnamə kapitalı 823 milyon 974 min manatdır.

İllər uzunudur istər media, istərsə də müstəqil iqtisadçı ekspertlər haqlı olaraq sual edirlər ki, necə ola bilər, QSC monopolist mövqelərə sahibdir, lakin ziyandan heç cür xilas ola bilmir? Təəssüf ki, "Azərbaycan Hava Yolları"nın rəhbərliyi indiyədək hər kəsi düşündürən bu suala bircə dəfə də olsun, cavab vermək lütfünü göstərməyib.

Artıq yekun ictimai rəy bundan ibarətdir ki, ümumi zərəri manatla ifadə etsək, milyard yarıma çatması haqqında danışılan dövlət şirkətinin fəaliyyətində ciddi islahatların aparılmasını zəruri edir. Əks halda AZAL hələ bundan sonra da uzun illər ərzində dövlət büdcəsi üzərində "ağır yük" rolunu oynayacaq.

Vəziyyət o yerə çatıb ki, ölkə başçısı bu ilin avqustunda keçirdiyi müşavirədə adıçəkilən dövlət şirkətinin işindən narazılığını açıq şəkildə dilə gətirdi. "AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıbdır. Bütün aeroportlar dövlət tərəfindən tikilibdir. Bəs, bunun dövlətə verdiyi mənfəət, gəlir nədir? Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs bunun gəliri haradadır? Bu nə vaxt ödəniləcək, götürdüyü kreditləri gərək dövlət zəmanəti hesabına sonra biz ödəyək?" - deyə dövlət rəhbəri bildirib.

Ekspertlərin fikrincə, Prezidentin bəhs etdiyimiz çıxışı əslində AZAL rəhbərliyinə ən yüksək səviyyədə edilən sonuncu xəbərdarlıqdır. Cahangir Əsgərov qısa müddətdə rəhbərlik etdiyi QSC-ni zərərlə işləməkdən xilas etməsə, bu onun həmin vəzifədəki uzunmüddətli karyerasının sonu ola bilər. "Əsgərov da yaxşı başa düşür ki, çətin vəziyyətlə, ağır seçimlə üzləşib. Ya AZAL-ı zərərlə işləyən dövlət şirkətindən axır ki, qazancla işləyən dövlət şirkətinə çevirməlidir, ya da öz postu ilə vidalaşmalıdır. Açığı, birinci variant bir o qədər də real görünmür. Xüsusilə öncə pandemiya ilə əlaqədar uçuşların azalması, ardınca yaranmış müharibə şəraiti bu QSC-nin gəlirlərini kəskin aşağı salıb. Lakin hər bir müəssisənin, şirkətin, xüsusilə dövlət şirkətinin borcudur ki, gözlənilməz situasiyalara hazırlıqlı olsun, belə vəziyyətlərdə "B", "C" planlarını işə sala bilsin" deyən ekspertlər onu da əlavə edirlər ki, AZAL rəhbərliyinin belə planlarının olduğuna inanmırlar. Hətta bu dövlət şirkətinin "A" planının olduğu da şübhə altındadır. Əks halda "Azərbaycan Hava Yolları" ötən illər ərzində, heç olmasa, bircə dəfə qazancla işləyərdi...

Digər tərəfdən, bu QSC hətta normal zamanlarda belə zərərdən qurtula bilmirdisə, çətin ki, mövcud durumda öz fəaliyyətində müsbət dönüş yaratmağa nail olsun. Odur ki, daha ağlabatan versiya müəyyən müddətdən sonra adıçəkilən dövlət şirkətində genişmiqyaslı reformlara start veriləcəyidir. Bu sırada kadr islahatı qaçılmaz görünür və istisna deyil ki, ilk olaraq məhz AZAL prezidenti öz vəzifəsi ilə vidalaşmalı olacaq.

Yeri gəlmişkən, ölkə başçısının tənqidindən sonra yerli KİV yazırdı ki, sözügedən QSC-də təmizləmə əməliyyatına start verilib. Bildirilirdi ki, şirkətin Təhlükəsizlik İdarəsinin rəhbər heyəti tamamilə işdən azad edilib. Lakin sonradan bu təmizləmələr barədə təfərrüatlar aydın olmadı. Ekspertlərə görə isə AZAL-ın hansısa idarəsində kadr dəyişiklikləri ilə "Azərbaycan Hava Yolları"nın fəaliyyətində köklü, müsbət dəyişikliklərin yaşanması artıq qeyri-real görünür. Bunun üçün adıçəkilən QSC-də daha dərin islahatlara ehtiyac var...

***Orxan Həsənli***

# "Müjdələr qələbənin yaxın günlərdə yaşanması inamını yaradır" - General



***"Cənab Ali Baş Komandan İlham Əliyevin əzmi, düzgün siyasəti, qətiyyət və strateji idarəetməsi ilə Azərbaycan ordusu dünya tarixinə zəfər və qalibiyyət salnaməsini həkk etdirir. Artıq bütün dünya ordumuzun yenilməzliyinə, qazandığı nailiyyətlərinə və gücünə bələd olmaqla bərabər Azərbaycan dövlətinin müharibə şəraitində belə, beynəlxalq hüququn bütün norma və prinsiplərinə sadiq qalmaqla apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində öz tarixi, əzəli-əbədi torpaqlarını işğaldan azad edərək regionda sülhün və ədalətin bərpası üçün əməli işlər gördüyünün şahidi olur".***

Unikal.org xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyev deyib.

O bildirib ki, Azərbaycanın bütün sahələrdə dayanıqlı və davamlı inkişafa nail olması əldə olunan uğurlu hərbi əməliyyatların və qələbəmizin rəhnidir:

"Cəsarətlə deyə bilərik ki, qalib Azərbaycan Ordusu regionda sülhün və ədalətin təminatçısı olmaq əzmində və gücündədir. Mülki vətəndaşlarımızın beynəlxalq miqyasda qadağan olunmuş raketlərlə hədəfə alınması və dinc əhalinin daima atəş altında saxlanılması onların riyakar planlarının bir hissəsi idi. Bütün bunlara baxmayaraq gələn bəla qarşısında məğrur dayanan, öz Ali Baş Komandanına və ordusuna güvənən Azərbaycan xaqlı düşmənin bu planlarını da alt-üst etməkdədir. Cənab Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusu düşmənin layiqli cavabını verir.

Müdafiə Nazirliyi tərəfindən əldə olunan kəşfiyyat məlumatlarına əsasən aydın olmuşdur ki, Ermənistanın Xocavənd istiqamətinə xeyli miqdarda qadağan olunmuş ağ fosfor tərkibli yük gətirərək Şuşa meşələrində yanğınlar törətməsi düşmənin növbəti hərbi cinayət törətmək niyyətinin açıq-aşkar sübutudur. Düşmən döyüş və hərbi əməliyyatlar zamanı ordumuzun uğurla irəliləməsinin qarşısını almaq məqsədi ilə ekoloji terror törədərək zəhərli və söndürülməsi mümkün olmayan maddələrdən istifadə edərək meşələri yandırmaqla ətraf mühitin qorunması üzrə beynəlxalq konvensiyalara qarşı çıxır. Ağ fosfor tipli bombalardan istifadə etməklə törədilən yanğınların uzun müddət davam etməsində maraqlı olan riyakar düşmən döyüş meydanında məğlubiyyətini etiraf edir və hərbi cinayətlər törədərək dünyaya öz işğalçı və terrorçu imicini bir daha tanıdır".

Məhərrəm Əliyev əlavə edib ki, Azərbaycan tərəfinin düşmənə dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, Ermənistan tərəfindən hərbi cinayətlər və dinc əhalinin atəşə tutulması davam edir:

"Azərbaycan ordusunun nümayiş etdirdiyi təmkin və mərkəzləşmiş vahid komandanlıq altında idarəetmə sistemi ilə Ermənistan ərazisindən bölmələrimizin mövqelərinə və yaşayış məntəqələrimizə açılan atəş nöqtələri təyinatları və döyüş vasitələri adekvat tədbirlər çərçivəsində legitim hərbi hədəflərə çevrilir və çevriləcək.

Biz döyüş meydanında öz gücümüzü göstərməklə bərabər, humanist və bəşəri dəyərlərə hörmətimizi də nümayiş etdiririk. Azərbaycan ordusu tərəfindən əsir götürülən hərbi və mülki vətəndaşlara diqqət və həssaslıqla yanaşılır, onların qarşı tərəfə sağlam təhvil verilməsinə cəhd edilir. Ancaq təəssüflər olsun ki, Ermənistan hərbi və siyasi rəhbərliyi ölkədaxili təzyiq və gərginlikdən qorxaraq öz vətəndaşlarına sahib çıxmır və öz vətəndaşlarını yanlış məlumatlarla aldadır. Başda Ali Baş Komandanımız olmaqla müharibənin taleyini müəyyən edən, döyüş meydanında əsl şücaət göstərən şanlı Azərbaycan ordusunun səyləri nəticəsində iflic vəziyyətə düşən Ermənistan ordusunun arsenalında yer alan köhnə və istismar müddəti bitmiş silah və hərbi sursatların məhv edilməsi illərlə özlərini və dünyanı aldadaraq yaratmış olduqları güclü və qalib erməni ordusu mifinin real durumunu təsbit edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın televiziya kanalına müsahibəsində qeyd etdiyi kimi: "Müzəffər erməni ordusu" haqqında mif puç oldu, əslində isə belə ordu yox idi. Münaqişənin tarixinə dərindən bələd olanlar çox gözəl bilirlər ki, bizim torpaqlarımız, o cümlədən sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən işğal edilib. Xankəndidə yerləşən bu alaydakı hərbi qulluqçuların məncə, 70 faizi erməni mənşəli idi. Yəni bu, şəxsi heyəti ermənilərdən ibarət olan sovet silahları, sovet komandanlığı idi. Onlar həm etnik təmizləmələrdə, həm də soyqırımında fəal rol oynayırdılar".

Xalqımız şanlı Azərbaycan Ordusunun tam qələbəsini böyük ümid və inamla gözləyir. Hər gün cəbhədən gələn müjdələr Qələbə gününün uzaq deyil, yaxın günlərdə yaşanması inamını yaradır. Cənab Ali Baş Komandanımızın ətrafında sıx birləşən xalqımızın həmrəyliyi və Azərbaycan ordusunun gücü sayəsində qələbə bizimdir!

Qarabağ Azərbaycandır!".

# Ombudsman Aparatından Xədicə ilə bağlı açıqlama

***Hər iki valideynini itirmiş Xədicənin məsələsi Ombudsmanın daimi nəzarətindədir.***

Unikal.org xəbər verir ki, bu barədə Ombudsman Aparatı məlumat yayıb. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumları nəticəsində hər iki valideynini itirmiş 3 yaşlı Şahnəzərli Xədicə Röyal qızı barəsində sosial şəbəkələrdə video görüntülər yayılıb. Məsələ Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın diqqətindədir.

İlk gündən Müvəkkilin təşəbbüsü ilə zərərçəkmiş ailə və uşaqlara ünvanlanan psixoloji konsultasiyalara Xədicə də cəlb olunub. Fəaliyyət prosesində uşağın mərhum valideynlərinin yaxın qohumlarına qanunvericiliyə uyğun olaraq qəyyumluğa götürülmə proseduru da izah edilib, hüquqi məsləhətlər verilib.

Xədicə hazırda ana tərəfindən nənə və babasının himayəsində yaşayır və yaxın qohumları onun rəsmi qəyyumluğa götürülməsi ilə bağlı Qəyyumluq və Himayəçilik orqanına müraciət ediblər. Xədicənin ata qohumları da onun qəyyumluğa götürülməsi üçün müraciət edib.

Hazırda hər iki ailənin Gəncə şəhər Kəpəz rayon İcra Hakimiyyətinin Qəyyumluq və Himayəçilik orqanına müraciəti əsasında aidiyyatı dövlət qurumlarına sorğular verilməklə müvafiq araşdırmalar aparılır. Araşdırma müddətində Xədicənin psixoloji durumu nəzərə alınaraq nənəsi Ağayeva Sevinc Bayram qızının himayəsində yaşaması Qəyyumluq və Himayəçilik orqanı tərəfindən məqsədəuyğun hesab edilib.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 136.1-ci maddəsinə əsasən Qəyyumluq və himayə valideynlərini itirmiş uşaqlara onların saxlanması, tərbiyə olunması, təhsil alması, habelə onların hüquq və vəzifələrinin qorunması məqsədilə müəyyən olunur. Həmin Məcəllənin 137.2-ci maddəsinə əsasən isə uşaqlara qəyyum (himayəçi) təyin edilərkən qəyyumun (himayəçinin) əxlaqı və başqa cəhətləri, onun qəyyumluq (himayə) vəzifəsini yerinə yetirə bilməsi, onun və ailəsinin uşaqla ünsiyyəti və münasibəti, habelə mümkünsə, uşağın öz arzusu nəzərə alınmalıdır.

Uşağın ən ümdə maraqlarının təmini baxımından onun saxlanması, tərbiyə olunması, təhsil alması, habelə hüquqlarının müdafiəsi məqsədilə müraciət etmiş ən uyğun şəxs qəyyum olaraq təyin olunmalıdır.

Bu baxımdan Xədicənin valideynlərinin yaxın qohumlarına səbirli olmağı və Gəncə şəhər Kəpəz rayon İcra Hakimiyyətinin Qəyyumluq və Himayəçilik orqanının qəyyumluqla bağlı müvafiq qərarını gözləməyi, həmçinin bu müddət ərzində Xədicənin psixoloji sağlamlığı durumuna xələl gətirə biləcək münaqişəli hallardan uzaq durmalarını tövsiyə edirik.

***Zaurə Əmirova***

# Kəlbəcər istiqamətində PKK terrorçuları məhv edildi

***Ermənistan silahlı qüvvələri tərkibində döyüşən PKK terrorçularının növbəti qrupu məhv edilib.***

Gecə ərzində düşmənin Kəlbəcər istiqamətində yerləşdirdiyi PKK terrorçuları müxtəlif istiqamətlərdə irəliləməyə çalışaraq terror-təxribat aktları törətməyə cəhd ediblər.

Daxil olmuş əməliyyat məlumatları əsasında, onların "Sərsəng" SES istiqamətində terror aktı törətmək niyyətlərinin olduğu aşkarlanıb. Nəticədə, peyk və PUA çəkilişləri əsasında terrorçuların müvəqqəti cəmləşdiyi ərazi müəyyən edilib və çoxlu sayda həyəti məhv edilib. Əldə edilən məlumata görə, məhv edilən terrorçuların daxilində "Əl-Həsəkə Hərbi Şurası"nın üzvləri, vaxtilə "Barış Pınarı" əməliyyatında Türkiyə Silahlı Qüvvələrinə qarşı terror aktları törətmiş Əbdülbari Zərdüşt, Seydo Ahmet, Mahir Qabar kimi şəxslər yer alıb. Qeyd edək ki, gecə ərzində aparılan əməliyyatlar zamanı azı 15 PKK terrorçusu məhv edilib.

# Aptek və supermarketlərdə maska reydi

***Gəncədə koronavirus infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə reyd keçirilib.***

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin Gəncə şəhərindəki regional qrupundan "Unikal"a verilən məlumata görə, şəhər Baş Polis İdarəsinin əməkdaşları koronavirus infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə şəhər ərazisindəki iri supermarketlərdə, apteklərdə və fəaliyyətinə icazə verilən digər qapalı məkanlarda gücləndirilmiş nəzarət-profilaktik tədbirlər həyata keçirir. Obyektlərdə sosial məsafəni gözləməyən, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyən şəxslər qanunvericiliyə uyğun olaraq, inzibati məsuliyyətə cəlb edilirlər. Tədbir zamanı polislər tərəfindən sahibkarlar, eləcə də alıcıların diqqətinə sanitar-karantin qaydalarına ciddi əməl etməklə fəaliyyət göstərməyin vacibliyi çatdırılıb.

# Dövlət Məşğulluq Xidmətinin 35 min manatlıq "vətənpərvərliyi"...

## Vətən müharibəsinə ən böyük dəstək hər kəsin öz işinin öhdəsindən vicdanla gəlməsidir!




***Azərbaycanda keçirilən tenderlərlə bağlı mübahisələrə daim şahidlik edirik. Bu müsabiqələrin nəticələri və qalibləri bir qayda olaraq müzakirə predmetinə çevrilir. Düzdür, son illərdə dövlət satınalmaları ilə bağlı təşkil olunan tenderlərdə şəffaflığın və ədalətliliyin təmin edilməsi istiqamətində irəliyə doğru xeyli müsbət addım atılıb. Lakin problemin kökündən həlli ilə bağlı danışmaq, belə görünür ki, hələ çox tezdir.***

Ötən həftə nəticəsi açıqlanan tender isə yalnız ənənəvi məqamlarına görə kəskin qınaq hədəfi olmadı. Həmin tenderin cəmiyyətdə ciddi qıcıq doğurmasının başqa aspektləri də vardı. Söhbət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında "Dövlət Məşğulluq Agentliyi" publik hüquqi şəxsin inzibati binasında Azərbaycan dövlət bayrağının əks olunması üzrə satınlama müqaviləsinin nəticələrindən gedir.

Bu barədə məlumatda deyilirdi ki, "Lotus Co" QSC kotirovka sorğusunda iştirak etmək üçün sənədləri 28 oktyabr 2020-ci il saat 15:00-dək qəbul olunub. Cəmi bir iş günü sonra 30 oktyabr 2020-ci il tarixindən sifarişin icrasına başlanılıb. Məlumata görə, buna görə, "Lotus Co"ya 35 343.36 manat ödəyəcək.

Hazırda Azərbaycan Vətən müharibəsi aparır və bu, ölkədə vətənpərvərlik əhval-ruhiyyəsinin hədsiz yüksəlməsinə səbəb olub. Biz yaşayış və inzibati binalardan, ticarət obyektlərindən tutmuş avtomobillərəcən hər yerdə bayraqlarımızın asıldığını görürük. Bu mənzərə hər birimizin qəlbini fərəhləndirir. Vətən müharibəsində birliyimizi, diriliyimizi, həmrəyliyimizi və coşqumuzu ifadə edir.

Elə Dövlət Məşğulluq Xidmətinin inzibati binasında Azərbaycan dövlət bayrağının əks olunmasını da bu mənada təbii qarşılamaq mümkündü.

Lakin həmin məqsədlə 35 min manatdan çox xərclənməsi, üstəlik, icraçı şirkətin kotirovka sorğusunda iştirak etmək üçün sənədlərini təqdim etdikdən cəmi bir gün sonra işə başlaması haqlı olaraq ictimai tənqid və qınağa yol açıb. Ən maraqlısı isə odur ki, adıçəkilən Xidmət bu tənqid və qınaqlar qarşısında susqunluğa bürünüb. Niyə? İki cavabımız var: ya bu qurum həmişəki kimi ictimai rəyi ciddiyə almır, onunla hesablaşmamaq yolu tutur, ya da...

Ya da - susmaq razılıq əlaməti olduğundan səhvini anlayır, lakin dilə gətirməkdən çəkinir, utanır.

İstənilən halda tanınmış iqtisadçı ekspert Natiq Cəfərlinin dediyi kimi: "Hansısa bir göstərici üçün 35,3 min manatlıq bayraq asmaq vətənpərvərlik deyil, əksinə vətəndaşa hörmətsizlikdir!". Ekspertin dediyi kimi, sözügedən qurumun bununla guya vətənpərvərlik hisslərini biruzə verməyə çalışması tamamilə absurd yanaşmadır. Çünki Dövlət Məşğulluq Xidmətinin görəcəyi işlər başqadır. Əsl vətənpərvərlik həmin qurumun üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsi, dövlət vəsaitlərindən düzgün istifadəsi, ən əsası isə, məşğulluqla bağlı olan problemlərin həllində vətəndaşlara kömək etməsidir. İndi işsizliklə, müavinətlərlə bağlı ciddi problemlər var. Pandemiya ilə əlaqədar olaraq çoxlu sayda insan iş axtarışındadır. Dövlət Məşğulluq Xidmətinin borcu həmin məsələlərin həllində daha səmərəli, effektiv çalışmaqdır. Adıçəkilən qurumun vətənpərvərliyinin ən bariz nümayişi də elə bu olardı!

Düzdür, müharibə şəraiti olduğundan insanlar bütün sosial-iqtisadi problemlərini bir kənara atıb, "Hər şey cəbhə üçün! Hər şey qələbə üçün!" devizi ətrafında yumruq kimi birləşib. Vətəndaşları Qarabağın və işğaldakı digər torpaqların azad edilməsindən başqa heç nə düşündürmür, narahat eləmir. Lakin bu o demək deyil ki, bəzi dövlət qurumları öz üzərinə düşən öhdəlikləri yerinə yetirmək əvəzinə vəziyyətdən sui-istifadəyə çalışmalıdırlar. Unudulmamalıdır ki, dövlət məmuru öz davranışı ilə insanların rəğbətini qazanmalı, təvazökar olmalı, ictimaiyyəti qıcıqlandıra biləcək addımlar atmamalıdır. Məmur vəzifəsi başa qoyulan tac yox, onun çiyninə qoyulan ağır yük, böyük məsuliyyətdir. Özü də Vətən müharibəsi apardığımız, cəbhədə tarix yazdığımız, milli maraq və hədəflər ətrafında heç vaxt olmadığı qədər birləşdiyimiz bir vaxtda!

Bir sözlə, xüsusilə müəyyən məmurlar yaddan çıxarmamalıdırlar ki:

birincisi, indi dövlət vəsaitlərindən səmərəli, şəffaf, təyinatı üzrə yararlanmaq həmişəkindən daha vacib, daha əhəmiyyətlidir;

ikincisi, vətənpərvərlik duyğularını ifadə etmək üçün heç də həmişə pula, təntənəyə, dəbdəbəyə, pafosa ehtiyac yoxdur, vətəndaş və məmur məsuliyyətini dərk etmək kifayətdir;

üçüncüsü, Vətən müharibəsinə ən böyük dəstək hər kəsin öz işinin öhdəsindən vicdanla gəlməsidir!

***Sənan Mirzə***

# Bəzi icra başçıları ilə bağlı şikayətlər hələ də səngimək bilmir

***İcra başçıları son vaxtlar bir qayda olaraq vətəndaşlarla kobud rəftarı, laqeyd münasibəti, korrupsiyaya meylliliyi ilə gündəmə gəlir. Ekspertlər bunu təsadüf saymırlar: onların fikrincə, sovet dövrünün idarəetmə sisteminin təsirinin nəticəsidir ki, bəzi icra başçıları özlərini az qala əyalət padşahı kimi aparırlar.Mütəxəssislərin qənaətincə, davranış etibarilə raykom katiblərindən fərqlənməyən bəzi rayon rəhbərlərinin bu cür şəraitdə həyata keçirilən islahatlarla ayaqlaşması qeyri-mümkündür. Bildirilir ki, icra başçılarının bu postlara təyinatla gəlməsi rahatlıq yaradır, vətəndaş qarşısında məsuliyyətlərini dərk etməyə mane olur. "Əgər rayonlara, şəhərlərə əsas rəhbərlik bələdiyyələrə verilsə, mənzərə xeyli dəyişə bilər. Bələdiyyə başçıları, üzvləri növbəti seçkidə səs ala bilmək üçün camaata daha çox can yandıra, onların problemlərinə daha çox həssaslıq göstərə, təmiz işləməyə çalışa bilərlər" - bu da yerli icra hakimiyyətlərinin ləğvini məntiqli sayanların arqumentləridir.***



Həmin arqumentlərlə razılaşmayanlar isə yetərincədir. Bələlərinin fikrincə, əgər bir məmur öz vəzifə məsuliyyətini dərindən dərk və qəbul etmirsə, onun tutduğu posta seçilməsi, yaxud təyin olunması heç nəyi dəyişmir. Elə mövcud reallıq da bu fikri xeyli dərəcədə təsdiqləyir. Uzağa getməyək, son aylarda Qazax rayonunun İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov haqqında istər media və sosial şəbəkələrdə özünə yer alan tənqidlər, iradlar, istərsə də yerli ictimaiyyətin bir-birindən ilginc şikayətləri yuxarıdakı fikirlərin doğruluğuna şübhə yeri qoymur.

Gəlin yaxın tarixə qısa ekskurs edək: hələ iki il öncə Xocalı soyqırımının 26-cı ildönümü münasibətilə Qazax rayonunda keçirilən tədbirdə Babaşovun başı üzərində çətir tutdurması tənqid obyektinə çevrilmişdi. Həmin vaxt icra başçısının Xocalı abidəsini ziyarət edərkən yağışdan qorunmaq üçün mühafizəçisinin çətir tutduğu foto yerli mətbuatda əks olunmuş və ölkə mediası yazmışdı: "Havanın necə olmasından aslı olmayaraq, hüzn mərasimlərində, anım tədbirində rəsmi şəxslər şlyapa və çətirdən istifadə etməməlidirlər. Rəcəb Babaşovla bağlı fotoda yerli məmurların təvazökar ola bilməməsi dövlət başçısı tərəfindən dəfələrlə sadə, əhali arasında səmimi olmaları barədə tapşırıqlar verilməsinə baxmayaraq, nədənsə bəzən icra başçılarının özlərini krallar kimi aparmasının nümunəsidir".

Halbuki Babaşov Qazaxa yeni icra başçısı təyin edilərkən tamamilə fərqli davranış sərgiləyir, bu rayondan Bakıya və mərkəzi mətbuata şikayətlərin ünvanlanmamasına çalışır, ən xırda gileygüzara da həssaslıq nümayiş etdirirdi. Vaxt keçdikcə onun idarəetmə baxışları da dəyişdi: nə olursa olsun paytaxta narazılıq məktublarının getməsini önləmək!

Bu Azərbaycanda yerli icra başçılarının ənənəvi idarəetmə metodudur: əsas o deyil ki, rəhbərlik etdikləri rayonlarda narazı sakinlər olmasın. Əsas odur ki, həmin sakinlərin giley-güzarı, narazılığı ictimailəşməsin! Hətta ictimailəşsə belə, icra başçılarının səxavətindən dadanlar dərhal hərəkətə keçir, rayon rəhbərinin şəninə mədhiyyə söyləmək üçün növbəyə düzülürlər. Hazırda bunun ən parlaq nümunələrindən biri Qazax rayon İcra Hakimiyyətidir: Babaşov özü haqqında xırda tənqidi belə "qayğıkeşliyi", "səxavəti" ilə olduqca asanca "zərərsizləşdirməyi" bacarır.

Halbuki Azərbaycanın "qərb qapısı" hesab olunan rayonun sakinləri müxtəlif mövzularda şikayətlərini ən müxtəlif tribunalar, məsələn, sosial şəbəkələr vasitəsilə dilə gətirməyə davam edirlər. Belə şikayət sahiblərini isə sonradan heç də yaxşı aqibət gözləmir: onlar barədə məlumatlar toplanır, qaldırdıqları problemi yoluna qoymaq əvəzinə həmin şikayətçilər gözümçıxdıya salınır. Lakin bu "taktika" da Qazaxdan paytaxta ünvanlanan giley-güzarların qarşısını almaqda acizdir. Təsadüfi deyil ki, Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov 2018-ci ildə ölkə vətəndaşlarını düşündürən məsələlərin, onların problemlərinin dövlət orqanları tərəfindən necə həll olunmasından, bu işə göstərilən yüksək diqqət və tələbkarlıqdan bəhs edən geniş təhlili məqaləsində bildirmişdi ki, şəhər, rayon icra hakimiyyətlərinin və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti ilə bağlı daha çox şikayət gələn qurumlardan biri məhz Qazaxdır. Təcrübə onu göstərir ki, belə icra başçıları öz vəzifələrini uzun müddət qoruyub saxlaya bilmirlər.

Təcrübə həm də onu göstərir ki, adıçəkilən rayonla bağlı müşahidə olunan neqativ nüanslar əslində bir çox şəhər və rayonlarımız üçün xarakterikdir. Əlbəttə, ötən illərlə müqayisədə bu baxımdan vəziyyət müsbətə doğru xeyli dəyişib. Bununla belə, yerli icra hakimiyyətlərinin fəaliyyətində çoxsaylı neqativ məqamlar hələ də qalır. Həmin məqamları aradan qaldırmaq artıq günün tələbidir və bir çox icra başçılarının sərt şəkildə cəzalandırılması da həmin tələbin yerinə yetirilməsi istiqamətində qəti siyasi iradənin mövcudluğundan xəbər verir.Bircə qalır rayon rəhbərlərinin bu iradə ilə qeyd-şərtsiz hesablaşması və vətəndaşları narazı salan davranışlardan biryolluq əl çəkməsi!

***Elvin Rüstəmov***

# Əli Əsədov MDB ölkələrini Ermənistanı pisləməyə çağırdı



***"Ermənistandan fərqli olaraq Azərbaycan silahlı qüvvələri dinc əhali və mülki obyektlərə hücum etmir. Onlar yalnız legitim hərbi hədəfləri məhv edirlər. Biz MDB-nin üzv dövlətlərini Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törədən Ermənistanın əməllərini pisləməyə çağırırıq".***

Unikal.org xəbər verir ki, bunu Azərbaycanın Baş naziri Əli Əsədov Müstəqil Dövlətlər Birliyinin Hökumət başçıları Şurasının iclasında söyləyib.

"Ermənistan münaqişəyə üçüncü dövlətləri, xüsusilə KTMT üzvlərini cəlb etmək və hərbi əməliyyatların coğrafiyasını genişləndirmək üçün öz ərazisindən münaqişə zonasından uzaqda yerləşən Azərbaycan şəhərlərini vurmaqla Azərbaycanı Ermənistan ərazisinə cavab atəşi açmağa məcbur etməyə çalışır. Bir daha qeyd etmək istəyirəm ki, hərbi əməliyyatlar Ermənistan ərazisində deyil, Azərbaycanın beynəlxalq səviyyədə qəbul edilmiş ərazisində aparılır. Həmçinin qeyd etmək istəyirəm ki, mülki təyyarə vasitəsilə Ermənistana Azərbaycanın işğal altında olan ərazilərinə göndərmək məqsədilə qaçaq yolla silah tədarükü gerçəkləşdirilir. Bu cür qeyri-qanuni əməllər Beynəlxalq Mülki Aviasiya Təşkilatının məqsəd və prinsiplərinə ziddir. Həmçinin Ermənistana müxtəlif ölkələrdən Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etmək üçün muzdlular göndərilir", - o bildirib.

# Səfir Sumqayıt hadisələri ilə bağlı təhrif olunmuş məlumatlara cavab verdi



***Bolqarıstanda çap olunan "168 chasa" qəzeti və eyni adlı xəbər portalında Sumqayıt hadisələri ilə bağlı dərc edilmiş təhrif olunmuş məlumatlara cavab olaraq Azərbaycanın Bolqarıstandakı Səfirliyi tərəfindən tərəfindən qəzetin 30 oktyabr 2020-ci il tarixinə olan buraxılışında məqalə çap olunub.***

Azərbaycanın Bolqarıstandakı səfirliyindən "Unikal"a verilən məlumata görə, məqalədə 1988-ci il fevralın 28-də baş vermiş bu hadisələr SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin erməni millətçiləri ilə birgə Azərbaycana qarşı təşkil etdiyi və həyata keçirdiyi təxribatların növbəti tərkib hissəsi olduğu vurğulanmış, bunun məqsədinin isə hər zaman olduğu kimi, dünya ictimaiyyətində yanlış rəy formalaşdırmaq, anti-Azərbaycan əhval-ruhiyyəsi yaratmaq və Ermənilərin Azərbaycana qarşı olan ərazi iddiaları üçün zəmin hazırlanması olması qeyd olunub. Bütün şahid ifadələri Sumqayıt hadisələrinin təşkilatçısının erməni, iki dəfə məhkum edilən Eduard Qriqoryan olduğu sübut olunmuş, E.Qriqoryanın Sumqayıt hadisələri zamanı beş erməni şəxsən öldürməsi faktlarla göstərilmişdir. Sumqayıtda etnik zəmində törədilən iğtişaşın həmin dövrdə bu sıradan olan məqsədyönlü təxribatların kulminasiyası olması qeyd olunmuşdur. Məqalədə ermənilərin ölkəmizə qarşı olan ərazi iddiaları və o zaman mövcud olan geo-siyasi vəziyyət haqqında ətraflı məlumat verilib.

# Noyabrın 9-da avtobusların fəaliyyəti bərpa olunacaq?



***Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına əsasən noyabrın 7-si gecə saat 00:00-dan noyabrın 9-u səhər saat 06:00-dək müntəzəm və ekspres xətlər üzrə avtobusların fəaliyyəti dayandırılacaq.***

Bu barədə Unikal.org-a Bakı Nəqliyyat Agentliyindən bildirilib.

Məlumatda deyilir: "9 noyabr (bazar ertəsi) Dövlət Bayrağı günü qeyri-iş günü olmasına baxmayaraq müntəzəm və ekspres xətlər üzrə avtobuslar sərnişinlərimizin xidmətində olacaq".



# Ermənistanın ordumuza qarşı törətdiyi cinayətlərlə bağlı 4 cinayət işi açılıb

***Noyabrın 6-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə mövcüd şəraitdə prokurorluq orqanlarının, o cümlədən işğaldan azad edilmiş rayonların prokurorluqlarının fəaliyyətinin gücləndirilməsi, prokurorluq orqanlarında başlanmış və istintaq aparılan cinayət işlərinə və işin təşkilinə dair digər məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilib.***

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, iclasda qəhrəman ordumuzun əzmi və şücaəti nəticəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri və Hadrut qəsəbəsi də daxil olmaqla ümumilikdə 200-dən artıq yaşayış məntəqələrinin işğaldan azad edilməsi, döyüş əməliyyatlarının gedişində düşmən ordusuna endirilən sarsıdıcı zərbələr nəticəsində, düşmənin çox sayda canlı qüvvə və texnika itirərək geri çəkilmək məcburiyyətində qalması vurğulanıb.

Dövlət başçısının müvafiq fərmanı ilə ölkəmizdə hərbi vəziyyət elan olunması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələrin önəmi diqqətə çatdırılmaqla Ermənistan silahlı birləşmələrinin beynəlxalq hüquqla qəbul edilmiş normaları kobudcasına pozaraq münaqişə zonasından kənarda yerləşən yaşayış məntəqələrimizi atəşə tutması, dinc mülki əhaliyə qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, eləcə də digər cinayətlərlə əlaqədar başlanmış 51 cinayət işi üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunmaları üçün mümkün olan zəruri tədbirlərin görülməsinin, aidiyyəti qurumlarla birlikdə bütün hüquqi mexanizmlərdən istifadə edilməklə beynəlxalq təşkilatlara müraciətlər olunmasının vacibliyi qeyd edilib.

Eyni zamanda, ölkə başçısının "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 29 oktyabr tarixli Fərmanından irəli gələn vəzifələrin icrasının təmin olunması məqsədilə Baş Prokurorluğun İstintaq idarəsində başlanmış cinayət işi üzrə aidiyyəti qurumlarla birlikdə erməni vandalizmi nəticəsində planlı şəkildə talan edilmiş, dağıdılmış tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın müəyyən edilməsi məqsədilə zəruri göstərişlər verilib.

İclasda işğal olunmuş ərazilərdə erməni silahlı qüvvələrinin tərkibində digər ölkələrdən cəlb edilmiş muzdlu şəxslərin döyüş əməliyyatlarında iştirak etmələri, həmçinin xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı cinayət işləri üzrə hərtərəfli və intensiv istintaq-əməliyyat hərəkətlərinin yerinə yetirilməsinə dair tapşırıqlar verilib.

Bundan başqa, Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ordumuza qarşı törətdiyi cinayətlərlə əlaqədar Hərbi Prokurorluğun İstintaq idarəsində başlanmış 4 cinayət işi üzrə döyüş şəraitində mümkün olan bütün zəruri istintaq hərəkətlərinin aparılmasının zəruriliyi vurğulanıb.

Aparılmış müzakirələr ətrafında Baş prokurorun birinci müavini Elçin Məmmədov, Azərbaycan Respublikasının Hərbi prokuroru-Baş prokurorun müavini Xanlar Vəliyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi-Baş prokurorun müavini Nazim Rəcəbov, Bakı şəhər prokuroru İlqar Abbasov və digər Kollegiya üzvləri çıxış edərək gündəlikdə duran məsələlərə dair təkliflərini bildiriblər.

***Famil Fərhadoğlu***

# Əbülfəs Qarayevin unutduğu taleyüklü məsələ...

## Onun rəhbərliyi dövründə Mədəniyyət Nazirliyi erməni vandalizminin maddi-mənəvi irsimizi dağıtmasına və özününküləşdirilməsinə qarşı səmərəli fəaliyyət göstərə bilməyib

***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycanın işğal olunmuş ərazilərindəki mədəni və təbii irsin vəziyyəti ilə bağlı bəyanat yayıb. Bəyanatda Dağlıq Qarabağ ərazisində və onun ətraf rayonlarında yerləşən, yalnız Azərbaycana deyil, bütövlükdə Türk dünyasına məxsus olan tarixi abidələrin vəziyyəti ilə bağlı ciddi narahatlıq ifadə olunub.***

Bildirilib ki, işğalçı qüvvələr əcdadlarımızın yaratdığı qiymətli memarlıq nümunələrini dağıdıb, bununla da dünya miqyaslı mədəniyyət tarixinə böyük ziyan vurub.

Qeyd edək ki, bu məsələdə uzun illər Mədəniyyət Nazirliyinin dünyaya bəyan edə bilərdi ki, minilliklərin sınağından keçmiş, bir çox müharibələrin, təbiət hadisələrinin şahidi olmuş bu abidələr canlı bir varlıq kimi bəşəri-mədəni irsin dəyərli nümunələri sırasında özünü qoruya bilib, ancaq XXI əsrdəki təcavüzlər, həmin minilliklərin belə toxunmadığı abidələri yerlə yeksan etmiş, Böyük İpək yolununun keçdiyi bu ərazilərdəki karvansaraları, unikal arxitekturalara malik qədim məscidləri, mədrəsələri, körpüləri dağıntılara məruz qoyub. Halbuki zəbt edilmiş ərazilərdəki çoxəsrlik sənət nümunələrinə qarşı belə bir qəddar münasibət beynəlxalq hüquq normalarına və beynəxalq konvensiyalara tamamilə ziddir. Bu



səmərəsiz fəaliyyəti cəmiyyətdə tənqid hədəfinə çevrilib. Halbuki Fondun bəyanatında da vurğulandığı kimi, maddi-mənəvi dəyərlərin məqsədyönlü şəkildə məhv və talan edilməsi, mənimsənilməsi, tarixin saxtalaşdırılması təcavüzkar siyasətin əyani sübutudur. Bu sübutu dünya miqyasına çıxarmaqla Ermənistanın faşist siyasətinin bütün mahiyyətini bəşəriyyətə açıq şəkildə göstərmək olardı. Məsələn, qədim Alban xristian kilsələrinin saxta yollarla "erməniləşdirilməsi" və qədim müsəlman dini abidələrinin olunmaması faktından lazımınca istifadə etməməyimizə izah tapmaq çətindir.

Mədəniyyət Nazirliyi bütün sənədlərə əsasən, işğalçı ölkə Azərbaycan ərazilərində törədilən vandalizm aktlarına görə birbaşa hüquqi məsuliyyət daşıyır.

Təəssüf ki, Əbülfəs Qarayevin Mədəniyyət Nazirliyinə rəhbərlik etdiyi uzun müddət ərzində bu istiqamətdə, yuxarıda da vurğuladığımız kimi, effektiv addımlar atılmayıb. Düzdür, Qarayev illər öncəki çıxışlarının birində pis vəziyyətdə olan və dağıdılan mədəni irsimiz haqqında dünyaya lazımi məlumatları çatdırdıqlarını deyir, "Bunlarla bağlı biz müxtəlif kitablar da buraxdırırıq" söyləyirdi.

Lakin fakt faktlığında qalır: bütün bu işlər daha çox formal xarakter daşıyıb, Dağlıq Qarabağ ərazisində və onun ətraf rayonlarında yerləşən maddi-mənəvi irsimizin vandalcasına dağıdılmasına dünyanın sərt reaksiyasını təmin etmək baxımından yetərli olmayıb.

Düzdür, işğal altında yerləşən torpaqlardakı tarix-mədəniyyət abidələrinin yeni siyahısının hazırlanması, dəymiş ziyanın müəyyən olunması, bu istiqamətdə təbliğat və tədqiqat işlərinin genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən "Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyi ilə birgə "Azərbaycanın işğal altındakı mədəni irs nümunələrinin beynəlxalq hüququn tələblərinə uyğun qorunmasının təşkili, Ermənistan Respublikası tərəfindən abidələrin dağıdılmasının və ya mənimsənilməsinin qarşısının alınması tədbirlərinin gücləndirilməsinə dair 2020-2030-cu illər üzrə Dövlət Proqramı"nın layihəsi hazırlanıb. Ancaq həmin layihə çərçivəsində hansı işlərin görüldüyü də hələlik ictimaiyyətə qaranlıqdır.

Bir sözlə, Əbülfəs müəllimin Mədəniyyət naziri kimi, bütün istiqamətlərdə olduğu kimi, yuxarıda toxunduğumuz məsələ ilə bağlı fəaliyyəti də ancaq neqativ qiymətləndirilə bilər. Yəqin ki, qarşıdakı dövrdə işğalçı qüvvələr əcdadlarımızın yaratdığı qiymətli memarlıq nümunələrini dağıdıb, bununla da dünya miqyaslı mədəniyyət tarixinə böyük ziyan vurması ilə bağlı daha sistemli, planlı işlər görüləcək. Həmin işlərin effektli, səmərəli olacağına da ən azından ümid edirik.

Ancaq bu həqiqəti dilə gətirməkdə fayda var: sözügedən məsələdə xeyli zaman itirilib və bu vaxt itkisinin məsuliyyəti də ilk növbədə keçmiş Mədəniyyət naziri Əbülfəs Qarayevin ayağına yazılmalıdır. Bu qurumun rüşvət və korrupsiya bataqlığına çevrilməsinə xərclənən zamanın, enerjinin, həvəs və şövqün mində biri erməni vandallarının dağıtdığı, özününküləşdirməyə çalışdığı maddi-mənəvi irsimizlə bağlı real mənzərəni ortaya çıxarmağa, dünyaya çadırmağa xərclənsəydi yəqin haqqında danışdığımız istiqamətdə durum indikindən qat-qat yaxşı olardı...

***Orxan Həsənli***

# Dövlət qulluqçusunun fəaliyyətinin qiymətləndirilməsi üçün yeni tələblər müəyyənləşir

***Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası dəyişir.***

"Unikal"ın məlumatına görə, bu, Milli Məclisin növbəti plenar iclasında birinci oxunuşda müzakirəyə çıxarılan "Dövlət qulluğu haqqında" qanun layihəsində əksini tapıb.

Qanun layihəsinə əsasən, dövlət qulluqçusunun cari fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması və həmin imkanlardan istifadə edilməsi, dövlət qulluqçusunun peşə səriştəliyini artırmağa stimullaşdırılması və onun əlavə təhsilə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi məqsədilə hər təqvim ilinin sonunda inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçiriləcək.



Eyni zamanda, ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali-üçüncü təsnifatlarına uyğun dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçularının, stajçı kimi və sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxslərin, habelə təqvim ilinin sonunadək müvafiq vəzifədə faktiki olaraq 6 aydan az müddətdə qulluq keçən dövlət qulluqçularının xidməti fəaliyyəti qiymətləndirilməyəcək.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə rəhbəri tərəfindən həyata keçiriləcək.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qiymətləndirmə forması əsasında aparılacaq. Qiymətləndirmə forması dövlət qulluqçusunun təqvim ili ərzində yerinə yetirməlui olduğu tapşırıqlar (hədəflər) və və qanunda göstərilən meyarlar habelə əmək intizamı nəzərə alınmaqla tərtib ediləcək. Tapşırıqların (hədəflərin) və meyarların mühümlük dərəcəsi bilavasitə rəhbər tərəfindən müəyyən ediləcək.

Tapşırıqlar (hədəflər) dövlət qulluqçusunun il ərzində icra etməli olduğu mühüm işlərdir. Tapşırıqlar (hədəflər) dövlət qulluqçusunun qulluq keçdiyi struktur bölmənin fəaliyyət istiqamətlərinə uyğun və dövlət qulluqçusunun qulluq funksiyaları çərçivəsində olmalıdır. Tapşırıqların (hədəflərin) icra müddəti dəqiq müəyyən edilməli, ölçülü və yerinə yetirilə bilən olmalıdır. Hər bir tapşırığın (hədəfin) icra edilməsindən gözlənilən nəticə müəyyən edilməlidir.

Qanun layihəsində dövlət qulluqçusunun il ərzində fəaliyyətinin hansı meyarlar əsasında qiymətləndiriləcəyini də müəyyən edib.

Beləliklə, bunlar aşağıdakılardır:

- peşə bilikləri;
- qulluq (xidməti) vəzifələrinə münasibət;
- təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı;
- yaradıcılıq və təşəbbüskarlıq;
- iş təcrübəsi və onu bölüşmə;
- kollektivdə işləmək və ünsiyyət bacarığı;

Həmçinin qanun layihəsinə əsasən, rəhbər vəzifə tutan dövlət qulluqçularının fəaliyyəti isə yuxarıda göstərilənlərə əlavə olaraq, aşağıdakı meyarlar əsasında qiymətləndiriləcək:

- proqnozlaşdırma;
- idarəetmə;
- kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı;
- komanda qurmaq bacarığı.

Dövlət qulluqçusunun xidməti fəaliyyəti aşağıdakı şəkildə qiymətləndiriləcək:

- əla;
- kafi;
- qeyri-kafi.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinə verilən yekun qiymətin 50%-i tapşırıqların (hədəflərin) icra vəziyyətinin qiymətləndirilməsinə; 40 %-i meyarlar əsasında qiymətləndirilməyə; 10 %-i isə əmək intizamı əsasında qiymətləndirməyə əsaslanacaq.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədlə rəsmiləşdiriləcək. Dövlət qulluqçusunun fəaliyyəti bütün tapşırıqlar (hədəflər), meyarlar, eləcə də əmək intizamı üzrə qiymətləndiriləcək və verilmiş qiymətlər əsaslandırılacaq. Dövlət qulluqçusu xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsi ilə razılaşmadıqda xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənəd onun rəyi əlavə edilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri onun şəxsi işində saxlanılır.

Dövlət qulluqçusunun xidməti fəaliyyəti üzrə yekun qiymət müəyyən edildikdən sonra onunla müsahibə keçiriləcək. müsahibə zamanı dövlət qulluqçusunun xidməti fəaliyyətinə verilən qiymət və şərhlər müzakirə olunacaq. Müsahibə zamanı növbəti qiymətləndirilmə ili üçün tapşırıqlar (hədəflər) və onların mühümlük dərəcəsi müəyyən edilə bilər.

Dövlət orqanının rəhbəri tərəfindən dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi əsasında onun barəsində aşağıdakı tədbirlərdən biri görülə bilər:

- dövlət qulluqçusunun mükafatlandırılması;
- dövlət qulluqçusuna vaxtından əvvəl ixtisas dərəcəsinin verilməsi;
- dövlət qulluqçusunun fəaliyyətinin və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə əlavə təhsilə və xüsusi təlimlərə cəlb edilməsi;
- dövlət qulluqçusunun bilik və bacarıqlarının uyğun digər analoji vəzifəyə keçirilməsi;
- dövlət qulluqçusunun aşağı inzibati vəzifəyə keçirilməsi.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası və qiymətləndirilmə formasımüvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

Dövlət qulluqçusu xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi ilə razılaşmadıqda inzibati qaydada və məhkəmə qaydasında şikayət etmək hüququna malik ola biləcək.

Qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

# İrəvan Türk Cümhuriyyəti: "Naxçıvana getmək üçün dəhliz istəyəcəyik"



***İrəvan Türk Cümhuriyyətinin təşəbbüs qrupunun sədri Qafar Çaxmaqlı Modern.az-a açıqlamasında bu qurumun gələcək fəaliyyətindən danışıb:***

"İrəvan Türk Cümhuriyyəti 6 aya yaxındır fəaliyyətdədir. Biz Cümhuriyyətin strukturlarını formalaşdırmışıq. Parlamenti əvəz edəcək Millət Şurası fəaliyyət göstərir. Bundan başqa, 14 departament yaradılıb. Bu departamentləri birləşdirən Dövlət Şurası var, bu Şura gələcəkdə Nazirlər Kabineti rolunu oynayacaq. İrəvan Türk Cümhuriyyətinin hədəflərinə çatmaq üçün Parlament seçkilərində yeni strukturlar yaranacaq. Təmsilcilər Məclisi də müəyyən səlahiyyətləri olan orqandır ki, buraya qoşulacaq üzvlər xarici ölkələrdə yaşayan Qərbi azərbaycanlılar olacaq.

Artıq 10 ölkədə və 15 şəhərdə təmsilcilərimiz fəaliyyət göstərir. Qarşımıza qoyduğumuz məqsəd tarixi torpaqlarımızda, indiki Ermənistan ərzisində Türk Cümhuriyyəti qurmaqdır. İddialar ortaya qoyulanda da bəyan etmişik ki, bu torpaqlar bizə aiddir. Vaxtilə İrəvan Xanlığının varlığı da bunun sübutudur. Sonradan 1918-in 29 mayında İrəvan şəhəri ermənilərə güzəşt edilmişdi. Sovet hakimiyyəti illərində Zəngəzur, Dərələyəz və Göyçə mahalları Ermənistana birləşdirilib. Bizlər bu torpaqların sahibləriyik, öz tarixi yerlərimizə iddialıyıq. O ərazilərdə yaşayanların hüquqları qorunmalıdır və Azərbaycan türklərinin doğma yurda dönüşünü təmin eləmək üçün fəaliyyətimizi geniş şəkildə, beynəlxalq aləmdə davam etdiririk. Hədəflərimizdən biri də ondan ibarət idi ki, Qarabağ məsələsində Azərbaycan və Türkiyə dövlətinin yürütdüyü siyasətə dəstək verək.

Qarabağ məsələsində də fikrimiz qətidir və bu, daha öncəki bəyanatlarımızda da yer alıb. Məsələnin həlli danışıqlar yolu ilə mümkün deyil və Qarabağda mütləq antiterror əməliyyatı keçirilməlidir. Qəhrəman Azərbaycan Ordusu möhtəşəm qələbələr qazanır. Siyasi situasiya Azərbaycanın xeyrinə dəyişir. Dağlıq

Qarabağda yaşayan əhalinin burada məskunlaşması üçün böyük səylər göstərildi. Azərbaycanın Prezidenti də dəfələrlə bəyan edib ki, ermənilərə mədəni muxtariyyət verilə bilər. Ermənilər seçim qarşısındadırlar. Şübhəsiz ki, işğalçı Ermənistan ordusunun Qarabağda qalması mümkün deyil. Qarabağdaki üç əsas yolun hamısı ordumuzun nəzartindədir. Ermənistan məğlubiyyətini qəbul etməlidir. Onların ziyalıları müraciətlər edir və bu məsələdə baş nazir Paşinyanı günahlandırırlar. Çox güman ki, ordaki siyasi vəziyyətdə də qarışıqlıq yaranacaq. Əgər gələcəkdə danışıqlar bərpa olunarsa və ermənilərə hər hansı bir status verilməsi gündəmə gələrsə, masada İrəvan Türk Cümhuriyyətinin olması da vacibdir. Onlara Ermənistana getmək üçün bir dəhliz verilərsə, biz də Naxçıvana getmək üçün koridor tələb edəcəyik. Muxtariyyət məsələsi haqqında danışmaq üçün hələ tezdir. Heç bir zaman Ermənistandan muxtariyyət tələb etməmişik, çünki o ərazilərin hamısı bizə aiddir. Konfederativ əsaslarla yaşamaq kimi düşücəmiz yoxdur. Ermənilər bu ərazilərə gəlmədirlər və qan, ölüm gətiriblər. Bölgənin təhlükəsizliyinin təmin olunması üçün müəyyən maddələrdən ibarət təkliflərimiz var. Ermənilər burada qalıb yaşamaq istəyirlərsə, Azərbaycan və Türkiyənin şərtlərini qəbul etməlidirlər. Əks təqdirdə, onların bölgədə yaşamaq şansları yoxdur. Mən belə hesab edirəm ki, Ermənistan dövlətinin həm siyasi, həm də iqtisadi potensialı tükənib. Onların güvəndiyi qüvvələr də gördülər ki, Ermənistanla əməkdaşlıq, strateji müttəfiqlik etmək özlərinə də zərərdir. Bu terror ölkəsinin dünyaya necə zərər verdiyini bütün dünya anlamaya başlayır.

Qələbə bizimdir, Qarabağ Azərbaycan torpaqlarıdır və bu hüquqi baxımdan doğrudur, heç bir ölkə mübarizəmizə qarşı çıxa bilməz. Ermənistana vurduğumuz zərbədən sonra onlar uzun müddət özünə gələ bilməyəcək. Ermənilərin Qarabağdan Ermənistana köçməsi mövzusuna gəldikdə isə hələ müharibənin gedişi dövründə Qarabağda qurulan qondarma rejimin "məmurları"nın çoxu qaçıb və hazırda mühakimə olunurlar. Orada demək olar ki, mülki əhali yoxdur. Ermənilərin bu bölgədən köçürülməsi Ermənistanın məğlubiyyətinin göstəricisidir və Azərbaycanın lehinədir. Gələcəkdə ermənilərin bura qayıtma məsələsi də problem olacaq. Biz şərtlərimizi irəli sürəcəyik, dediyim kimi, Ermənistanın heç bir şansı yoxdur. Dağlıq Qarabağda status-kvo da ləğv olunub. "Artsax Respublikası" deyilən bir qurum da yoxdur, onun başçısı öldürülüb. Biz bunu aradan qaldırmışıq. Yenidən iddialar qoyularsa, bu, Ermənistanın növbəti yalanı və provakasiyası olacaq. Biz torpaqlarımızı təmizləyib orada abadlıq işləri aparmalıyıq. Azərbaycan inkişaf etməyə davam edəcək".

***Fidan ƏLİ***



## Millətimiz sanki yenidən doğulur: Ən yaxın günlərdə Şuşa qalasında...

***Azərbaycan Ordusu 30 ilə yaxın bir dövrdə işğalda saxlanılan ərazilərimizi azad etməkdədir. Dünyanın neytral ekspertləri belə bu əməliyyatlara peşəkar rəylər verir. Vurğulanır ki, mövcud coğrafiyaya görə, klassik müharibə modelləri bu ərazilərdə işləməz. Hətta düşmən belə Azərbaycanın 5-ci nəsil müharibəsi apardığını qeyd edir. Bu savaşın isə baş qəhrəmanı Ali Baş Komandandır.***

Bu fikirləri Teleqraf.com-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc deyib.

Millət vəkilinə görə, Azərbaycan Ordusu tərəfindən düşmənin uzun illərdi qalaya çevirdiyi maneələr yarıldı:

”Azərbaycanın cəbhədəki uğurlarını ermənilər etiraf etmədikləri halda Ordumuzun Şuşaya, Laçın dəhlizinə, Kəlbəcərə gəlib çatdığını bildirirlər. Bu gün ən böyük diplomatiyanı əsgərlərimiz çiyinlərinə götürüb. Bu, Azərbaycan tarixinin min illər sonra əfsanə sayılacaq salnaməsidir. Xalq, millət olaraq bugünkü günləri yenidən doğuluş kimi qiymətləndiririk. Eyni zamanda müstəqilliyimizin yenidən qazanılması kimi səciyyələnir. Faktiki olaraq hazırda bu belədir. Çünki sərhədlərimizin bütövlüyünə yalnız indi nail oluruq. Azərbaycan müstəqillik qazanarkən 20 faiz ərazisini itirdi və bununla da faktiki olaraq müstəqilliyimiz qəsb edildi”.

Zahid Oruc bildirib ki, Şuşanın azad olunacağı gün yeni Müstəqillik günü kimi tarixə düşəcək: “Azərbaycan Ordusunda birlik, vahidlik, yüksək psixoloji əhval ruhiyyə mövcuddur. Düşmənin itkiləri misilsizdir. Söhbət təkcə maddi baxımdan vurulan 3 milyard dollara yaxın ziyandan getmir. Əməliyyatlar başlayandan indiyədək düşmənə maddi və mənəvi böyük zərbələr vurulub. Azərbaycan Ordusu ən yaxın günlərdə Şuşa qalasından şanlı bayrağımızı dalğalandıraraq Ali Baş Komandana qələbə raportunu verəcək. Müharibənin ikinci, üçüncü müstəvisində Azərbaycan Lideri güclü bir şəkildə mübarizə aparır. Siyasətdə cənab İlham Əliyev xətti və modeli Azərbaycanı xilas edib. Artıq hərbi qələbəmizdən sonra siyasi danışıqlarda Qarabağda hər kəsin yaşaması üçün əlverişli şərait yaranacaq. Artıq Azərbaycan xalqı yenidən qürurlanır. Millətimiz sanki yenidən doğulur, yeni insanlara çevrilir. Bu, regionda yeni bir eranın yaranmasına gətirib çıxaracaq”.

## Havanın temperaturu aşağı enəcək - Xəbərdarlıq

***Milli Hidrometeorologiya Xidməti xəbərdarlıq yayıb. “Unikal” xəbər verir ki, noyabrın 7-dən 8-i səhərədək Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, yarımadanın bəzi yerlərində intensiv olacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, 15-18 m/s, arabir 20-25 m/s-dək güclənəcək. Havanın temperaturu 3-5 dərəcə aşağı enəcək.***

Noyabrın 8-i səhərədək Azərbaycanın rayonlarında qeyri-sabit hava şəraitinin davam edəcəyi, bəzi yerlərdə şimşək çaxacağı, arabir leysan xarakterli yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir 18-23 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 4-7 dərəcə aşağı enəcək. Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimal olunur.

# Beynəlxalq media və jurnalistlər erməni terrorunun hədəfində - TƏHLİL

***Azərbaycan Ordusunun zərbələri altında əzilən terrorçu ölkə Ermənistan indi də azad medianı hədəf seçib. Müstəqil mövqe sərgiləyən, obyektiv informasiya hazırlayan hər bir jurnalist artıq erməni qanqsterlərinin hədəfinə çevrilib. Ən müxtəlif ölkələrdə terror aktları həyata keçirən, mülkü əhalini qətlə yetirən erməni lobbisi son günlər daha da həyasızlaşıb və Azərbaycanın uğurla həyata keçirdiyi əks-hücum əməliyyatını işıqlandıran dünya mediasını qorxu və vahimə altında saxlayır.***

Hətta Azərbaycan Prezidenti İlham Əliyevdən müsahibə götürən xarici jurnalistlərin demək olar ki, hamısı erməni lobbisinin şantajına məruz qalaraq, təhdid olunur, ölümlə hədələnir.

Ağır məğlubiyyətdən başını itirən terrorçu ölkənin dünya mediası ilə vay-şüvəni ilə onu təhdid edirlər.

Dünya mediasında yalan təbliğatlar qurmaq üçün milyonlar xərcləyən erməni lobbisi anlamaq istəmir ki, onların cəbhədəki məğlubiyyətinin günahkarı azad media deyil, danışıqlar prosesini pozan, Azərbaycanın mülkü əhalisini qətlə yetirməyi əmr edən Ermənistan rəhbərliyi - Nikol Paşinyandır.

“TF1”, CNN, ”New York Times” və həqiqəti yazan, obyektiv mövqe tutan digər media orqanlarının jurnalistləri də erməni diasporunun hədəfindədir. Məqsəd dünya mediasını da öz yalanlarının ruporuna çevirməkdir. Kimsə onların düşündüyü kimi düşünmürsə, onlarınb istədiyini yazmırsa, düşməndir - fərqi yoxdur kimdir… Budur ermənilərin azad fikrə və mediaya münasibəti.

Ermənilərin qanqster fəaliyyətinə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri Ermənistan-Azərbaycan münaqişəsinin obyektiv reallıqlarını işıqlandıran peşəkar jurnalistlərə, mediaya qarşı fiziki, şifahi təhdidləri, təhqiramiz şəxsi hücumları qınamağa çağırıb, bildirib ki, ifadə azadlığına hörmət edilməlidir.

Əslində erməniləri bu dərəcədə qıcıqlandıran odur ki, dünya KİV-də Azərbaycan və Dağlıq Qarabağ həqiqətlərini dərk və qəbul edənlərin sayı artır. Erməni diasporunun ən güclü sayıldığı bəzi Avropa ölkələrində belə ermənilərin cinayətkar davranışları sadə insanlarda nifrətə səbəb olur. Bununla belə, Avropanın obyektiv ictimai-siyasi xadimlərinin və media mənsublarının erməni terrorçuları tərəfindən təqibinin güclənməsi bu ölkələrin ermənipərəst siyasətçilərini də ağır zərbə altında qoyur. Avropa ölkələri, məsələn erməni lobbisinin güclü olduğu Fransanın siyasi elitası da fərqinə varmalıdır ki, bu gün erməni lobbisinin terror cəhdlərinə dözümlü yanaşılması, hətta onun himayə edilməsi demokratiya ilə qətiyyən bir araya sığmır.

Dünya bilməlidir ki, bu gün Ermənistanın təcavüzünə qarşı mübarizə aparan Azərbaycan əslində beynəlxalq terrorizmə qarşı savaşır. Obyektiv düşünən media orqanlarını təhdid edən erməni terrorçularının lideri elə Gəncə və digər məntəqələrimizdə dinc insanları, uşaq, qadın və qocaları qətlə yetirmək əmrini verən Ermənistanın baş naziri Nikol Paşinyandır.

Qərbi Avropanın ən nəhəng ölkələrindən biri olan Fransanın “TF1” telekanalının müxbirinin ASALA terror təşkilatının üzvü olan Papazyan tərəfindən ölümlə hədələnməsinə rəsmi Paris susmamalıdır.

Bütün bu baş verənlər bir daha erməni terrorunun bu gün nə dərəcədə real və təhlükəli olduğunu bütün dünyaya nümayiş etdirir. Bütün dünya bir daha aydın dərk edir ki, Azərbaycan əslində kimlərlə, necə bir işğalçı ölkə ilə, terroru mənimsəmiş və xislətində, hərəkətlərində onu hər addımbaşı nümayiş etdirən birləşmələrlə qarşı qarşıyadır.

Jurnalistləri ölümlə hədələmək Avropa dəyərləri, insan hüquqları ilə ziddiyyət təşkil edir. Söz və mətbuat azadlığına qarşı terror hədəsi ilə çıxış edənlər mütləq layiq olduqları cəzanı almalıdırlar. Əks təqdirdə, erməni lobbisi Avropa ölkələrinin siyasi elitalarını və mülkü əhalisini də terrora məruz qoya bilər.

Bu addımlar erməni terrorizminin dünya üçün nə dərəcədə real təhlükə olduğunu göstərir. Dünyanın isə bir həqiqəti var - terrorçu ilə danışmırlar, onu məhv edirlər. Azərbaycan Ordusu öz ərazilərini işğaldan azad etməklə məhz bu missiyanı yerinə yetirir(apa).



L'Italiano in Armenia
1 h · Public

This is insane. La Repubblica journalist Pietro Del Re asking Ilham Aliyev, President of Azerbaijan "Mr. President, are you already tasting the flavour of victory?". There can be paid interviews, everyone knows that they spend millions of dollars on this staff, but a journalist of a leading Italian daily asking a question like this? This is not just a violation of journalistic ethics, it is a SHAME. Mr Pietro Del Re and la Repubblica Editorial office, on behalf of Armenians I demand apologies for this disgrace. You could have easily chsosen another wording for a question: what taste, what flavour, when according to specialized organizations and a number of scholars there is a critical threat of ethnic cleansing and genocide in Nagorno Karbakh? Apologies now! Tag la Repubblica and share!

bu dildə danışması isə heç şübhəsiz axmaqlıq kimi qiymətləndirilir. Məsələn, “La Repubblica”nın jurnalisti Pietro Del Re Prezident Əliyevə ünvanlandığı “Cənab Prezident, Siz artıq qələbəni dadımsınız” sualına görə ermənilərin qəzəbinə düçar olub. İtaliyanın aparıcı qəzetinin tanınmış jurnalistini bu suala görə ölümlə hədələyir və “Dağlıq Qarabağ etnik təmizləmə və soyqırımı təhdidi ilə üz-üzə olduğu zaman hansı dad, hansı ləzzətdən söhbət gedə bilər? Bu dəqiqə üzr istəyin!”

şöbəsinin müdiri Hikmət Hacıyev də öz “Twitter” hesabında münasibət bildirib: “İndi də İtaliyanın “La Repubblica” qəzetinin jurnalisti Peitro Del Re erməni lobbisinin təhqiramiz hücumuna məruz qalır. Erməni lobbisi TF1, CNN və ”New York Times”ın jurnalistlərini də fiziki təhdidlərə məruz qoymuşdu. Azad mediaya, ifadə azadlığına qarşı bu cür hücumları şiddətlə qınayırıq”.

Hikmət Hacıyev “Sərhədsiz Reportyorlar” təşkilatını və ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsini

# “Həmvətənlərimə müraciət edirəm ki, silahı yerə qoysunlar..." - Əsir düşən erməni din xadimi

***Bu gün “Yeddinci Günün Adventistləri”nin Dua Evində Azərbaycana əsir düşmüş, Ermənistanın Gümrü şəhərinin Adventist kilsəsinin pastoru Hovsep Saakyan Araratoviçlə görüş keçirilib.***

Tədbirdə əvvəlcə Bakıdakı və Gəncədəki “Yeddinci Günün Adventistləri” İcmalarının pastorları Elşən Cabbarov və Elşən Səmədov dua ediblər.

Dua mərasimindən sonra Elşən Cabbarov çıxış edərək bildirib ki, əsrlər boyu baş verən müharibələr Allahın müharibə istəmədiyini göstərir: ”O, hər zaman sülhün tərəfindədir, çünki Allah insanların həmişə sülh içində olmasını istəyir və insanların həlak olmasını istəmir. Biz insanları sülhə çağırırıq. Müqəddəs kitabda Allah həmişə bu barədə deyib. Biz yalnız sülh sayəsində xoşbəxt yaşaya bilərik”.

Daha sonra Hovsep Saakyan Araratoviç də çıxış edərək 2011-ci ildən Allahverdi deyilən yerdə xidmətə başladığını, sonra Gümrü şəhərində “Yeddinci Günün Adventistləri”nin icmasında pastor kimi xidmətini davam etdirdiyini deyib: ”Mən Allahın sözünü danışan insan kimi həmişə istəmişəm ki, erməni və Azərbaycan xalqları sülh içində yaşasınlar. Bu gün biz Allahın çağırışını eşitdik, o istəyir ki, biz sülhlə yaşayaq. Allah müharibə istəmir. Allah insanlığı, eləcə də Azərbaycan və erməni xalqlarını ona görə yaratdı ki, hamımız sülh və əmin-amanlıq içində yaşayaq. Mən çox şadam ki, Allah möcüzə nəticəsində həyatımı saxladı və mən indi burdayam”.

Hovsep Saakyan deyib ki, hərbi komissarlıqdan zəng edib müharibəyə çağıranda vuruşmaq istəmədiyini bildirib: ”Mən dini inancıma görə müharibə tərəfdarı olmadığımı, əlimə silah götürüb heç kəsi öldürə bilməyəcəyimi desəm də, dinləmədilər. Çünki Allahın on əmrindən altıncısında da deyilir ki, öldürmə. Lakin onlar dedilər ki, bunun heç bir əhəmiyyəti yoxdur, sən orda olmalısan. Mən cəbhəyə getdim və dedim ki, heç kəsi öldürməyəcəm. Mənə imkan yaratsaydılar, vuruşmaq əvəzinə, arxa cəbhədə hospitalda xəstələrə yardım göstərərdim. Lakin bizimkilər buna imkan vermədi. Mən cəbhəyə yollansam da, əlimə silah götürüb vuruşmadım. Biz Qubadlıda olanda heç bir saat keçmədi ki, mərmilər partlamağa başladı. Mən sağ ayağımdan qəlpə yarası aldım. Məni hospitala köçürmək istəyirdilər. Lakin biz yolda olanda yenidən mərmi partladı və maşınımız qəzaya düşdü. Yanımdakıların hamısı öldü, bircə mən sağ qaldım. Allah məni saxladı və mənə yeni bir imkan verdi. Bu gün burda olmağıma görə Allaha təşəkkür edirəm və bir insan kimi Azərbaycan və erməni xalqlarını sülhə çağırıram. Allah müharibə istəmir. Allah istəyir ki, biz əmin-amanlıq içində yaşayaq. Mən Allaha yenidən yaşamaq imkanı verdiyi üçün minnətdaram”.

Pastor erməni əsgərlərinə də çağırış edib: ”Mən bir inanclı insan kimi həmvətənlərimə müraciət edirəm ki, silahı yerə qoysunlar, vuruşmasınlar. Çünki onlar başqalarının torpağında vuruşurlar. Mənimlə 60 insan var idi. Əminliklə deyə bilərəm ki, onlar da döyüşmək istəmirdilər. Onlar da sülh tərəfdarı idilər. Çünki onlar da cavan insanlar idilər, onların ailəsi, uşaqları vardı, müharibəni dayandırıb evlərinə qayıtmaq istəyirdilər. Necə ki, mən ailəli insanam, doqquz aylıq qızım var və tezliklə ailəmə qovuşmaq istəyirəm, onlar da mənim kimi ailələrinə qovuşmaq istəyirdilər”.



Hovsep Saakyan hazırda saxlanma şəraitinə də toxunub: ”Mən yaralananda bud sümüyüm oynaqdan çıxdı. Məni əsir götürəndə bura gətirib hospitala göndərdilər və ayağımı yerinə saldılar. Buna görə minnətdaram. Burda məni paltar və yeməklə təmin etdilər. Hər şey qaydasındadır və buna görə də hər kəsə təşəkkür edirəm”.

O, erməni patriarxı 2-ci Qareginin müharibə çağırışlarını da qəbul etmədiyini diqqətə çatdırıb: ”Mənim mövqeyim müqəddəs kitabın mövqeyidir və müqəddəs kitab insanları sülhə çağırır. Öldürmək böyük günahdır. Buna görə də erməni din xadimlərinin müharibə çağırışlarını qınayıram. Təəssüf ki, vətənimdə erməni kilsəsinin digər icmalara münasibəti pisdir, onları sekta hesab edir. Mən orda olan zaman Azərbaycan tərəfindən hər hansı bir kilsənin bombalanmasının və ya atəşə tutulmasının şahidi olmadım”.

# 16 yaşlı Ramid: “Komissara dedim ki, bəs mən hansı rayonu alacam?”



***“Evdə oturmuşduq. Televizorda cəbhədən xəbərlərə baxırdıq. Birdən atam qayıtdı ki, heyf ki, mən yaşda olanları çağırmırlar. Bu gün orda olmalıydım mən də. Atamın üzünə baxdım. Onu hələ belə kədərli görməmişdim. Səhər yuxudan duran kimi...”***

Hə, səhər yuxudan duran kimi, evdə heç kimə heç bir söz demədən üz tutur Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı Rayon Şöbəsinə. İçəri girib, özünü təqdim edir:

- Hüseynov Ramid Müşfiq oğlu.

- Gözlə, çağıracağıq.

g16 yaşı var Ramidin. Masallı rayonunun Qədirli kəndindəndir. Orta məktəb şagirdidir. Xalası oğlu, tankçı gizir Elvin Əzizov bir ay bundan qabaq döyüşlərdə qəhrəmanlıqla həlak olub. Lent.az -a açıqlamasında deyir ki, qələbəyə öz töhfəsinin olmasını istəyib:

- Bilirsiniz, mən həm də Elvinin qisasını almağa gedirdim. Həm də fikirləşirdim ki, az qala hər bir nəsildən, ailədən könüllü cəbhəyə yollanan var. Hamı nəsə etmək istəyir qələbə üçün. Mən niyə getməyim ki? Bizim ailədən niyə kimsə cəbhədən vuruşmasın?

Elə bu niyyətlə də rayon mərkəzinə üz tutur Ramid. Boy-buxunlu olduğuna görə, 16 yaşlı yeniyetməyə bənzəmirmiş, yaşından böyük görünürmüş...

Orda qalmışdıq axı. Şöbədə, nəhayət, növbə Ramidə də çatır. Komissarlıqdan xahiş edir ki, onu da qeydiyyata alıb, orduya aparsınlar.

- Oranın əməkdaşı adımı, soyadımı öyrənib yoxladı. Qayıtdı ki, düzdür, qeydiyyatdasan, amma hələ əsgər yaşın çatmayıb. İki il sonra gələrsən. Qayıtdım ki, komandir, bir azdan müharibə qurtaracaq, bütün rayonlar azad ediləcək. İki il sonra mən haranı azad etmək uğrunda döyüşəcəyəm ki?.. Həm də xalam oğlunun intiqamını almaq istəyirəm.

Komissarlığın əməkdaşı heç nə demir. Ayağa qalxıb, Ramidi bağrına basıb, alnından öpür. Sonra da deyir ki, cavan oğlan, sənə maşın verək, qayıt kəndə evinizə. Amma maşından imtina edir Ramid.

- Dedim, çox sağ olun. Amma icazə verin, könüllülərə baxım, onları yola salım, gedəcəm.

Özünün də dediyi kimi, qibtəylə könüllülərə baxır, onlarla söhbətləşir.

- Xeyli tamaşa elədim. Elə sevinirdilər ki, döyüşə getdiklərinə. Heyf, mənə elə sevinc bəxş etmədilər. Kor-peşman evə qayıtdım. Mən başa düşürəm, bizim ordumuz çox güclüdü. Bunu hər gün cəbhədən gələn xəbərlər də sübut edir. Amma Ali Baş Komandana üz tuturam. Bilirəm ki, Siz bizə, bizim nəslə Qarabağ adlı problem qoymayacaqsınız. Sizin komandanlığınız altında artıq ordumuz bunu edir, düşməni bitirir. Bəs, biz yeniyetmələr nə edək, Vətən üçün, Ordumuz üçün?

- Sən dərslərini oxu, Ramid. Özü də yaxşı oxu...

Deyəsən, heç razılaşmaq istəmirdi...

Sadəcə, gülümsədi...

***Səbuhi Məmmədli***

# Düşmənin işğaldakı ərazilərdə dağıtdığı mədəniyyət müəssisələrinin sayı



***“Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə yerləşən yaşayış evləri, təhsil, səhiyyə və kənd təsərrüfatı obyektləri ilə yanaşı yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana dağıdılıb”.***

Bunu Azərbaycan Milli İncəsənət Muzeyində keçirilən tədbirdə Mədəniyyət Nazirliyinin İnformasiya və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Məryəm Qafarzadə bildirib. Onun sözlərinə görə, 808 mədəniyyət sarayı, klub və mədəniyyət, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən çox eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən çox tarix və mədəniyyət abidəsi talan edilib.

M.Qafarzadə qeyd edib ki, o cümlədən Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri, Kəlbəcər rayonunda Gəncəsar və Xudavənd məbədləri, Ağdam rayonunun Xaçın Türbətli kəndində məqbərə, Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilib.

**ELAN**

Tovuz rayonu, Qovlar şəhər sakini Əhmədov Vaqif Qasım oğlunun adına verilmiş reyestr nömrəsi 50301200015-9-06301, qeydiyyat nömrəsi 260801179 saylı Çıxarış və Texniki Pasport itdiyi üçün etibarsız sayılır.



# “Erməni diasporu orduya vəsait toplayır” - Prezidentin köməkçisi

***“Erməni diasporu qeyri-kommersiya və xeyriyyə qurumları adı altında silahlı qüvvələrinə vəsait toplayır”.***

“Unikal”ın xəbərinə görə, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri Şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter”də bildirib.

Onun sözlərinə görə, vəsait “Sərhədlər bizik - hər şey “Arsax” üçün” şüarı altında toplanır.

““Ermənistan Fondu”, AGBU, “Ontarionun erməni Kanada Tibb Birliyi”, “Erməni Kömək Fondu”, “Tufenkian” vəqfi, “Erməni Kömək Dərnəyi” bu prosesdə iştirak edir”, - deyə H. Hacıyev vurğulayıb.

# Maliyyə yardımını hansı sahibkarlar alacaq? - İqtisadiyyat Nazirliyi cavab verdi

***Sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu 10 şəhər və rayon üzrə sahibkarlıq subyektlərinin muzdlu işçilərinə maliyyə dəstəyi 9.300 işçisi olan 1.900-dək, fərdi (mikro) sahibkarlar üzrə maliyyə dəstəyi isə 13.000-dən yuxarı vergi ödəyicisini əhatə edəcək.***

İqtisadiyyat Nazirliyindən “Unikal”a verilən məlumata görə, maliyyə dəstəyinin göstərilməsi üçün vergi ödəyicilərinin müraciət etməsinə ehtiyac yoxdur, ödəmələr həmin rayonlarda əvvəllər maliyyə dəstəyi almış vergi ödəyiciləri üzrə həyata keçiriləcək. Maliyyə dəstəyi son 4 ayda işçi sayını əhəmiyyətli dərəcədə azaltmamış vergi ödəyicilərinə göstəriləcək. Əmək haqqı üzrə ödəmələrdə vergi ödəyicilərinin sosial sığorta ayırmaları də nəzərə alınacaq.

Yaranmış vəziyyətdə sahibkarlıq subyektlərinin zərərlərinin azaldılması, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması, sahibkarlıq subyektləri üzrə iş yerlərinin qorunub saxlanılması məqsədilə qeyd edilən şəhər və rayonlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin davam etdirilməsi barədə qərar qəbul edilib. Belə ki, bu şəhər və rayonlar üzrə muzdlu işçilərin əmək haqqları üzrə müvafiq ödənişlər ediləcək və fərdi (mikro) sahibkarlara birdəfəlik maliyyə dəstəyi göstəriləcək.

Məlumat üçün bildirək ki, 26 oktyabr 2020-ci il tarixinə muzdlu işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsi üçün 204,6 milyon manat, fərdi (mikro) sahibkarlara maliyyə dəstəyi üçün isə 77 milyon manat vəsait vergi ödəyicilərinin bank hesablarına köçürülüb. İki mərhələdə həyata keçirilmiş maliyyə dəstəyi proqramlarından 130 mindən çox vergi ödəyicisi yararlanıb, proqramlar 344 mindən çox vətəndaşı əhatə edib.

Qeyd edək ki, 7 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində bir sıra sahələrin fəaliyyəti məhdudlaşdırılıb.

*Zaurə Əmirova*

# “ASAN xidmət” və “ASAN Kommunal” bayram günü işləməyəcək

***9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar “ASAN xidmət” və ”ASAN Kommunal” mərkəzlərində qeyri-iş günüdür.***

“ASAN xidmət”dən “Unikal”a verilən məlumata görə, vətəndaşlar 10 noyabr tarixindən mərkəzlərə müraciət etməklə müvafiq xidmətlərdən yararlana bilərlər.

Xatırladaq ki, “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərində vətəndaşların qəbulu ”ASAN xidmət” mobil tətbiqi, www.asan.gov.az saytı və 108 Çağrı Mərkəzi vasitəsi ilə əvvəlcədən onlayn növbə tutmaqla həyata keçirilir.

# Ziya Məmmədovun korrupsiya qoxulu "döyüşkənliyi"...

## Keçmiş nazirin "vətənpərvər" çıxışı niyə kinayəyə tuş gəldi?

***”Mən hərbi xidmətdə olmuşam. Özüm də artilleriya batareyasında xidmət etmişəm. Minaatan olmuşam. İndi də əsasən artilleriya döyüşləri gedir. Müəyyən döyüş tapşırıqları barədə məlumatlıyam. Lazım gələrsə, ön cəbhəyə yollanmağa hazıram”. Bu sətirləri bir neçə gün əvvəl Azərbaycanın keçmiş nəqliyyat naziri Ziya Məmmədov deyib.***

Məntiq etibarı ilə Ziya müəllimin yuxarıda söylədiklərində təəccüblü heç nə olmamalıdı: Azərbaycan müharibə şəraitindədir və hər kəsin üzərinə düşən ən vacib vəzifə bu taleyüklü məqamda istər maddi, istərsə də mənəvi baxımdan Vətən müharibəsinə dəstəyini əsirgəməməkdir. Lakin gəl gör ki, üç-dörd il öncəyədək Azərbaycanın ən nüfuzlu nazirlərindən olmuş biri Vətən müharibəsi haqqında yüksək fikirlər söyləyir, intəhası, vətəndaş həmin fikirlərə dırnaqarası münasibət sərgiləyir.



**Maraqlıdır, niyə?**

Bu suala cavab vermək çətin deyil. Korrupsiya elə dəhşətli bəladır ki, istənilən reytinqi, nüfuzu bir göz qırpımında məhv edir.Daha dərinə getsək, deməyə ehtiyac yoxdur ki, bu gün ölkəmizdə korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritetini təşkil edir. Sözügedən bəla, demək olar ki, müasir dünyada bir çox dövlətlərin daxili probleminə çevrilməklə yanaşı, həm də beynəlxalq səviyyədə müşahidə edilən kabusa dönüb. Haqqında danışılan sosial bəlanın tarixi çox qədimdir. Lakin biz onu bir çox hallarda və bir çox məmurların timsalında öz həyatımızda əyani şəkildə görürük. Əlbəttə, bu gün qətiyyətlə demək olar ki, korrupsiya və rüşvətxorluqdan tam azad olan ölkə yoxdur. Ancaq o da danılmaz faktdır ki, Azərbaycanda bir sıra sabiq iri məmurların adı gələndə ilk yada düşən korrupsiyadır. Elə Ziya Məmmədov kimi...

Sabiq ”nəqliyyat şefi”nin Vətən müharibəsi ilə bağlı dedikləri də məhz buna görə ictimai rəydə qeyri-ciddi, hətta ironik qarşılanır. Ola bilsin, Ziya müəllim həqiqətən də ön cəbhədə döyüşməyə hazırdır. Lakin sual yaranır: illər uzunu məsul olduğu sahədə iri məbləğlərlə müşayiət edilən dövlət vəsaitinin qeyri- şəffaf xərclənməsinə nə deməli? Axı vətənpərvərlik yalnız şablon və təmtəraqlı sözlərdən ibarət deyil. Vətənpərvərlik həm də büdcə pullarını təyinatı üzrə xərcləməkdən ibarətdir. Vətənpərvərlik həm də şəffaflıq və hesabatlılıq deməkdir. Vətənpərvərlik həm də dövlət satınalmalarını obyektiv həyata keçirməkdir. Vətənpərvərlik həm də büdcə vəsatləri hesabına ailə biznesini çiçəkləndirməmək deməkdir.Bu sadə həqiqətlər ortada ikən Ziya Məmmədov və onun kimi sabiq məmurların Vətən müharibəsi barədə təmtəraqlı, şablon çıxışları insanın ürəyini bulandırır.

Sözün həqiqi mənasında vətənpərvər olan bir məmur korrupsiyaya bulaşa bilməz! - günümüzün ən adi həqiqəti bundan ibarətdir.

Hər çıxışda dövlət, dövlətçilik, dövlət marağı kimi söz və söz birləşmələrini gen-bol istifadə eləyə bilərsən. Ancaq bir çox suallar illərdən bəridir öz cavabını gözləyir: dövlət vəsaitlərini talayaraq dövlətçi olmaq mümkündürmü? Körpü üçün, yol üçün ayrılan büdcə pullarının altından girib üstündən çıxaraq ”vətən” sözünü dilində əzbərə çevirməklə vətənpərvər olmaq mümkündürmü?

**Əlbəttə, mümkün deyil!**

Əsl vətənpərvərlik şəffaflıqdır, hesabatlılıqdır, dövlətin, xalqın vəsaitlərinə əyri gözlə baxmamaqdır.

İnanmaq olmur ki, Ziya Məmmədov belə bir adi həqiqəti dərk və qəbul etməkdən uzaqdır.

O, nə zamansa bəzi yolların istismarı üçün 25-30 il kimi böyük bir zaman kəsimi müəyyənləşdirmişdi. Ancaq həmin yollar istifadəyə verildikdən cəmi-cümlətanı 2-3 il sonra uçulub dağıldı. Bu da onların keyfiyyətsiz şəkildə inşa edilməsinin bariz nümunəsi idi.

İnsan istər-istəməz soruşmaq istəyir: hörmətli Ziya müəllim, nə vaxtsa hərbi xidmətdə ola bilərsiniz, hətta artilleriya batareyasında xidmət edə də bilərsiniz. Bu gün əsasən artilleriya döyüşlərinin getdiyini nəzərə alaraq müəyyən döyüş tapşırıqları barədə məlumatlı ola və ön cəbhəyə yollana da bilərsiniz!

Lakin söylədikləriniz sadə bir həqiqəti dəyişmir: siz və sizin kimi məmurların adı gələndə cəmiyyətin gözü qarşısında korrupsioner obrazı canlanır! Bu elə obrazdır ki, onun dilindən səslənən istənilən bəlağətli kəlmə adamın yadına talan edilən büdcə pullarını salır. Hər birimizin milli maraq və məqsədlər naminə yumruq kimi birləşdiyimiz vaxtda sabiq nəqliyyat nazirinin populist açıqlamalarına bəlkə də ötəri yanaşmaq olardı. Ancaq həmin açıqlamalar ətrafında gerçək fikirləri ona görə gizlətmək istəmədik ki, hər kəs sadə bir reallığı başa düşsün: həm korrupsioner, rüşvətxor olub həm də səmimi, həqiqi vətənpərvər kimi görünmək mümkün deyil!

Bu xəyala düşənlər yalnız və yalnız özlərini gülünc, qeyri-ciddi vəziyyətə sala bilərlər, vəssalam!

*Toğrul Əliyev*

# Azərbaycanın haqq savaşını dünyanın bir sıra ölkələri dəstəkləyir

## Elxan Şahinoğlu: "Türkiyə, Pakistan və Əfqanıstan son hadisələrdə birmənalı şəkildə Azərbaycanın yanında yer alan, qeyd-şərtsiz dəstəkləyən ölkələr oldu"



***Artıq bir aydan çoxdur ki, Azərbaycan işğal altında olan torpaqlarının azad olunması üçün haqq savaşına başlayıb. 30 ilə yaxın müddətdə öz torpaqlarını işğaldan azad etmək üçün sülh yolunu seçən Azərbaycan müharibəyə Ermənistanın təxribatı nəticəsində başladı. Tovuz istiqamətində hücuma keçən Ermənistan Silahlı Qüvvələri bu təxribatları ilə göstərdi ki, onlar nəinki torpaqlarımızı sülh yolu ilə geri qaytarmaq istəyir, əksinə daha çox ərazi iddialarındadırlar. Təbii ki, Azərbaycan buna susa bilməzdi. Azərbaycanın Ali Baş Komandanının əmri ilə yerinə oturdulan düşmənə ordumuzun gücünü göstərməyin vaxtı çatmışdı. 27 ildən çoxdur ki, torpaqlarımızın sülh yolu ilə işğaldan azad edilməsi üçün danışıqlar masasına əyləşən Azərbaycanın səsi isə çox təəssüf ki, beynəlxalq təşkilatlar, supergüc dövlətlər tərəfindən eşidilmədi. Bu 30 ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə ikili yanaşma nümayiş etdirən ATƏT-in Minsk qrupuna üzv olan dövlətlər, beynəlxaq təşkilatlar Ermənistana heç bir sanksiya tətbiq etmədiklərindən, onlar nəinki işğal altındakı torpaqlarımızı geri qaytardı, əksinə yeni ərazi iddialarında olduqlarını ortaya qoydular. Bu isə münaqişənin güc yolu ilə həllindən başqa variant olmadığını bir daha ortaya qoydu.***

Ekspertlər də bildirir ki, Azərbaycan illərdir ki, Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında səy göstərib. Bütün dünyaya faktlarla sübut etməyə çalışıb ki, işğal altında olan torpaqlar Azərbaycanın tarixi, dədə-baba torpaqlarıdır. Bu torpaqlar işğaldan azad olunmalı, yurd-yuvalarından didərgin düşən 1 milyondan çox qaçqın və məcburi köçkünlər o torpaqlara geri dönməlidirlər. Buna rəğmən bu münaqişənin həllində iştirakçı dövlətlər Ermənistanı dəstəkləməklə məşğul olur. Amma bununla belə bu haqq savaşında ölkəmizin yanında olan dövlətlər və beynəlxalq təşkilatlar da var.

"Atlas" Araşdırmalar Mərkəzinin direktoru, politoloq Elxan Şahinoğlu deyir ki, qardaş Türkiyə, Pakistan və Əfqanıstan son hadisələrdə birmənalı şəkildə Azərbaycanın yanında yer alan, qeyd-şərtsiz dəstəkləyən ölkələr oldu. NATO rəhbərliyi Dağlıq Qarabağ probleminə münasibətdə Ermənistanı məyus edib. Ermənistan Prezidenti Armen Sarkisyanın NATO-nun Azərbaycanın keçirdiyi hərbi əməliyyatların qarşısını almaq və rəsmi Bakıya dəstək verən Türkiyəyə təzyiq göstərmək barədə xahişi qəbul olunmayıb. NATO-nun Baş katibi Yens Stoltenberq və Ermənistan Prezidenti Armen Sarkisyan Brüsseldə NATO qərargahındakı görüşündən sonra rəsmi İrəvanın təklifi açıq şəkildə rədd edilib. Yens Stoltenberq Qarabağ münaqişəsindən danışarkən deyib ki,"cənab prezidentə NATO-nun bu döyüşlərin bir parçası olmadığını xatırlatdım. Azərbaycan da, Ermənistan da 25 ildən artıq müddətdir ki, NATO-nun dəyərli ortaqlarıdır"".



E. Şahinoğlu bildirib ki, Fransa prezidenti Emmanuel Makron Ermənistanı açıq-aşkar dəstəkləməklə birincisi, münaqişənin həllində bitərəf vasitəçi statusunu itirmiş oldu, ikincisi isə Azərbaycanla münasibətlərə zərər vurdu: "O bildirib ki, Azərbaycan Ordusu Dağlıq Qarabağda hərbi əməliyyatı uğurla bitirdikdən və Ermənistanı sülhə məcbur etdikdən sonra Bakı ilə Paris arasındakı münasibətlərdə yenidən normallaşma mümkündür. Lakin bu normallaşmanı və sağlam əlaqələri Makrondan sonrakı prezidentlə qurmaq mümkün olacaq. Azərbaycan müstəqillik qazandıqdan bu yana Fransa ilə tərəfdaşlıq münasibətlərinə çalışıb. Buna baxmayaraq, Fransadakı erməni diasporu bu münasibətlərə hər zaman mane olmağa çalışıb. Bu səbəbdən də rəsmi Bakı 1990-cı illərin ortalarında Avropa dövlətlərindən Fransanın ATƏT-in Minsk Qrupunun üçüncü həmsədri təyin edilməsinə etiraz etmişdi. Rəsmi Bakı neytral dövlət kimi Almaniyanın üçüncü həmsədr olmasını istəyirdi. Ancaq ATƏT-in o illərdəki sədri rəsmi Bakının rəyini nəzərə almadan Fransanı üçüncü həmsədr olaraq təyin etdi və biz fakt qarşısında qaldıq. Buna baxmayaraq, Bakı ilə Paris arasında normal münasibətlər mövcud idi. Fransanın keçmiş prezidentləri Jak Şirak, Fransua Olland və Nikola Sarkozi Ermənistana və ermənilərə rəğbət bəsləsələr də, Dağlıq Qarabağ münaqişəsində vasitəçi olduqlarına görə, Azərbaycanla da əlaqələrə önəm verirdilər. Fransua Olland və Nikola Sarkozi Ermənistanla yanaşı, Azərbaycana da səfər etmişdilər. Emmanuel Makron isə prezident seçildikdən sonra yalnız Ermənistana səfər edib, Azərbaycana səfər etməyi lazım bilməyib. Makronun Türkiyənin guya Azərbaycana Suriya muzdluları göndərməsi və atəşkəsi Azərbaycanın pozması barədə fakta əsaslanmayan açıqlamaları onun erməni tərəfini seçdiyinə işarədir".

Politoloq onu da deyir ki, artıq Türkiyə Suriyada və Liviyada möhkəmlənib, Afrika qitəsində müxtəlif ölkələrlə sıx əlaqələr qurub, bu isə Fransanın hakimiyyət dairələrində narahatlıq doğurur: "Türkiyə gəmisi Aralıq dənizində qaz araşdırması aparanda Türkiyə əleyhinə olan Yunanıstana əsas dəstək Parisdən gəldi. Görünür, hazırda rəsmi Paris Türkiyə-Azərbaycan siyasi və hərbi ittifaqından da ciddi narahatdır. Makronun Ermənistana açıq dəstəyindən sonra Bakı Fransanın vasitəçiliyini qəbul etməyəcək. Keçmiş illərdən fərqli olaraq, Azərbaycan təmsilçilərinin erməni həmkarları ilə Parisdə görüşməsi də mümkün deyil. Fransanın bu davranışları fonunda rəsmi Bakı Avropadakı Polşa, Çexiya, Rumıniya, eləcə də Avropa İttifaqındakı digər dost ölkələrlə, yaxınlarda Azərbaycan qazını qəbul edəcək dövlətlərlə təmaslarını artırmalıdır. Fransa görməlidir ki, Azərbaycanın Avropada müttəfiqləri az deyil və həmin dövlətlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir".

E. Şahinoğlunun sözlərinə görə, Ermənistanın İsraildəki səfirini geri çağırması rəsmi Bakıya diplomatik sferada manevr imkanlarını genişləndirməyə yeni imkanlar açır: "Bundan istifadə etmək lazımdır. İsrailin Azərbaycana satdığı müasir silahlar illərdir erməniləri narahat edir və bunun qarşısını ala bilmirlər. ABŞ İsrailin əsas strateji müttəfiqidir. İsrailin Avropada da müttəfiqləri az deyil. Rəsmi Bakı bundan istifadə edərək, İsraillə dialoqu genişləndirməlidir. ABŞ və Avropadakı yəhudi diasporunun imkanlarından da istifadə etmək lazımdır. Türkiyənin İsraillə hazırkı münasibətlərində soyuqluq olsa da, Ankara Bakıya ümumi qələbə naminə İsraillə dialoqu davam etdirməyə mane olmayacaq. Bəlkə də gələcəkdə Türkiyə ilə İsrail arasındakı münasibətlərin normallaşmasında Bakı dialoq müstəvisi kimi seçilə bilər. Ermənistan İsraildən səfirini geri çağırmaqla müharibənin gedişatında ərəb dünyası ilə İranın İrəvana dəstəyinin artacağına ümid edir. Ancaq ərəb dövlətləri Amerikanın istəyi ilə İsraillə diplomatik münasibətlər qurmaq üçün sıraya düzülüblər. İrana gəldikdə isə qonşu ölkədə azərbaycanlı amili ağır basmağa başlayıb,- Təbrizdə, Ərdəbildə və digər şəhərlərdə Azərbaycana dəstək aksiyaları keçirilib. Buna görə də İran İrəvan İsraildəki səfirini geri çağırıb deyə, açıq-aşkar Ermənistana dəstək verməyəcək.Təsadüfi deyil ki, İran dini liderinin Güney Azərbaycan əyalətlərindəki 4 təmsilçisi birgə bəyanat verərək Dağlıq Qarabağ savaşında Azərbaycana dəstək verdiklərini bildiriblər. Əlbəttə, Tehrandakı bəlli qüvvələr Ermənistana dəstək verə bilərlər, ancaq bunu ən azı açıq şəkildə etməkdən çəkinəcəklər. Bununla belə Azərbaycan bu savaşda haqlı tərəf kimi tanınır və qəbul edilir".

E. Şahinoğlu bildirir ki, Ermənistanın dinc Azərbaycan əhalisini hədəfə almasına bir çox supergüc dövlətlərinin və beynəlxalq təşkilatların susması da ikili standartların nəticəsi kimi qəbul olunmalıdır: "Türkdilli ölkələrin təşkilatı olan Türk Şurası Bərdə şəhərini atəşə tutduğu üçün Ermənistanı kəskin pisləyib və qoşunlarını Qarabağdan çıxarmağa çağırıb. Bəyanat verib ki, beynəlxalq ictimaiyyət məsuliyyəti üzərinə götürməli və müdaxilə edərək Ermənistanın törətməkdə davam etdiyi hərbi cinayətlərə son qoymağa Ermənistan hakimiyyətini məcbur etməlidir. Türk Şurasına Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan daxildir. Şuranın Baş katibi vəzifəsini hazırda Qazaxıstan təmsilçisi Bağdad Əmriyev tutur. Bərdə şəhərinə edilən raket hücumu nəticəsində rəsmi məlumatlara əsasən, 21 insan həlak olub, 70-ə yaxın adam yaralanıb".

***Z.Məmmədli***



## Bayden və Tramp arasındakı fərq 3 ştatda azalır

***ABŞ-da prezidentlik yarışında qeyri-müəyyənlik davam edir, "tərəddüdlü" Corciya, Pensilvaniya və Arizona ştatlarında respublikaçı Donald Tramp ilə demokrat Cozef Bayden arasındakı fərq son saatlarda xeyli azalıb.***

Bu barədə "Report" TASS-a istinadən xəbər verir. CNN telekanalının hesablamalarına görə, Corciyada bülletenlərin 99%-i artıq işlənib. Son məlumatlara görə, Bayden Trampla aradakı fərqi xeyli azaldıb. Hər ikisi təxminən 49,4% səsə malikdir. Demokratla müqayisədə respublikaçı əlavə 1,8 min bülleten dəstək qazanıb.

Xatırlaqdaq ki, cümə axşamı Tramp 5 min səs öndə idi.

CNN-in məlumatına görə, Corciyada təqribən 14 min bülleten hesablanmamış qalır. Telekanal vurğulayır ki, Tramp yarışı qazanmaq üçün bu ştatda mütləq qalib gəlməlidir. Belə ki, Corciyada zəfər namizədə 16 seçən səsi qazandırır.

Pensilvaniyada (20 seçən səsi) bülletenlərin 95%-i emal edilib. Burada da Trampın üstünlüyü sürətlə azalır. Respublikaçı bu ana qədər səslərin 49,5, demokrat isə 49,2%-ni toplayıb. Baydenin Pensilvaniyadakı qələbəsi onun prezident olmaq üçün zəruri 270 səs həddini aşacağı anlamına gəlir.

Arizonada (11 seçən səsi) bülletenlərin 90%-i işlənib. CNN-in qiymətləndirmələrinə görə, Bayden səslərin təxminən 50,1%-ni, Tramp isə 48,5%-ni qazanıb. "Associated Press" agentliyi və "Fox News" telekanalı daha əvvəl Baydenin Arizonada qalib gələcəyi ilə bağlı proqnozlar vermişdi. Bir çox digər nüfuzlu media orqanları, o cümlədən CNN Baydenin lider olduğunu etiraf etsələr də, ştatdakı səsvermə nəticələrinin o qədər də aydın olmadığını hesab edirlər.

"Fox News"un proqnozlarına görə, Bayden artıq 264 seçən səsi qazanıb, Tramp isə 214 səslə geridədir. Hər iki namizəd Ağ Ev uğrunda mübarizəni qazanacaqlarına əminliklərini ifadə edir.

## "Yeni tətbiq edilmiş karantin rejimi dekabrın 2-də bitəcək" –Boris Conson

***"Dörd həftəlik karantin rejimi Britaniyada koronavirus infeksiyasının ikinci dalğasını minimuma salmaq üçün kifayət edəcək".***

"Sky News" telekanalı xəbər verir ki, bunu cümə axşamı Böyük Britaniyanın Baş naziri Boris Conson mətbuat konfransında yeni qüvvəyə minmiş məhdudlaşdırıcı tədbirlərdən danışarkən qeyd edib.

Baş nazir bildirib ki, ona verilən məlumata görə, görülən tədbirlərin real təsir gücü üçün dörd həftə kifayətdir: "Bu tədbirlərin müddəti dekabrın 2-də bitəcək".

O, hökumət tərəfindən tətbiq edilən yeni məhdudiyyətlərin dekabr ayında nəticə verəcəyinə ümid etdiyini bildirərək, optimist fikirlər səsləndirib: "Məhdudlaşdırıcı tədbirlər 25 dekabrda qeyd edilən Milad Günü insanların bir araya gəlməsinə imkan verəcək".

# YENİ TEHRAN SAMMİTİ

## Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair köhnə təcrübə tarixin təkrarlanması ilə bitməyəcəkmi?

***Sentyabrın 27-də müharibə başlayandan bəri İran Qafqazdakı qonşularını mübahisəni sülh yolu ilə həll etməyə çağırıb və Bakı ilə İrəvan arasında vasitəçiliyi təklif edib. Sərhədində hər iki ölkə ilə balanslı münasibətlər axtaran İran, əslində, müharibənin qışa yaxınlaşması və ermənilərin şiddətli müqaviməti vəziyyətində regional vasitəçi olaraq müdaxilə etmək üçün yaxşı mövqedədir. İranın xarici işlər naziri Cavad Zərif azərbaycanlı və erməni vəzifədaşları ilə telefon diplomatiyası aparır və yaxın gələcəkdə Bakı və İrəvana Zərifin "servis diplomatiyası"nın baş tutma ehtimalı var.***



Müharibənin başlamasından düz bir ay sonra, oktyabrın 27-də İran xarici işlər nazirinin siyasi məsələlər üzrə müavini Seyyid Abbas Əraqçi vasitəçiliyə doğru yol açmaq məqsədi ilə regional turneyə göndərilib.

Münaqişə coğrafiyasının genişlənmə qorxusunun olduğu, İran hərbi qüvvələrinin cəmləşdiyi Azərbaycanla həmsərhəd bölgələri ziyarət etməklə missiyasına başlayan Əraqçi ilk görüşünü Bakıda, xalqının qələbə gözləntilərini yüksəldən Azərbaycan prezidenti İlham Əliyevlə keçirib.

Bakıda İranın elçisi Azərbaycanın ərazi bütövlüyünün vacibliyini vurğulayıb və "azlıq hüquqları və insan haqları"nın İran təşəbbüsünün dayanıqlı sülh üçün sütunlardan biri olduğunu söyləyib.

Xüsusi elçisi oradan Ermənistanla qarşılıqlı müdafiə müqaviləsi bağlamış, lakin tanınmamış "Qarabağ Respublikası"ndan nisbi məsafə saxlayan Rusiyaya yollanıb.

Rusiya prezidenti Vladimir Putin Əraqçinin Moskvaya səfərindən bir gün sonra Qarabağ ermənilərinin öz təhlükəsizlik tamponu hesab etdiyi Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş rayonlarının qaytarılması perspektivini barışıq formulunun bir hissəsi adlandırıb.

Putin vurğulayıb: "Bizim mövqeyimiz - Qarabağ bölgəsi üçün xüsusi rejimin və Ermənistanla əlaqənin təmin edilməsi ilə yanaşı, bu 5 və əlavə 2 rayonun Azərbaycana təhvil verilməsi ehtimalı ilə tamamilə açıqdır".

Əraqçi İrəvanda Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyan tərəfindən də qəbul edilib.

### Yeni Tehran sammiti?

İranın keçmiş prezidenti Haşimi Rəfsəncaninin 1992-cü ilin may ayında ev sahibliyi etdiyi zirvə toplantısına bənzər Tehran sülh zirvəsi ehtimalı artmaqdadır. Bu sammitdə vicdanlı danışıqlarla Azərbaycan və Ermənistan liderləri davamlı atəşkəs vəd edən "Tehran Kommünikesi"ni imzalayıblar.

Həmin diplomatik nailiyyət İranın o zamankı diplomatlarından biri olan Mahmud Vaezinin, hazırda İran prezidenti Həsən Ruhaninin Aparat rəhbərinin "servis diplomatiyası"ndan sonra baş verib. Vaezi, eyni zamanda, bir neçə il əvvəl bu sətirlərin müəllif üçün akademik sığınacaq olan Tehran iqamətgahlı düşüncə qurumu - Strateji Araşdırmalar Mərkəzinin sabiq direktor müavinidir.

Mən Vaezi ilə Dağlıq Qarabağla bağlı apardığım geniş söhbətləri, Moskva və Vaşinqtonun son atəşkəs cəhdlərinə bənzər görünən "Tehran Kommünikesi"ndəki uğursuzluq səbəblərini xatırlayıram.

Vaezinin sözlərinə görə, "Tehran Kommünikesi" hər iki tərəfdən, sözün əsl mənasında, qəbul edildikdən bir neçə saat sonra, hər şeydən əvvəl də Tehranda hərbi əməliyyatları dayandırmağa razılıq verdikdən dərhal sonra daha çox Azərbaycan ərazisini ələ keçirən ermənilər tərəfindən ciddi şəkildə pozulub.

Beləliklə, bu gün Tehranın, - Bakı və İrəvan rəhbərliyinin barışığa rəsmi razılıqlarına baxmayaraq, - nəcib sülh səyinin qulaqardına vurulması barədə xatirələri hələ də öləziməyib. Son vaxtlara qədər yeni səylərin də tarixin təkrarlanması ilə sona çatacağı riski qalırdı. Ancaq indi Ruhani hökumətinin bölgədə barışdırıcı rol oynamaya dair açıq istəyi var.

### Minsk qrupu yenilənir?

1990-cı illərdə İranın səyləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupu ilə əlaqələndirilirdi.

Minsk qrupu 2007-ci ildə BMT Təhlükəsizlik Şurasının Azərbaycanın Dağlıq Qarabağdakı suverenliyini tanıyan qətnamələrə istiqamətlənən "Madrid prinsipləri" qəbul edib. Ancaq keçən yaz Ermənistan baş naziri Nikol Paşinyan "Madrid prinsipləri"ni qətiyyətlə rədd edib və 1920-ci ildə Ermənistanın ərazi iddialarına əsaslanan, lakin heç vaxt qəbul olunmayan Sevr müqaviləsinə yönəlik yeni bir yanaşmaya istinadlanıb.

Bu cür geriyə sıçrayış təkcə Ermənistanın 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərindən bəri işğal etdiyi mübahisəsiz ərazilər üzərində deyil, həm də bütün Dağlıq Qarabağ üzərində tam suverenlik əldə etmək niyyətində olan Azərbaycan üçün tamamilə qəbuledilməzdir.

Paşinyan yalnız son vaxtlar hər iki tərəfi təsir edən fəlakətli müharibənin alovunu söndürmək üçün Ermənistanın "qarşılıqlı güzəştlərinə" eyham vurub.

Həqiqətən, baş nazir Paşinyan və Azərbaycan Prezidenti Əliyevi eyni sülh masası ətrafına gətirə biləcək yeni Tehran sülh sammitinin lehinə ağlabatan dəlillər gətirilə bilər.

Birincisi, İranın (a) həm Ermənistanla, həm də Azərbaycanla həmsərhəd olması, (b) hər iki ölkə ilə səmimi münasibətləri və (c) bu münaqişədə vasitəçilik rolunu oynamasına dair müqayisəli üstünlüyü var.

İkincisi, İranın balanslaşdırılmış yaxşı qonşuluq münasibətləri, digər beynəlxalq tərəflərin niyyətlərindən şübhələnən İrəvan və Bakının qarşılıqlı etimadı üçün möhkəm zəmin yaradır. Müqayisə üçün, məsələn, Vaşinqtonun gecikmiş vasitəçilik səylərinə ABŞ prezidentinin siyasəti kölgə salır. Moskva Əliyev tərəfindən ermənipərəst olmaqda günahlandırılarkən, Türkiyə qətiliklə Azərbaycanın arxasında durur. Bunun əksinə olaraq, Ruhani hökuməti ehtiyac duyulan aktiv neytrallığın təsirli vasitəçilik üçün lazımi örtüyünü proyektləşdirmə qabiliyyətinə malikdir.

Ancaq son nəticədə, Tehran zirvəsi üçün şərtlər cəbhədəki davamlı inkişaf, məsələn, Azərbaycanın qəti qələbəsi və ya dalana dirənməsindən asılı olacaq. İlk ssenaridə Bakının qazancı, sadəcə, mənalı vasitəçiliyi istisna edən daha uzun bir müharibəyə təkan deməkdir. Sonuncu ssenaridə Dağlıq Qarabağın güc yolu ilə geri alınmaması Bakı hökuməti üçün böyük məsuliyyətə çevriləcək və ondan maksimalist müharibə məqsədlərinə yenidən baxılması tələb olunur.

Rəsmi Bakının hərbi kampaniyanı dayandırma ehtimalı - qışın sürəti yaxınlaşması, zamanın mütləq şəkildə Azərbaycanın tərəfində olmadığı aşınma müharibəsi ilə üfüqdədir. Nəticədə, Bakı, bitişik 7 rayon istisna olmaqla, mahiyyət etibarı ilə xalq müharibəsini necə davam etdirmək məsələsi ilə qarşılaşacaq.

Bir sözlə, siyasi cəhətdən məqsədəuyğun olan şey mütləq şəkildə müharibə cəbhəsi üçün uyğun deyil.

Bundan sonra Tehran sülh sammiti yalnız Azərbaycanın tələblərinin ilkin yumşaldılması üçün digər tələblərin icrası halında uğurlu ola bilər. Cenevrədəki Minsk prosesi təsirli sülh prosesinə alternativ tanımır, amma hələ də bu dəhşətli münaqişəyə son qoymaq baxımından səmərəli deyil. İranın da daxil olduğu yenilənmiş Minsk qrupu və 26 il əvvəl Tehran zirvəsində mövcud əməkdaşlıq ruhu lazımdır.

Keçmişdəki təcrübəyə əsaslanaraq, yeni Tehran zirvəsi, azərbaycanlılar və erməni azlığın dinc yanaşı yaşamasında əsas rol oynayan ölkə kimi regional əhəmiyyətini vurğulayaraq, İran üçün faydalı ola bilər.

***Kavə Əfrasiyabi***
***"Asia Times" (Honq-Konq),***
***02.11.2020***

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Vətən müharibəsi ərəfəsində Qarabağ həqiqətləri dünyaya çatdırılmalıdır

### Nəzakət Məmmədova: "Hazırda Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qərarları və nizamnaməsindən irəli gələn hüquqlarla torpaqlarını azad etmə proseslərini reallaşdırır"

***Qarabağ münaqişəsinin həll olunması üçün 27 ildir ki, danışıqlar yolunu seçən Azərbaycan artıq bu münaqişəyə güc yolu ilə son vermək üzrədir. Buna baxmayaraq hələ də bəzi dövlətlər, beynəlxalq təşkilatlar, Minsk qrupuna üzv dövlətlər Azərbaycanı danışıqlar formatına qayıtmağa səsləyir. Azərbaycan rəsmi olaraq bu danışıqların heç birindən imtina etməyərək öz şərtləri çərçivəsində münaqişənin bu gün də sülh yolu ilə həllinin mümkün olduğunu bəyan edib. Üç dəfə humanitar atəşkəs olmasına baxmayaraq Azərbaycan hər dəfə düşmənin atəşkəsi kobud şəkildə pozması ilə üzləşib. Hazırda Azərbaycan ordusu öz xilaskarlıq missiyasını davam etdirməkdədir. Torpaqlarımızın işğaldan azad edilməsi isə bəzi dövlətlərdə qıcıq yaratdığı açıq-aşkar hiss olunur. Almaniyanın ARD televiziya kanalının prezident İlham Əliyevlə müsahibəsində "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualı dünyanın hələ də Dağlıq Qarabağ həqiqətlərindən özünü bixəbər göstərdiyinin bariz nümunəsidir.***

İlham Əliyevin bu suala "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik" deməsi Dağlıq Qarabağ həqiqətlərinin bütün dünya tərəfindən qəbul edilməli olduğuna ən tutarlı cavab oldu.

Politoloqlar da münaqişə başlayandan Dağlıq Qarabağda Ermənistan Silahlı Qüvvələrinin törətdikləri vəhşiliklər, bu torpaqların Azərbaycana məxsus olması barədə faktların ölkəmiz tərəfindən dünyaya car çəkilməsinə baxmayaraq münaqişəyə ikili yanaşma sərgiləndiyini bildirirlər.

Politoloq Nəzakət Məmmədova deyir ki, prezidentin öz çıxışlarında ermənilərin 200 ildir dağlıq Qarabağ torpaqlarında yaşamasını vurğulaması tarixi faktdır. O deyir ki, Ermənilərin Şərqi Anadoludan və İrandan köçürülməsi tarixdə də



öz əksini tapıb. Politoloqun sözlərinə görə, indiyədək bütün beynəlxalq təşkilatlar, Avropa ölkələri qarşısında Dağlıq Qarabağ həqiqətləri dəfələrlə səsləndirilib. Buna tutarlı faktlar gətirilib. Buna baxmayaraq Ermənistan ərazi iddialarından əl çəkmir, tarixi saxtalaşdıraraq Qarabağla bağlı həqiqətləri saxtalaşdırırlar. Ermənilərin Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağa iddiası və sonradan Qarabağ adının "Artsax" kimi dəyişdirilməsi qurduqları hakimiyyətin saxta olduğunu sübut edir. Mənbələr göstərir ki, tarixdə yalnız "Arsax" və ya "Arsak" (Ərsak) adlı türk tayfaları mövcud olub. "Arsak" və ya "Arsax" adı qədim türk tayfası saklarla bağlı olan bir toponimdir. Beynəlxalq münasibətlərdə hərbi güc müstəsna əhəmiyyətə malik olsa da, bəzən həlledici rol oynaya bilmir. Amma bu gün Azərbaycanın hərb yolu ilə öz torpaqlarını işğaldan azad etməsinin hüquqi əsası var. İllərdir ki, Azərbaycan işğal altında olan torpaqların Azərbaycan xalqına məxsus olmasını, işğal zamanı xalqımızın həmin torpaqlardan didərgin salındığını əsaslı dəlillərlə sübut edib. Artıq beynəlxalq hüquqla həmin torpaqların Azərbaycana məxsus olduğu qəbul edilib. Azərbaycanın üzləşdiyi işğal faktı ilə uzun illər barışaraq sakit dayana bilməzdi. İkinci Qarabağ müharibəsi başlayanadək Dağlıq Qarabağın tarixi Azərbaycan torpağı olduğu, bir milyondan çox qaçqın və məcburi köçkünün öz dədə-baba yurdundan didərgin düşdüyü, Xocalı soyqırımı barədə beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar məlumatlandırılıb. Hazırda Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qərarları və nizamnaməsindən irəli gələn hüquqlarla torpaqları azad etmə prosesini reallaşdırır".

Politoloq deyir ki, bununla belə Azərbaycan heç vaxt danışıqlar masasından kənara çəkilməyib. Son Cenevrə görüşü zamanı da Azərbaycan atəşkəs haqqında sənədə imza atıb: "Amma atəşkəs hər dəfə düşmən tərəfindən pozulub. Bu gün dünya, beynəlxalq ictimaiyyət Ermənistanın əsl simasını görür. Ermənistan dinc əhalini hədəfə almaqla göstərir ki, zaman dəyişsə belə, ermənilərin terrorçu xisləti dəyişməz olaraq qalır. Dünyada beynəlxalq hüquq qaydalarına görə, müharibə qanunları Haaqa konvensiyası və digər beynəlxalq qanunlara əsaslanır. Cenevrə Konvensiyasına görə, müharibə vaxtı mülki əhaliyə atəş açmaq qadağandır və heç vaxt hədəf ola bilməz. Ermənistanın mülki əhaliyə qarşı zorakılığı beynəlxalq qaydaları pozmaq deməkdir. 1899 və 1907-ci illər Haaqa konvensiyası və bəyannaməsi, 1949-cu il Cenevrə konvensiyası və 1977-ci il ona əlavə protokollarının tələblərinə əsasən müharibə tərəfləri döyüş əməliyyatları zamanı əhalinin zərər çəkməsinin minimuma endirilməsi üçün əlindən gələni etməlidirlər. Bu terror birabaşa olaraq Ermənistan siyasi hakimiyyətinin tapşırığı ilə törədilir. Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində Paşinyanla bir masa arxasında oturmağın heç bir mənasının olmadığı fikrini səsləndirib. İlham Əliyev qeyd edib: "Xeyr, bunun qətiyyən heç bir mənası yoxdur. Son iki il ərzində mənim onunla çoxsaylı görüşlərim olub, lakin onların hamısı tamamilə səmərəsiz və mənasız olub, ilk görüşlər istisna olmaqla. O, mənə söz vermişdi ki, əgər Azərbaycan dırnaqarası "inqilab"dan sonra ona vaxt versə, o, yaxşı hazırlaşacaq, Ermənistanda siyasi cəhətdən öz mövqeyini gücləndirəcək və sonra əsas prinsipləri yerinə yetirmək üçün konstruktiv şəkildə işləməyə hazır olacaq. Bu, onun Ermənistanda rəhbərliyinin ilk aylarında mənə söylədikləri idi. Lakin bir ildən sonra o, tamamilə fərqli sözlər dedi. O dedi ki, Azərbaycana qaytarılası bir santimetr belə torpaq yoxdur. Dedi ki, "Qarabağ Ermənistandır". Dedi ki, Azərbaycan Dağlıq Qarabağdakı qondarma qurumun dırnaqarası "rəhbərliyi" ilə danışıqlar aparmalıdır. Beləliklə, o, danışıqlar prosesini pozmaq üçün hər şeyi etdi. Ona görə də hazırda mən onunla görüşməkdə bir məna görmürəm. Bu yaxınlarda bizim xarici işlər nazirlərimiz Cenevrədə görüşüblər və mən düşünürəm ki, hazırda bu, təmaslar üçün doğru formatdır".Ali Baş Komandan danışıqlar üçün Ermənistanın torpaqlarımızı cədvəl əsasında, tarixlər qeyd edilməklə boşaltmalı olduğunu bəyan edib".

N. Məmmədova onu da bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyət daha da genişləndirilməlidir: "Ermənilər dünyaya işğala məruz qaldıqlarını car çəkir. Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək üçün apardığı haqq savaşı işğal kimi dünyaya çatdırılır. Hazırda müxtəlif səviyyəli beynəlxalq tədbirlərin təşkili, tarixən ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımları, qanlı faciələri, vəhşilikləri əks etdirən çap, audio-video materialların müxtəlif dillərdə hazırlanıb yayılmasına diqqət artırılmalıdır. Eyni zamanda, münaqişənin tarixi kökləri, onun acı nəticələri, işğal olunmuş ərazilərdə yaşayış məntəqələri, tarixi mədəniyyət abidələrinin dağıdılması barədə məlumatlar müxtəlif dillərdə hazırlanmalı, dünya və ölkə mətbuatında yayılması təşkil edilməlidir. Xarici ölkələrdə müxtəlif beynəlxalq və diaspor təşkilatları ilə sıx əlaqələr qurmaq, birgə fəaliyyət göstərmək və əməkdaşlıq etmək vacibdir. Ermənistanın işğal dönəmində torpaqlarımızdakı bütün tarixi, mədəni abidələri dağıtdığı faktlarla dünya ictimaiyyətinə çatdırılmalıdır. Onların bu barbarlığından dünya ictimaiyyəti xəbər tutmalıdır ki, Azərbaycanın haqq savaşı dünyaya işğal kimi təqdim olunmasın".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# "Qızım intihar etməyib, onu əri asıb..." - Üç uşaq anasına dəhşətli əməl

***Masallı rayonunda arvadına işgəncə verməkdə və onu intihar həddinə çatdırmaqda ittiham olunan 1983-cü il təvəllüdlü Ruhəddin Qasımovun məhkəməsi başa çatıb.***

Ruhəddin Qasımov 2007-cı ildə evləndiyi Xırmandalı kənd sakini, 1985-ci il təvəllüdlü Nəsibə Əhmədova ilə ər-arvad kimi yaşadığı dövrdə onunla amansız rəftar edib, müxtəlif vaxtlarda döyüb bədən xəsarətləri yetirməklə onu özünü öldürmə həddinə çatdırıb.

## Qadın tövlədə özünü niyə asdı?

Ruhəddin Qasımov Nəsibə Əhmədovaya həmin kənddə yaşayan valideynləri və yaxın qohumları ilə münasibət saxlamağa, qohumlarının evinə gediş-gəliş etməyə, eləcə də arvadının valideynləri və yaxın qohumlarının onlara gələrək Nəsibə Əhmədova və azyaşlı uşaqları ilə görüşməyə, vəziyyətləri ilə maraqlanmağa qəti icazə verməyib. O, arvadına qapalı həyat tərzi yaşatmaqla daim mənəvi iztirab verib, onu şəxsi təsərrüfatlarında olan ağır fiziki işlərdə işləməyə məcbur edib, mütəmadi olaraq ailədə mübahisə yaradaraq onu və valideynlərini söyüb-təhqir edib.

Ruhəddin Qasımov 2019-cu ilin yanvar ayında Nəsibə Əhmədovaya qarşı amansız rəftar edib, küt əşya ilə onu döyüb.

Ruhəddin Qasımov həmçinin fevralın 5-də saat 14 radələrində özlərinə məxsus olan təsərrüfatda qoyun-quzuların tövlədən buraxılmaması səbəbindən Nəsibə Əhmədova ilə yenidən mübahisə edib, onu döyüb.

Ərinin bu hərəkətlərinə dözməyən Nəsibə Əhmədova özünü öldürmək məqsədilə həmin gün saat 14 radələrində yaşadığı evin həyətində yerləşən tövləyə girib, baş yaylığı ilə özünü asıb.

## "Maddi imkansızlıqdan toyumuz olmadı"

İstintaq orqanı tərəfindən Ruhəddin Qasımovun barəsində Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Ruhəddin Qasımov elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. Qeyd edib ki, 2007-ci ildə həmkəndlisi Nəsibə Əhmədovanı öz razılığı ilə qaçırıb və ailə həyatı qurub: "Maddi imkanım zəif olduğuna görə toyumuz olmadı. Lakin sonradan rəsmi nikah bağladıq. Ər-arvad kimi birgə yaşadığımız dövrdə 2008-ci ildə qızım Nərgiz, 2010-cu ildə oğlum Əlimərd, 2013-cü ildə oğlum Əli dünyaya gəldi.

Ailə qurduqdan sonra bir il ərzində atamın evində və bir neçə il bibim Bəsirə Qasımovaya məxsus evdə yaşadıq. Daha sonra hazırki yaşadığım evi tikdirdim, ailəmlə birlikdə ora köçdük. Təsərrüfatla məşğul oldum, mal-qoyun saxlayaraq, əkin-biçinlə məşğul olaraq ailəmi dolandırırdım. Arvadım Nəsibə bu işlərdə mənə daim kömək edirdi. Əvvəllər spirtli içkilər qəbul etdiyim üçün arvadımla aramızda narazılıqlar baş verib, bir neçə dəfə onu döymüşəm".

## "Söz-söhbət yaydı ki, guya mebel tələb edirəm"

Ruhəddin Qasımovun sözlərinə görə, son 5-6 ildə spirtli içki içməyib, arvadı Nəsibə ilə münasibəti yaxşı olub, onu təhqir etməyib, döyməyib: "Nəsibə evdar qadın kimi ev işləri ilə, həm də həyətdə əkin əkməklə məşğul olurdu, mal-qara, qoyun-quzu saxlamaqda mənə köməklik edirdi. Nəsibənin qohumları, ata-anası ilə gediş-gəlişim olmayıb. Bu səbəblə Nəsibənin də onlarla görüşməsinə, gedib-gəlməsinə icazə verməmişəm.

Səbəb odur ki, 2009-cu ildə bibimin evində yaşadığım dövrdə Nəsibə vasitəsi ilə qaynanam Məfturədən yatmaq üçün iki nəfərlik çarpayı istəmişdin. Qayınanam istədiyim taxtı vermədi, əksinə, söz-söhbət yaydı ki, guya onlardan mebel tələb edirəm".

## Süfrə arxasında mübahisə...

Təqsirləndirilən şəxs qeyd edib ki, fevralın 5-də səhər saat 8 radələrində yuxudan oyanıb: "Arvadım həmin vaxt məndən tez yuxudan oyanıb uşaqları məktəbə yola salmışdı. Mən evdən çıxdım, Masallı şəhərinə getmək üçün kəndin mərkəzinə gəldim. Şəhərə getmək üçün avtomobil olmadığına görə günorta saat 13 radələrinə qədər kəndin mərkəzində qaldım. Saat 13 radələrində evə gəldim, artıq qızım Nərgiz və oğlum Əlimərd məktəbdən evə qayıtmışdı. Nəsibə günorta süfrəsini açdı, yemək çəkdi. Həmin vaxt həyətdə olan tövləyə baxarkən, quzuların tövlədə olduğunu gördüm. Bu səbəbdən Nəsibəyə əsəbləşdim, qoyunları otarmaq üçün nə üçün həyətə buraxmadığını soruşdum.

Yemək yeyərkən Nəsibədən quzuları niyə tövlədən səhəyə buraxmamasını bir daha soruşdum, çörəyimizi həmin heyvanlardan qazandığımızı dedim. Nəsibə heyvanları tövlədən nəzarətsiz buraxdıqda, onların başqa səhəyə girəcəyini bildirdi. Odur ki, Nəsibəyə heyvanların yanında durmalı olduğunu dedim. Bununla əlaqədar aramızda narazılıq yarandı, lakin dalaşmadıq, onu vurmadım.

Nəsibə süfrədə olan qazan yeməyini götürüb çölə çıxdı. Mən isə azyaşlı uşaqlarımla birlikdə süfrədə oturdum, yeməyə davam etdim".

## "Tövlədə yaylıqdan asılmış vəziyyətdə çabaladığını gördüm"

Ruhəddin Qasımovun ifadəsinə görə, bir qədər keçəndən sonra qızı Nərgizə süfrəni yığışdırmaq üçün anasını həyətdən çağırmağı tapşırıb: "Nərgiz az müddət sonra geri qayıdaraq anasının həyətdə olmadığını dedi. Nəsibəni çağırmaq üçün özüm həyətə düşdüm. Onu həyətdə görməyəndə tövlədə olacağını düşündüm, tövləyə getdim. Tövlənin taxta qapısı içəridən bağlı idi. Qapının taxtalarının arasından baxdım. Nəsibənin tövlədə yaylıqdan asılmış vəziyyətdə çabaladığını gördüm. Qışqıraraq tez tövlənin qapısını açdım.

Nəsibənin boğulmaması üçün bədənini qucaqladım, yuxarıya qaldırdım. O, baş yaylığını tövlənin tavanınında olan şalbana ilişdirilmiş pres ipinə bağlayaraq yaylığı boynuna keçirmişdi. Yaylığın bağlandığı yerdən əlimlə tutdum, aşağıya çəkməklə yaylığı cırdım, Nəsibəni azad etdim. Sonra onu çiynimə qoyaraq aşırılmış vəziyyətdə tövlədən çıxartdım və qışqıraraq köməyə adam çağırdım.

Köməyə qonşulardan Alışan və Ülviyyə adlı qadın gəldilər. Daha sonra əmim Aməd və başqaları gəldilər. Əmim kənd məntəqəsindən feldşer Ağaverdini çağırdı. Ağaverdi Nəsibəyə tibbi yardım edərək onun sağ olduğunu bildirdi. Daha sonra təcili yardım avtomobili gəldi, onu xəstəxanaya apardı. Nəsibə 7 gün xəstəxanada qaldı. Xəstəxanada olduğu müddət ərzində uşaqlarıma nəzarət etdiyim üçün yanına gedə bilmədim".

## "Bu hadisədə günahım yoxdur"

Ruhəddin Qasımov qeyd edib ki, fevralın 12-də Nəsibə xəstəxanada vəfat edib: "Onun meyitini valideynləri öz evinə apardılar və özləri dəfn etdilər. Nəsibənin valideynləri və digər yaxın qohumları onun intihar etməsi, ölməsi ilə bağlı mənə qarşı acıqlı olduqları üçün yas yerinə getmədim.

Nəsibə əvvəllər özünü öldürməyə cəhd etməyib, hər hansı psixi və sair ağır xəstəliyi olmayıb. Hadisədən əvvəl, həmçinin hadisə günü Nəsibəni döyməmişəm. Bu hadisədə mənim günahım yoxdur. Günahsız yerə mühakimə olunuram. Bu səbəbdən bəraət istəyirəm".



## "Qızımı insan kimi yaşamağa imkan verməyib"

Cinayət işi üzrə zərərçəkmiş Nəsibə Əhmədovanın hüquqi varisi Nəsir Əhmədov bildirib ki, qızı xaraktercə sakit olub: "Nəsibə təxminən 15-16 il əvvəl arvadım Məfturənin xalası oğlu Raufla ailə qurub, lakin az müddət sonra qızımın həmin evliliyi öz istəyi ilə pozulub. 13 il əvvəl həmkəndlimiz Ruhəddinlə ailə qurdu. Onların arasında əvvəllər mübahisələr olub. Hətta 6-7 il əvvəl Nəsibə acıq edərək mənim evimə gəldi. Geri qayıtdıqdan sonra Ruhəddin onu döyüb. Bu barədə qohumlarımdan eşitmişəm.

Nəsibə ailə qurduqdan sonra onun ailəmlə, eləcə də digər qohumlarımla əlaqəsi kəsilib. Ruhəddin heç kəsi evinə qonaq getməyə qoymayıb. Ona görə də Nəsibənin bizimlə əlaqəsi olmayıb.

Nəsibənin əri Ruhəddin Qasımov onunla ər-arvad kimi yaşadığı dövrdə mütəmadi olaraq onu döyüb, ləyaqətini alçaldıb, insan kimi yaşamağa, valideynləri ilə ünsiyyət saxlamağa imkan verməyib".

## "Qızım intihar etməyib, onu Ruhəddin asaraq öldürüb"

Nəsir Əhmədovun ifadəsinə görə, fevralın 12-də qızı xəstəxanada vəfat edib: "Onun meyitini evə apardıqdan sonra məlum oldu ki, meyitin üzərində döyülməyə xarakterik çoxlu xəsarət izləri var. Həmin xəsarətlərin bir qismi meyitin arxa kürək və bel nahiyəsində, sol qolunda açıq-aşkar görünürdü. Bundan başqa, meyitin boyun və boyunun arxa hissəsi şişkinlik vardı. Bütün bunlar göstərir ki, hadisədən əvvəl Nəsibə əri tərəfindən mütəmadi olaraq döyülüb.

Hadisə günü onların arasında quzuların tövlədə qalması, həyətə buraxılmaması ilə bağlı mübahisə olub. Həmin vaxt Ruhəddin Nəsibəni döyüb, onun şərəf və ləyaqətini alçaldıb.

Biz Ruhəddinin Nəsibəyə qarşı zorakılıq etdiyini əvvəllər bilməmişik. Ona görə də şikayət etməmişik. Çünki Ruhəddin bizi Nəsibə ilə ünsiyyət saxlamağa imkan verməyib. Nəsibə ruhi xəstə olmayıb, hərəkətlərini və davranışını bilib. Hesab edirəm ki, qızım intihar etməyib, onu Ruhəddin asaraq öldürüb".

Masallı rayon Məhkəməsinin hökmü ilə Ruhəddin Qasımov 3 il müddətinə azadlıqdan məhrum edilib. Onun barəsində həbs qətimkan tədbiri seçilib və məhkəmə zalından həbs olunub. Onun cəzasının əvvəli 15 oktyabr 2019-cu ildən hesablanması barədə hökm edilib.

Hökmdən narazı qalan Ruhəddin Qasımov apelyasiya şikayəti verib. O, barəsində olan hökmün ləğv olunmasını, bəraət hökmünün çıxarılmasını istəyib.

Ruhəddin Qasımovun şikayəti araşdırılması üçün Şirvan Apelyasiya Məhkəməsinə göndərilib. Hakim Fuad Soltanovun sədrliyi ilə baş tutan iclasda apelyasiya şikayətinin dəlilləri araşdırılıb, sonda qərar elan edilib.

Ruhəddin Qasımovun şikayəti təmin edilməyib(teleqraf).

# Bu həftə ərzində 700-dən çox fərdi yaşayış evinə qaz verilib



***Bu həftə ərzində 700-dən çox fərdi yaşayış evinə qaz verilib.***

"Azəriqaz" İB-nin İctimaiyyətlə Əlaqələr şöbəsindən "Unikal"a bildirilib ki, İB payız-qış mövsümünə hazırlıqla bağlı qazlaşma işləri aparılan yaşayış məntəqələrində fəaliyyətini bir qədər də sürətləndirib. Belə ki, qazlaşma işləri aparılan yaşayış məntəqələrində qaz açılışları təmin edilir. Bu həftə Tovuz rayonu Çatax kəndində 70 fərdi yaşayış evinə qaz verilib. Bundan başqa Xəzər rayonu Buzovna qəsəbəsi Şüvəlan-Buzovna yolunun sağ tərəfindəki "Albalılıq" və "Təmənis" adlandırılan ərazilərə düşən yeni massivdə 358, Sabunçu rayonu Zabrat qəsəbəsi, M.İbrahimov küçəsində yeni massivdə 137 və Qaradağ rayonunda bir neçə yaşayış massivində bir qrup fərdi yaşayış evinə təbii qaz verilib. Eyni zamanda Göyçay rayonu Ərəbşahverdi kəndində 68, Şıxlar kəndində 71 fərdi yaşayış evi qazla təmin edilib.

Hazırda regionlarda və Bakı şəhərində cari il üzrə qaz çəkilişləri aparılan 43 yaşayış məntəqəsi (5299 fərdi yaşayış evindən ibarət) və 43 yaşayış massivində (8585 fərdi yaşayış evindən ibarət) ümumi işin əksər hissəsi tamamlanmaq üzrədir. Bu günə olan məlumata görə artıq 11 yaşayış məntəqəsində 821 fərdi yaşayış evi, 26 yaşayış massivində 4528 fərdi yaşayış evi təbii qazla təmin edilib. 19 yaşayış məntəqəsi və 9 yaşayış massivində işlər tamamlanıb, qaz açılışına dair son prosedurlar icra edilməkdədir. 13 yaşayış məntəqəsi və 8 yaşayış massivində isə qazlaşdırma işləri davam edir. Hazırda qaz çəkilişi aparılan yerlərə Gəncə şəhərinin Şıxzamanlı və Cavadxan qəsəbələrindəki yeni yaşayış massivlərini, Abşeron rayonunun Qobu və Hökməli qəsəbələrindəki yeni yaşayış massivlərini, Ağdaş rayonunun Şıxlı, Yenikənd, Aşağı Qobuüstü, Qobuüstü və Yuxarı Nemətabad kəndlərini, Şabran rayonunun Ceyranlı və Vələsli kəndlərini, Gədəbəy rayonunun Arıqıran və Əyrivəng kəndlərini, Lerik rayonunun Bibiyani və Siyəreqon kəndlərini, Siyəzən rayonunun Məşrif kəndini göstərmək olar.

# Kapital Bank "BirCode Camp" təcrübə proqramına başladı

***Son illər ölkənin bank sektoru rəqəmsallaşmaya, informasiya texnologiyaları sahəsinin inkişafına böyük önəm verir. Artıq bir sıra bank əməliyyatları onlayn qaydada, bankın filiallarına gəlmədən həyata keçirilir. Təbii ki, müasir tendensiyalardan ölkənin birinci bankı olan Kapital Bank da geridə qalmır.***

Unikal.org xəbər verir ki, bunun üçün də Kapital Bank-da artıq bir neçə ildir ki, IT üzrə müxtəlif təcrübə proqramları keçirilir və gənc mütəxəssislərin yetişdirilməsi üçün çox böyük işlər görülür.

Bir müddətdir ki, Kapital Bank informasiya texnologiya sahəsi ilə maraqlanan gənclər üçün "BirCode Camp" təcrübə proqramına qeydiyyatı açıq elan edib. 738 nəfər müraciət edən arasından 137 nəfərlə görüşlər keçirilib və onlardan yalnız 27 nəfər layihədə iştiraka uyğun görülüb. 2 noyabr 2020-ci il tarixində, İnsan Kapitalı Akademiyasında layihənin açılışı baş tutdu və "BirCode Camp" təcrübə proqramında iştirak etmək üçün seçilən potensiallı gənc İT mütəxəssislər layihənin təqdimatında iştirak edib, layihə haqda ətraflı məlumatlar əldə etdilər.



Təqdimat zamanı Kapital Bank-ın İdarə Heyəti sədrinin müavini, Baş İnformasiya İnzibatçısı Nahid Zeynalov və İnsan Resurslarının İdarə Edilməsi departamentinin direktoru Fərqanə Məmmədova iştirak edirdi. Layihə çərçivəsində iştirakçılar, əməkdaşlarımızın mentorluğu ilə Front-end, Back-end, IOS və Android development sahələri üzrə bilik və təcrübə əldə edəcəklər. Bu müddət ərzində onlar həmçinin, Agile metodologiya ilə yaxından tanış olacaqlar.

"Hazırda maliyyə sektorunda ən fəal işəgötürən olan Kapital Bank son illər ərzində əsasən IT sahəsinin inkişafına, bu sahəyə daha çox gəncin cəlb edilməsinə böyük diqqət ayırır. Biz həm ali məktəblərdən, həm də müxtəlif saytlarda, sosial şəbəkələrdə verdiyimiz elanlar əsasında müraciətləri araşdırıb, ən yaxşılarını təcrübə proqramlarına cəlb edirik. Əminəm ki, "BirCode Camp" layihəsi də gənclərimiz üçün uğurlu və gələcək karyeralarının qurulmasında faydalı olacaq", - deyə, Kapital Bank-ın İnsan Resurslarının İdarə Edilməsi departamentinin direktoru Fərqanə Məmmədova bildirib.

Azərbaycanda ən böyük filial şəbəkəsinə malik olan Kapital Bank, 102 filialı və 18 şöbəsi ilə müştərilərin xidmətindədir. Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.az saytına, 196 Sorğu Mərkəzinə və ya Bankın müxtəlif sosial şəbəkələrdə olan səhifələrinə müraciət edə bilərsiniz.

# Fermerlər üçün xüsusi təyinatlı mikrokredit paketləri istifadəyə verildi



***Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi fermerlər üçün yeni mikrokredit paketləri hazırlayıb. Bu mikrokreditlər aqrotexniki qulluq, gübrə alışı, yem tədarükü və alışı üçün nəzərdə tutulub. Mikrokreditlər 15 min manatadək, 1 il müddətinə və 12 faizlə verilir.***

Unikal.org xəbər verir ki, aqrotexniki qulluq və gübrə alışı üçün nəzərdə tutulan kreditlərin güzəşt müddəti 7 aydır və bu müddətdə fermer yalnız faizləri geri ödəyir. Məhsul yığımı zamanı kreditin əsas məbləğinin yarısı birdəfəlik ödəniş kimi edilir. Növbəti 5 ayda isə qalan məbləğ və faizlər bərabər hissələrə bölünməklə geri qaytarılır.

Heyvandarların yem tədarükü və yem alışı üçün nəzərdə tutulmuş mikrokreditlərin güzəşt müddəti 6 aydır. Güzəşt müddətində yalnız kredit faizlərini ödəyən heyvan sahibi 6 aydan sonra kreditin əsas məbləğinin yarısını geri qaytarır. Növbəti 6 ayda isə qalan məbləğ və faizləri bərabər hissələrlə ödəyir.

Aqrotexniki qulluq və gübrə mikrokreditlərini əldə etmək üçün fermerlərdən şəxsiyyəti təsdiq edən sənəd, EKTİS-də (Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi) qeydiyyat, torpaq sənədi və müvafiq təchizatçı ilə müqavilə tələb olunur. Yem krediti üçün üçün müraciət edən heyvandardan şəxsiyyəti təsdiq edən sənəd, EKTİS-də qeydiyyat və yem təchizatçısı ilə müqavilə istəniləcək.

Yeni mikrokredit məhsullarından hər hansı birini əldə etmək üçün fermerlər AKİA-nın mikrokreditləşmədə ixtisaslaşmış müvəkkil kredit təşkilatlarından birinə (Access Bank, Unibank, Bank of Baku, Yelo Bank, Bank Respublika) müraciət edə bilərlər.

# Bakı-Sumqayıt qatarı bu tarixdə məhdud çərçivədə işləyəcək

***"Azərbaycan Dəmir Yolları" QSC sərnişinlərə müraciət edib.***

Unikal.org-un məlumatına görə, müraciətdə deyilir ki, Dövlət Bayrağı Günü kimi qeyd olunan noyabrın 9-u Azərbaycanda qeyri-iş günü olduğuna görə həmin gün yalnız aşağıda qeyd olunan Bakı-Sumqayıt elektrik qatarları hərəkətdə olacaq.

- Sumqayıtdan saat 07:40-da yola düşən 6606 nömrəli qatar
- Sumqayıtdan saat 09:20-də yola düşən 6614 nömrəli qatar
- Bakıdan saat 16:55-də yola düşən 6611 nömrəli qatar
- Bakıdan saat 17:20-də yola düşən 6613 nömrəli qatar
- Bakıdan saat 18:50-də yola düşən 6621 nömrəli qatar
- Bakıdan saat 19:50-də yola düşən 6625 nömrəli qatar

Nazirlər Kabinetinin qərarına müvafiq olaraq, 7 və 8 noyabr (şənbə və bazar) günləri qatarlar hərəkətdə olmayacaq.

# Astarada balıq torlarını oğurlayanlar saxlanıldı

***Astarada balıqçı vətəgələrinə qənim kəsilən dəstə üzvləri saxlanılıb.***

DİN Mətbuat Xidmətinin Lənkəran regional qrupundan "Unikal"a verilən məlumata görə, Astara rayon sakini B.Əliyev Rayon Polis Şöbəsinə müraciət edərək Qamışlı kəndində yerləşən, ona məxsus vətəgədən gecə saatlarında balıq ovu üçün nəzərdə tutulmuş ümumilikdə 2000 manat dəyəri olan torların oğurlandığını bildirib. Oğurluğu törətməkdə şübhəli bilinən şəxslər müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla onların Astara rayon sakinləri Bəhruz Səmədov, Şəhram Beşirov və Suad Rasimzadə olduqları müəyyən edilib. Onların ətrafında aparılan əməliyyat tədbirləri ilə saxlanılan şəxslərin Qamışlı kənd sakini olan daha bir nəfərin 350 manat dəyərində balıq torlarını oğurladıqları məlum olub. Oğurlanmış balıq torları onlardan aşkar edilərək maddi sübut kimi götürülüb.

Faktla bağlı araşdırma aparılır.

# Mərkəzi Bank 100 milyon manat cəlb edir

***Noyabrın 10-da Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə depozit hərracı keçiriləcək.***

AMB-dən "Unikal"a bildirilib ki, hibrid hərracda 100 milyon manat məbləğində vəsaitin cəlbi nəzərdə tutulur. Məbləğin artırıla bilən hissəsi hərrac məbləğinin maksimum 20 faizidir. Depozit hərracının müddəti 13 gündür. "Bloomberg" ticarət sistemində keçiriləcək hərrac üzrə faiz dərəcələri 6,01-6,49 faiz təşkil edir.

AZƏRBAYCAN RESPUBLİKASI
NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

# 6 noyabr – Azərbaycan Televiziyası və Radiosu Günüdür

***1926-cı il 6 noyabr tarixində Bakı şəhərində radiostansiyanın istismara verilməsi ilə ölkəmizdə ilk dəfə radio proqramı efirdə yayımlandı. Məhz bu gün Azərbaycan Televiziyası və Radiosu Günü olaraq televiziya və radio işçilərinin peşə bayramı kimi qeyd olunur.***

"Unikal" xəbər verir ki, polad bloklardan yığılmış 180 metrlik ilk Televiziya qülləsi Bakı şəhərində 1956-cı ildə qurulub. 1956-cı ilin 14 fevralında ilk dəfə TV vericisi vasitəsilə ağ-qara təsvirdə AzTV1 proqramı efirə çıxıb.

1957-ci ilin 28 iyununda ilk dəfə olaraq səyyar televiziya vasitəsilə respublika stadionundan canlı yayım həyata keçirilib

1961-ci ildə Gəncə, Göyçay və Şuşa şəhərlərində güclü TV stansiyalar, 1962-ci ildə Naxçıvan MR-də kiçik güclü TV stansiya və studiya qurulub

1967-ci ildən isə ağ-qara televiziya yayımından rəngli (SECAM) TV yayıma keçid baş tutub.

1997-ci ildə I Respublika və Araz radio proqramları Bakı Teleqüllə Kompleksindən FM diapazonunda yayımlanıb.

Hazırda respublika ərazisində 100-dən çox radio-televiziya yayım stansiyasında istismar olunan 126 radioverici vasitəsilə 13 ümumrespublika radio proqramı FM diapazonunda yayımlanır.

2012-ci ildə Bakı Teleqüllə Kompleksində IPTV baş stansiyası qurulub və IPTV kontentin provayderlərə ötürülməsinə başlanılıb. Digər televiziya yayım vasitələrindən fərqli olaraq IPTV-də proqram sayına məhdudiyyət yoxdur, yəni müştəriyə yüzlərlə kanalı izləmək imkanı yaradılır.

Həmin ildə "Azərbaycan" və "İctimai" radioları, eləcə də "İctimai" televiziya proqramlarının HD formatlı yayımı həyata keçirilib.

Ölkə ərazisində analoq TV yayımı 20 dekabr 2016-cı il tarixində tam dayandırılıb və rəqəmli TV yayımına keçid tam başa çatdırılıb. Hazırda ölkədə əhali yaşayan ərazilərin 99,7 faizi rəqəmli TV yayımla əhatə olunub.

Qeyd edək ki, rəqəmli yayıma keçidin əsas üstünlüyü televiziya proqramlarının yüksək keyfiyyətlə qəbul edilməsi, strateji əhəmiyyət kəsb edən tezlik resurslarından səmərəli istifadə edilməsi və yerüstü efir vasitəsilə çoxsaylı televiziya proqramlarının qəbuluna imkan yaratmasıdır.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" (Teleradio) İstehsalat Birliyi Fatmayı - Sumqayıt - Xızı - Dağbilici (Şabran) - Yergüc - Quba istiqamətində, 185 km uzunluğunda radio-rele xəttinin rəqəmliyə rekonstruksiyasını 2019-cu ildə başa çatdıraraq istismara verib. Bu, respublika ərazisində dövlət, ictimai, özəl və regional radio-TV proqramlarının region stansiyalarına çatdırılması üçün istismar olunan analoq radio-rele xətt şəbəkəsinin rəqəmliyə rekonstruksiyası işləri çərçivəsində baş tutub.

2016-cı ildə fors-major hallarında və Bakı Teleqüllə Kompleksində tələb olunan profilaktika işləri zamanı Bakı şəhəri və Abşeron yarımadasında fasiləsiz radio-televiziya yayımının təmin olunması məqsədilə radiostansiyada əsaslı təmir-bərpa və rekonstruksiya işləri aparılmaqla, 1 nömrəli radiostansiyanın bazasında Alternativ radio-televiziya yayım stansiyası təşkil olunub.

"Teleradio" İB tərəfindən 2019-cu ilin avqust ayından ölkədə ilk dəfə olaraq, Bakı şəhəri və Abşeron yarımadası ərazisində DAB+ standartı ilə rəqəmli radionun test yayımına başlanılıb. Hazırda Bakı şəhəri və Abşeron yarımadasının istənilən nöqtəsində 218,6 MHs (11B) tezliyində bir paketdə 12 radio proqramın rəqəmli qəbulu mümkündür.

# Professordan pandemiya ilə bağlı proqnoz: Düşünürdük ki, insandan-insana keçdikcə...

***Spirtli içki qəbul etmək virusun qarşısını almır, əksinə, tez-tez alkoqol qəbulu qaraciyəri sıradan çıxara, yaxud da digər orqanlara zərər vura bilər.***

"Unikal" bildirir ki, bu sözləri publika.az-a müsahibəsində həkim-infeksionist Abidin Rəhimov deyib.

Professorla müsahibəni təqdim edirik:

- Abidin doktor, dünyada və ölkəmizdə koronavirus infeksiyasının artmasının səbəblərini nə ilə izah etmək olar?

- Virusun yoluxma sürəti insanların davranış qaydalarından asılıdır. Çoxları verilən tövsiyələri düzgün yerinə yetirmir. İctimai iaşə obyektlərində, mağazalarda dəfələrlə həm işçilərin, həm də insanların səhlənkarlığının şahidi oluram. Alıcılar mağazalara maskasız girib-çıxırlar, sosial məsafə saxlamırlar. Cavan insanların etinasız yanaşmasını xüsusilə qeyd etməliyəm. Başa düşmürlər ki, onların immuniteti yüksəkdir, virusa yoluxsalar da bir çox hallarda xəstəliyi yüngül keçirirlər. Amma belə asimptomatik xəstələr yaşlı nəsli yoluxdura bilərlər.



Virusun yoluxuculuq qabiliyyətinin sürətli olması onun xarakterik xüsusiyyətidir, qarşısını hələ ala bilməmişik, effektiv peyvənd istehsal olunmayıb. Həm də mövsümlə bağlı yenidən canlanma başlayıb. Peyvənd tapıldıqdan sonra onun qarşısını almaq mümkün olacaq.

- Xəstəliyi yüngül keçirməyin hər hansı yolu varmı?

- İmmunitetin yüksək olması, infeksiyanın vaxtında aşkarlanması və müalicənin tez başlaması lazımdır. Taxdığımız maskaların hamısı bizi 100 faiz qorumur. Başa düşürəm ki, maskanı 2 saatdan bir dəyişmək çətindir. Lakin bacardığımız qədər diqqətli olmalıyıq.

Güclü immunitet virusun orqanizmə təsirini azaldır. Xəstəliyi yüngül keçirmək virusun orqanizmə düşdüyü miqdardan da asılıdır. Maska, əl gigiyenası və sosial məsafə kimi qaydalar virusun qarşısını almaqda ən təsirli üsullardır. Nəzərə almalıyıq ki, yaşlı insanların immuniteti daha zəifdir.

Televiziya və bütün KİV-lər kifayət qədər maarifləndirici məlumatlar paylaşır, xəbərdarlıqlar edir. Buna baxmayaraq, gənclərimiz bilə-bilə bu qaydaları pozmağa davam edir. Virus nə qədər savadlı həkimlərimizin həyatına son qoysa da, təəssüf ki, hələ də şübhə ilə yanaşanlar var...

- İmmunitetin gücləndirilməsində hansı vitaminlər xüsusilə vacibdir?

- Tərkibində sink, beta qlükan, selen, D və C vitamini olan vitamin qruplarından istifadə etmək lazımdır. Ümumiyyətlə, yeməyimizə fikir vermək lazımdır, meyvə və göy-göyərti çox yeməliyik ki, immuniteti qaldıra bilək. Yemək və yuxu rejiminə əməl olunmasının da çox xeyri var.

- Professor, nə zamana kimi maska taxmağa davam edəcəyik?

- Peyvənd tapılmayana və tətbiq olunmayana qədər karantin qaydalarına əməl etməyə davam edəcəyik. Elə düşünürdük ki, insandan-insana keçdikcə virus zəifləyəcək. Virusun yaranmasından aylar ötməsinə baxmayaraq, zəiflədiyini demək olmaz. Bəzi xəstələr var ki, qızdırması olsa da, koronavirus tapılmır. Digər viruslar da baş qaldırıb. Amma qrip viruslarına yoluxan insanda immunitet aşağı düşdüyü üçün koronavirus infeksiyasına yoluxmaq ehtimalı daha da çoxalır. Özümüzü qorumalı və yeməyimizə fikir verməliyik. Spirtli içki qəbul etmək virusun qarşısını almır, əksinə, tez-tez alkoqol qəbulu qaraciyəri sıradan çıxara, yaxud da digər orqanlara zərər vura bilər.

- Xəstəliyin müalicə protokolları haqqında nə deyə bilərsiniz?

- Xəstələrin vəziyyətindən asılı olaraq müalicədə istifadə edilən dərmanlar da müxtəlifdir. Şəkərli xəstələrin, ürək-damar xəstələrinin və xroniki xəstəliyi olan insanların müalicəsi daha ağır keçir. Odur ki, risk qrupuna daxil olan insanlar maksimum ehtiyatlı olmalıdır. Özümüz özümüzün həkimi olmalıyıq, ağıllı rəftar etməliyik ki, həkimlərə də kömək edək. Yalnız bununla virusa qalib gələ bilərik.

# Tatarıstanın Xalq şairindən Azərbaycana önəmli dəstək

***Qardaş tatar xalqının böyük ziyalılarından olan, Tatarıstanın Xalq şairi, Dövlət mükafatı laureatı, uzun illər Tatarıstan Dövlət Şurasının deputatı, Komitə sədri və Rəyasət heyətinin üzvü olmuş Razil Vəliyev Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayan yeni xilaskarlıq hərəkatı ilə bağlı ürək sözlərini azərbaycanlı dostları ilə bölüşüb.***

"Unikal"görkəmli Xalq şairinin ürək sözlərini oxucularla paylaşır:

"Son aylarda Qarabağdakı qanlı hadisələri narahatlıqla izləyirik. Azərbaycanlılar bizim qardaşlarımızdı, bizi damarlarımızdan axan qan birləşdirir. Biz Sizin uğurlarınıza və qələbələrinizə sevinirik. Siz kədərlənəndə Sizinlə birgə qayğılanırıq.

Azərbaycan bu gün özünün suverenliyi, Vətənin bölünməz torpaqları uğrunda ədalətli mübarizə aparır. Ədalət qalib gəlməlidir!



Biz bütöv Vətən üçün həlak olan qəhrəmanların ruhu qarşısında baş əyir və onların yaxınlarına, dostlarına başsağlığı veririk".

# “Son nəfəsimə qədər onu unutmayacağam...” – ƏSİR DÜŞƏRGƏSİ – SON BÖLÜM

“Zəngilan rayonunun Mincivan qəsəbə sakini, Qarabağ müharibəsində girov götürülən Abbas Şahməmmədovla söhbətimiz yazıya çevriləndə artıq özü həyatda olmayacaqdı...”




İki ay öncə yazmağa başladığım hekayətin bütün bölümlərinə bu kədərli cümlə ilə başlayanda ağlıma da gəlməzdi ki, sonuncu bölümdə bu sözlərə qürurla aşağıdakıları da əlavə edəcəyəm:

Abbas Şahməmmədov həyatda yoxdur, ancaq müzəffər Azərbaycan ordusu Zəngilan şəhərini də, Mincivan qəsəbəsini də erməni işğalından azad edib!

Burada kədərlə qürur bir cümləyə sığdığı kimi, biz də bu günlərdə bu iki duyğunu birlikdə yaşayırıq: itkilərimizə üzülür, bu günü görmək nəsibi olmayan insanlarımız üçün kədərlənir, torpaqlarımızın işğaldan azad edildiyi üçün sevinirik. Əsgərimiz təkcə ölkənin ərazi bütövlüyünü deyil, həm də bizim düz 28 ildir sınan qürurumuzu bərpa edir...

Müəyyən səbəblərdən yazını yayıma gec hazır etmişdim, vicdanım qarşısında əzab çəkirdim ki, Abbas kişi öz hekayəsini oxuya bilmədi... Ancaq indi həm də doğma torpağının - Mincivanın azad edilməsindən xəbərsiz köçdü dünyadan... Öncəki 5 bölümdə ölüm bədəninin heç azalmayan ağrılarını ovudub düşüncəsi ilə təskinlik tapırdımsa, indi həm də əminəm, nəhayət ki, onun ruhu da şaddır... Sanki doğma yurdunun əsirlikdən azad edilməsi üçün o da öz əsirlik hekayəsini danışıb başa çatdırmalı imiş...

Son bölümü hazırlayarkən onun səs yazısına yenə qulaq asdım... Bu dəfə fərqinə vardım ki, o səsdə ağrı ilə yanaşı bir həsrət də var... Yaşasaydı, bu gün səsindəki o həsrət də sona çatacaqdı...

Lent.az ailəsi adından Abbas Şahməmmədova rəhmət diləyir, ailəsinə səbir arzulayırıq... və Mincivan qəsəbəsinin işğaldan azad edilməsi münasibəti ilə gözləri aydın deyirik...

70 illik ömrün son 27 ilini gülüşü dodaqlarını tərk edən Abbas kişi ancaq BQXC nümayəndəsi Pyer Reyçeli xatırlayanda üzünə təbəssüm qonur, gözlərinə işıq gəlirdi. “Pyerlə bağlı bütün xatirələr gözümün qabağındadır” deyirdi...

- Pyeri görəndə ürəklənirdik, sevinirdik... İçimizdə çoxdan itirdiyimiz ümid doğulurdu ki, yəqin Pyer bir gün bizi qoltuğuna vurub, buradan aparacaq...

***- Və bir gün həqiqətən də apardı...***

- Bəli, bizi Şuşada BQXC-nın maşınına mindirdilər. Mən Pyerin maşınında idim... Elə sevinirdim ki... Hələ ona dedim ki, “sən allah qoy maşını mən sürüm!” Dedi “yox, ermənilər görür, daha yanımdasan, gedirik, gedib sürəcəksən!” Xeyli yol gedəndən sonra acmışdıq, ancaq yeməyə oturmaq olmazdı. Çünki bizi havadan helikopter nəzarəti ilə aparırdılar. Pyer bir yer tapdı, dedi əlüstü yeyin, oturun maşına... Aeroportda bizi yoxlayıb, cibimizdə nə var aldılar...

***- Cibinizdə nə var idi?***

- Ailədən gələn məktublar... Ancaq Pyer başa saldı ki, bu məktublar bizdə qalmalıdır. Sonra tapşırdılar ki, cərgəni pozmadan sıra ilə gedin oturun təyyarəyə... Mindik... Bakıda da təyyarədən elə düşdük ki, heç kimi görmədik. Yenə sıra ilə maşına mindirib, birbaşa Qobustana apardılar. 1996-cı ilin Qələbə Günündə... Mayın 9-da Şuşa həbsxanasından Qobustan həbsxanasına gətirildik. Dedilər guya qayda belədir... Nə bilim, doğrudan belə qayda var?

***- Bəli, əsirlikdən BQXC xətti ilə azad edilən hər kəsi əvvəlcə Qobustan həbsxanasına gətiriblər. Bir neçə gün onlarla söhbət aparılıb, nələr yaşadıqları öyrənilib, əsirlikdə qalanlar barədə əlavə məlumat toplanılıb və s. Sizi Qobustan həbsxanasında nə qədər saxladılar?***

- Çox qaldım, 13 iyuna qədər dindirdilər...

***- Proses uzağı bir-iki həftə sürür, sizdə niyə bu qədər uzun çəkdi? Anlaşılmayan nə var idi?***

- Bizi bir-bir çağırıb, hər şeyi soruşurdular. Biz də olduğu kimi danışırdıq. Orada İbrahim müəllim var idi, axırda soruşdu ki, “Abbas kişi, sən orda neyləmisən, onu mənə de, səhər səni buraxacam, get evə, balalarının yanına!” Danışdım, dedi ki, “yox, düz deyil!”

***- Nəyi gizlədirdiniz?***

- Qızım, allah haqqı, mən bilmirdim ki, İbrahim müəllim hər şeyi bilir. Mən orada bir nəfərlə savaşmışdım, ona görə də sonradan peşman olmuşdum, yadımdan da çıxmışdı. Birdən xatırladım, danışdım.

Deməli, işləməkdən qayıdırdıq... Axı erməni həyətlərində işləyirdik... Gördüm çimmək üçün imkan var, təklif etdim ki, çimək, razılaşmadı. Dedim “mənim yanımda yatırsan, hər tərəfi iy basır, çimək, bit azalsın, təmiz olaq!” Onda mübahisəmiz düşdü, süpürləşdik. Mən onu vurdum, bax, onu danırdım...

***- Bu hadisəni danışandan sonra buraxdılar?***

- Hə, qızım. Sən demə, bilirmiş... Danışandan sonra dedi ki, “get, hazırlaş, bu gün çıxacaqsan!” Mən də gedib uşaqlarla görüşdüm, çıxdım...

***- Əminə xanım, bəs siz onun azad olunması ilə bağlı xəbəri necə aldınız?***

- Hər gün işdən çıxanda BQXC-ya gedirdim, orada Rafiq müəllim var idi, deyirdi “sən buraya gəlmə!” Deyirdim “necə gəlməyim? Mən rayon adamı, 3 yerdə işləyirəm, 2 balam başsız qalıb...” Deyirdi ki, “yox, səni görəndə mən xəcalətimdən yer axtarıram girməyə. Həm işləyirsən, həm də gəlib burada dayanırsan...” Yalvarırdım ki, “Abbasın adını dəyişilənlərin siyahısına sal,” deyirdi, “vicdan haqqı, çalışıram! Çünki hər dəfə səni görəndə ürəyim pis olur...”

Yasamalda yataqxanada qalırdıq, televizorumuz yox idi. İşdən gəldim, dedilər, əsirləri gətiriblər. Qızımgil Badamdarda məskunlaşmışdılar, piyada qaçdım onlara ki, axşam saat 6 xəbərinə baxım... Nəfəsim ağzımdan çıxır, hamımız həyəcanla oturmuşuq, uzaqdan göstərdilər ki, 65 nəfər təyyarədən düşüb, getdi... Nə ad çəkən oldu, nə üzləri göstərdilər. Qızımın qaynı maşın tutdu, getdik Gəncliyə, BQXC-nın ofisinə... Orda dedilər siyahıda Abbas Şahməmmədovun da adı var... Qızım, bu xəbəri eşidəndə... Abbasın dəyişildiyini biləndə... pilləkəndən necə üzü aşağı yıxıldım... Qızım da hamilə idi... Tez özümüzü toplayıb, BQXC-dən də birbaşa Qobustan həbsxanasına qaçdıq... Getdik gördük millət tökülüb bura...

***- 65 əsir gəlib... Hamısının qohumu, yaxını...***

- Köhnə sarı avtobuslar var idi, həbsxananın ətrafı onunla dolu idi, iynə atsan, yerə düşməzdi...

***- Görüş verirdilər?***

- Yox, bizi qovurdular ki, çıxın, gedin, olmaz! Qızım dedi, “lap silahla qovun, mən atamı görməmiş getməyəcəyəm! Nə şərait olur-olsun, lap balamı da itirim, amma atamı görməliyəm!” Elə də oldu, qızım həmin uşağını itirdi...

Hamı çəkildi, getdi, qaldıq biz. Yalvardıq, yapışdıq... Axırda dedilər ki, “baxın, bu kişi neçə ildir əsirlik çəkib, hamilə qızı onu elə görüb, ürəyi dözməyəcək... Halı pis olacaq...” Qızım dedi, “yox, özümü saxlayacam!” Bir şərtlə razılaşdılar - “Sizi içəri buraxa bilmərik, qapının qabağına gəlin, Abbası da içəridən göstərəcəyik...”

Razılaşdıq... Neyləyək? Sonuncu dəfə 3 il əvvəl Arazın qırağında gördüyümüz idi...

Mən, qızım, yeznəm, iki oğlum, qohum-əqrəba... Sıra ilə dayanmışdıq. Abbası çıxartdılar, aralıdan keçdi... Bu illərdə nə hala düşmüşdümsə heç məni tanımadı... Kiçik oğlum idmanla məşğul olurdu, bədənli idi, onu da tanımadı... Qızımla böyük oğlumu tanımışdı... Qızım əllərini qapının barmaqlığından irəli uzadıb atası ilə qucaqlaşdı...

Sonra evdə bizə dedi ki, “deyəsən atamın ayaq barmaqlarını kəsiblər... Qapının altından ayaqlarımla tapdadım, boşluq var idi...” Sən demə ayaqqabısı ayağına böyük imiş...

***- Üz-üzə, normal görüşünüz nə vaxt oldu?***

- Elə həbsxanada olanda. Sonradan İbrahim müəllim icazə verdi, hər gün yemək bişirib aparırdıq. Ayın 13-də Abbas evə gələn günü oğlanlarımın ikisini də apardım hərbi hissəyə ki, “indi buyurun, əsgər aparın!” O vaxta qədər qoymurdum ki, əvvəlcə ataları gəlsin, sonra! Kiçik oğlumun yaşı düşmürdü, böyük oğlumu apardılar, o biri il də kiçik oğlumu... Mən isə uzun müddət Abbasın müalicəsi ilə məşğul oldum.

Ermənilər dəmirlə döyəndə gözünə girmişdi. Təkcə gözlərinin əməliyyatına 300 dollar verdim. Bədəni yanıq-yanıq idi, bağırsağını 3 dəfə əməliyyat elətdirmişəm. Bağırsağı nə isə düz gəlmirdi... Zərbələrdən qabırğaları sınmış, beyni kütləşmişdi... Başıma çox iş gəldi, qızım... Günün günorta çağı yataqxanada V mərtəbənin eyvanından özünü aşağı atırdı ki, “erməni gəlir”. Güclə tutub saxlayırdıq... Yataqxana səs-küylü yer, Abbasın isə başı səs götürmürdü, həkim dedi yaşamasını istəyirsənsə, sakit yerə apar. Biz də buranı tapdıq... Bura idarə idi, dəmirlər, borular yığırdılar. Yaşayış yeri deyil deyə düşündük ki, sakitlik olar. Birtəhər düzüb-qoşduq, yığışdıq...

***- Nə vaxt işləməyə başladı?***

- İyunun 13-də evə buraxdılar, iyulun 1-dən işə başladı.

***- Harada?***

- Qarajda. İndi isə taksi sürür...

***- UAZ necə oldu?***

- O maşınla bağlı başıma müsibət gəldi... (Gülür)

***- Bəs onu harada saxladınız?***

- Gizlətdim.

***- Harada?***

- (Gülür) Çadır gətirmişdim, üstünə çəkib, dedim “maşın İranda qalıb”. Hər soruşanda dedim “maşın yoxdur! Yiyəsi nə vaxt əsirlikdən gələcək, onda da sürəcək!” Abbas gələndən sonra gizlətdiyim yerdən çıxardıb, çadırı üstündən açdım. Yenə də özünə qismət oldu! İndi də qapının qabağındadır.

***- Gələndə gördüyümüz maşın?***

- Bəli, həmin maşındır... Mincivandan gələn maşın... Artıq çürüyüb, istifadəyə yararsızdır, ancaq atmırıq... Atmarıq! Onun xatirəsi bizim ailə üçün çox əzizdir. Onunla evimizdən çıxmışıq, təkərlərində Mincivanın tozu qalıb...

***- Abbas dayı, üstündən illər keçəndən sonra əsir düşərgəsi ilə bağlı yadınıza əsasən nələr düşür?***

- Döyülmək... Başqa heç nə... Necə döyürdülər... Aldığım məftil və dəyənək yaraları ömrümün sonuna qədər mənimlə olacaq... Məftil dəydiyi yeri daha çox yandırırdı, ona görə də əsasən məftillə döyürdülər... Döyülməyəndə də qorxu içində idik... Gözümüzü qorxutmaq üçün hər şey edirdilər. Məsələn, ətrafa tikanlı məftillər çəkmişdilər, onun üstünə də insan başı, burnu, qulağı və s. asmışdılar... Gecəmiz də, gündüzümüz də hər dəqiqəmiz həyəcan, qorxu, ölüm idi... Bir də tez-tez evdən gələn məktubları oxuyanda ağlamağımızı xatırlayıram...

***- O məktublar ki, bir qayda olaraq bir-birinin təkrarı idi... “Yaxşıyıq, nigaran qalma, səni dəyişməyə çalışırıq...”***

- Bəli, qızım... Siz deyəsən artıq o məktublarda nə yazıldığını bir əsir qədər dəqiq bilirsiniz... Həqiqətən ümumi sözlər idi, amma o qədər doğma idi ki... İnsan olduğunu unutduğun bir vaxtda bir parça kağız gətirirlər ki, “evdən məktub var!” Hansı ev? Rayon işğal olunub, heç bilmirsən ailən, balaların harada, necə yaşayır? Nə yeyib, nə içir? Özün min bir işgəncə gördüyün halda “yaxşıyam, nigaran qalmayın” yazırsansa, deməli sənə gələn məktublarda da yazılan “yaxşıyam, nigaran qalma”lar həqiqət deyil... Və bütün bunlara baxmayaraq o məktubları gözləyirsən... alanda sevinirsən... oxuyanda göz yaşlarını saxlaya bilmirsən...

***- Məktublar necə paylanırdı? Ümumi verilirdi, yoxsa?***

- Pyer tək-tək adımızı çağırıb, məktubumuzu verirdi... Biz də məktubu alan kimi bir küncə çəkilib, oxuyurduq... Onda fərqinə varmırdıq, amma indi düşünürəm ki, demək olar hamımıza sizin dediyiniz kimi, eyni məktublar gəlirdi. Amma yenə də biz onları təklikdə oxuyurduq... Əsirlikdə ən məhrəm hiss evdən gələn məktubları oxumaq idi... Sən ancaq o məktubları oxuyanda həyatda olduğunu, kiməsə lazım olduğunu hiss edirdin... O məktublar sənə bütün işgəncələrə dözüb yaşamaq gücü verirdi... Düşünürdün ki, hardasa uzaqda məni düşünən, xatırlayan və mənim üçün dua edən kimsə var...

Sağollaşıb ayrılanda telefonumu alıb, yenidən Pyer Reyçelin şəklinə baxır. Baxışlardakı sevgi ilə minnətdarlıq duyğusunun nə qədər intəhasız olduğunu görüb, düşünürəm: Görəsən Pyer bilir ki, hardasa uzaqda onu düşünən, xatırlayan və onun üçün dua edən nə qədər insan var...?

Taleləri nə qədər bənzər olsa da, hər müsahib yaddaşıma fərqli cür həkk olunur. Abbas Şahməmmədov hafizəmdəki fotosunda sonsuz minnətdarlıq hissi ilə xilaskarı Pyer Reyçelin fotosuna baxır...

Ondan ayrılanda ürəyimdən keçirdi ki, kaş bir də heç vaxt ağrımasın... Buna görə də dünyadan köçməsi ilə bağlı xəbəri alanda yaxınlarından necə, hansı şəraitdə vəfat etdiyini soruşdum. Həyatı nə qədər ağır keçsə də, son an çox rahat olub dedilər... Taksi sürərkən özünü yaxşı hiss etməyib, avtomobili yolun kənarına çəkib, saxlayıb... Başını sükanın üstünə qoyub...

Əminəm ki, son nəfəsində də Pyeri yad edib, gözləri sonuncu dəfə minnətdarlıqla onu xatırlayıb... Axı özü demişdi ki, “son nəfəsimə qədər də onun üçün duaçı olacam!”

***Vüsalə Məmmədova***

# Erməni məkri, Topçubaşovun yalanı, "Qarabağ" deyən ziyalımızın acı sonu... – Şəhid ziyalı

***"Şəhid" deyəndə birbaşa güllə qabağında şəhid olanlardan getməyəcək söhbət. Onlar haqqında da layihələrimiz var, amma bu layihə el-oba, vətən yolunda elmi, sənəti, düşüncəsi ilə mübarizə aparıb, bu yolda fəda olanlar haqqındadır.***

1960-cı ildə erməni millətçi partiyası Qarabağ və Naxçıvan ərazilərinə iddia irəli sürüb. Çox çəkmədən iddia faktlarla, dəlillərlə yerindəcə susdurulub. Düzdür, onlar geri çəkilib, fəaliyyətlərini münasib zaman yetişincəyə qədər gizlin yolla, altdan-altdan davam etdiriblər, amma anlayıblar ki, Azərbaycanda milli düşüncəli, millətini sevən sonuncu adam məhv olmayıncaya qədər istəklərini həyata keçirə bilməyəcəklər...

Həmin prosesdə əsaslandırılmış tarixi faktlarla Mikoyanın qarşısına çıxan, zəka döyüşü aparan azərbaycanlı Lent.az -ın "Şəhid ziyalı" layihəsinin qəhrəmanıdır. 1950-60-cı illərdə Azərbaycanın siyasi və dövlət xadimi, millətin taleyini vəzifədən çox yüksəkdə tutan Nazım Hacıyev. 38 yaşında müəmmalı surətdə dünyasını dəyişən dəyərli ziyalı.

Nazim Hacıyev 1924-cü il iyunun 3-də Nuxanın Sarıpapaq məhəlləsində dünyaya gəlib. Dədəbabadan şəkili deyildi, əsilləri ora İrəvandan köçmüşdülər. İrəvan xanlığının nəslindəndir. Ana tərəfdən ulu babası Ağahüseyn xan İrəvanski -İsmayılov general-qubernator idi. Babası Kərim bəy İsmayılov isə Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıda ilk qızlar məktəbini yaradanlardan biridir.

Yeniyetmə yaşlarında Nazim ailəsinə maddi kömək üçün "Nuxa" qəzetində müxbir kimi əmək fəaliyyətinə başlayır. Kiçik məqalələr yazsa da 30-cu illərdə Hacıyev imzasını bütün Şəki tanıyırdı. Orta məktəbi bitirəndən sonra Nuxada peşə məktəbinə daxil olur. Sonradan təhsilini Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində davam etdirsə də, müharibənin başlanması onu yarımçıq qoyur.

1941-ci ilin qışında Nuxaya qayıdan Nazim yenidən həm qəzetdə işləyir, həm də məktəbdə dərs deyirdi. Baş Küngüt kəndinin məktəbində dərs hissə müdiri, maarif şöbəsində metodist, "Nuxa fəhləsi" qəzetində məsul katib işləyir.

Ordu sıralarına çağırılanda hərbi komissarlığın diqqətini Nazimin belə gənc yaşına xas olmayan intellekti, xarici dil bacarığı cəlb edir. Ona kəşfiyyat məktəbində təhsil alması üçün müsbət rəy verilir. Təhsilini başa vurur, kəşfiyyatçı kimi Rusiyada hazırlıq keçəndən sonra müharibənin sonlarında - 1944-cü ildə NKVD sıralarında işə başlayır.

1947-ci ildə isə gözlənilmədən onu NKVD komsomolunun katibi təyin edirlər. Təbii ki, o vaxt bunun niyə olduğunu heç kim bilə bilməzdi. Nazim Hacıyevin öz qeydlərindən bəlli olur ki, mülayim xarakteri, səmimiyyəti NKVD sıralarında ona mane olub. Müharibə gedən ölkədə agentin səhvi isə ölkəyə baha başa gələ bilər. Ona görə də o vaxtkı Xalq Daxili İşlər Komissarı Teymur Yaqubovun köməkliyi ilə Nazim Hacıyev NKVD komsomolunun katibi təyin edilir, yəni istiqamətini dəyişir. Sonra Bakı şəhər Komsomol Komitəsinin katibi seçilir.

1950-ci ildə Azərbaycan KP Bakı Komitəsi Təbliğat şöbəsinin təlimatçısı təyin edilən Nazim Hacıyev sonradan Azərbaycan Tibb İnstitutunun Partiya komitəsinin katibi təyin edilir.

Nazim Hacıyev 1951-ci ildə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının XIX qurultayında LKGİ MK-nın katibi, 1952-ci ildə isə Azərbaycan LKGİ MK-nın birinci katibi seçilir. Bu ardıcıllıqla savadı, qabiliyyəti onu yüksələn xətlə aparır.

Ümumittifaq Komsomolu Mərkəzi Komitəsinin büro üzvü, Azərbaycan KP MK Elm və məktəb komitəsinin müdiri və nəhayət, Azərbaycan KPMK-nin katibi.

Səlahiyyəti olduğu müddətdə böyük cəsarətlə türkçülüq və azərbaycançılıq ideyalarını daxildə, həm də Sovet imperiyasının əsarətində olan bir ölkənin daxilində yaya bilib.

Milli zəmində düşünüb gördüyü işləri ona kimsə diktə etmirdi, genetika öz sözünün deyirdi. Milli düşüncəni boğmaq, tabe etdirmək olmur, yalnız onu daşıyan canı həyatdan məhrum etməklə qarşısını almaq olar. O da birində, ikisində, üçündə... bütöv millətdə yox. Bütöv millətin genetikası isə ayrı-ayrı fərdlərin genetik kodu ilə formalaşır. Nazim Hacıyevin genetikası Azərbaycan milli düşüncəsini formalaşdıran genlərdəndir. Dayısı Rəşid bəy İsmayılov Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurasında çalışıb.

Orta Asiyaya deportasiya olunmuş Ahıska türklərinin Azərbaycan SSR-ə köçürülməsinin əsas təşəbbüskarı, təşkilatçısı İmam Mustafayevlə Nazim Hacıyev olub. SSRİ-nin rəhbəri Xruşşovun tapşırığı ilə o, Özbəkistana göndərilmişdi ki, şərq psixologiyasını yaxşı bildiyindən vəziyyəti yerində araşdırsın. Araşdırıb və... Ahıska türklərini Azərbaycana yerləşdirməklə onların öz vətənlərinə mərhələlərlə qaytarılmasının mümkünlüyünü deyib.

Niyyət baş tutub, onları Saatlı və Sabirabadda yerləşdirirlər. Amma SSRİ rəhbərliyində oturmuş səlahiyyətlilərin bəziləri bunun əleyhinə idilər. Xüsusən Anastas Mikoyan. Nazim Hacıyevin simasında bir azərbaycanlının millətlərarası problemi həll etməsi, həm də burda türk faktorunun olması onu narahat edirdi.

Milli məsələlərdə fəal olan, öz sözü, prinsipləri, düşüncəsi və onları həyata keçirmək bacarığı, nüfuzu olan bütün azərbaycanlılar kimi, Nazim Hacıyev də erməni diasporunun qara siyahısına düşmüşdü.

Azərbaycan mədəniyyətində də böyük rolu var Nazim Hacıyevin. O dövrün bütün mədəniyyət tədbirlərinin altında onun imzası vardı. Ən yaxın dostları mədəniyyət və elm adamları - Niyazi, Fikrət Əmirov, Qara Qarayev, İmran Qasımov, Şəmsi Bədəlbəyli, Mirəli Qaşqay idi.

Nazim Hacıyev gənclər, beynəlxalq, mədəniyyət, təhsil, beynəlxalq siyasət, dövlət idarəçiliyi mövzularında 50-dən artıq kitab və məqalələrin müəllifidir.



Bakıda 1-ci SSRİ Gənclər festivalını Nazim Hacıyev təşkil etmişdi. Sonradan böyüdülüb Opera Teatrı olan balet studiyasının tikilməsi onun təşəbbüsü ilə həyata keçirilib.

Tofiq Əhmədovun rəhbərliyi ilə Estrada orkestrini də yaradan Nazim Hacıyevdir. Müəllimlər qurultayı, Aşıqlar qurultayı onun layihələridir.

Rəsmi tədbirlərdən birində o vaxt Nazim Hacıyev "Cənub azərbaycanıları" ifadəsini işlətmişdi, onların öz hüquqları və azadlıqları üçün mübarizə apardıqlarına, azərbaycanlı olduqlarına görə qətlə yetirilməsindən danışmışdı. Demişdi ki, əgər istilaya məruz qalmasaydılar, bu taleyi də yaşamazdılar.

Bir neçə gün sonra Nazim Hacıyevin çıxışı o tay Azərbaycanda əks-səda verib. Təbii ki, bu əkssəda SSRİ rəhbərliyində də səs salmışdı.

1960-cı ilin oktyabrında Amerikada "Mübarizə" adlı qəzet çıxır. Erməni millətçi partiyasının rəsmi orqanı idi bu qəzet. Qəzetin baş məqaləsində yazılır: "Biz erməni xalqının fiziki xilasının və Ermənistan dövlətçiliyinin bərpasının 40-cı ildönümü ərəfəsindəyik. Sovet İttifaqının üzvü olan respublikalar yubiley mərasimində alovlu salamlar ifadə edən nümayəndə heyətlərilə iştirak edəcəklər. Və onlar bizə xatirə hədiyyələr təqdim edəcəklər. Lakin bütün real və hiss edilən hədiyyələr içində ən əziz və səmimi hədiyyəni qardaş Azərbaycan təqdim edə bilər. Bu böyük hədiyyə Erməni Sovet dövlətinin 40 illiyilə əlaqədar erməni Naxçıvan və Qarabağının Ermənistana verilməsi olacaq".

Bu məqalənin yer aldığı qəzet dekabrda artıq Azərbaycan SSR Mərkəzi komitəsində idi.

Onu da deyim ki, bu hadisədən bir neçə gün əvvəl Ermənistan Naxçıvanı "geri istəmək" təklifi ilə çıxış edəndə Azərbaycan Dövlət Universitetinin baş müəllimi Abbas Zamanov bu həyasızlığa qarşı faktlarla və dəlillərlə ciddi bir çıxış etmişdi.

SSRİ-nin tarixində millətlərarası münasibətlərdə hələ bu cür açıq söz-söhbət olmamışdı. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi ermənilərin bu həyasızlığına SSRİ hakimiyyətinin reaksiyasını anlaya bilmirdi. Belə bir vaxtda Azərbaycan hakimiyyəti qətiyyətli və son addım atmalı idi. Bu məsələ ya birdəfəlik həll olunmalıdır, ya da erməni məkrliləri pusquya yatıb, münasib vaxt olan kimi yenidən eyni təkliflə qalxacaq, nəsillər bu problemin altında qalıb çözüm tapa bilməyəcək.

Azərbaycanın birinci katibi Vəli Axundov məsələnin həllini Nazim Hacıyevə tapşırır - milli məsələdə onunla fikirləri üst-üstə düşürdü. Nazim Hacıyevin tarixçi alim və mütəxəssislərdən, dövlət rəsmilərindən ibarət yaratdığı komissiya işə başlayır. Tarix İnstitutunun rəhbəri olmuş alim Əlövsət Quliyev də işə cəlb edilir. Birlikdə tərtib edilən yekun sənəd Mərkəzi Komitəyə göndərilir. SSRİ rəhbəriyi bu sənəd əsasında qərar verir ki, mövcud sərhədlərin dəyişdirilməsi SSRİ-nin dağılmasına gətirib çıxara bilər, bu hal yolverilməzdir.

Bu qərarın verilməsində Nazim Hacıyevin rolu danılmaz idi. O, Moskvada təbliğat-təşviqat üzrə rəhbər İliçov və mədəniyyət naziri Kurtsova ilə görüşlərində onları öz həqiqətimizə inandırmağa nail olmuşdu.

Moskvada keçirilən yığıncaqda Mikoyan Nazim Hacıyevin nüfuzunun və dəlillərinin oynadığı rolu görüb, qeyzlənir. Ona görə də Hacıyevi "millətçilikdə", xalqlararası nifaq salmaqda günahlandırmağa başlayır. "Səni kim daşıdığın vəzifəyə tövsiyə edib?" - deyə Nazim Hacıyevi ittiham edən Mikoyanın cavabını Mərkəzi Komitənin katibi Xruşşov verib. "Onun təyinatı şəxsən mənim məsləhətimdir" - deyə Xruşşov Mikoyanı erməni burjua-millətçi partiyasının maraqlarına xidmət etməkdə və Lenin ideyalarına zidd davranmaqda ittiham edib.

Bu faktları o dövrdə Azərbaycan Nazirlər Sovetində məsul vəzifə daşıyan Cavid Mehdiyev sonralar xatirələrində yazıb. Onun yazdıqlarına görə, Xruşşov ermənilərin iddialarını əks etdirən qondarma sənədi hamının qarşısında elə ordaca cırıb tullayıb və deyib ki, bu məsələ bir daha müzakirə olunmayacaq.

Həmin iclasdan qayıdandan az müddət sonra Nazim Hacıyevin səhhətində problem yaranır. Hamı onun təkidlə Moskvaya müalicəyə getməsini təkid edir. Akademik Mustafa Topçubaşov onu müayinə edəndən sonra təhlükəli heç nə olmadığını və özü müalicə edəcəyini bəyan etsə də, Nazim Hacıyevi Moskvaya göndərirlər. Həm də Kreml xəstəxanasında professor Aram Abramyanın müalicəsinə. Aram onda bədxassəli şiş aşkarladığını və təcili əməliyyat olunmalı olduğunu deyəndə Nazimin ailəsi Mustafa Topçubaşovu köməyə çağırır.

Topçubaşov nəticələrlə tanış olub, həkimin düzgün qərar verdiyini deyir, nə yazıq ki... Nazim Hacıyevi erməni professor əməliyyat edir. Əməliyyatdan sonra Abramyan hər şeyin yaxşı getdiyini deyir. Xəstəni yoxlayan professor Topçubaşıv isə onun yanından məyus çıxıb əməliyyatın düzgün aparılmadığından narazılıq edir. "Mən Hacıyevi yenidən əməliyyat edəcəm" - deyir. Xəstəxana dəhlizlərində Abramyanla erməni dilində danışan bir neçə nəfərin şübhəli davranışları Topçubaşovun diqqətini çəkmişdi.

Təəssüf ki, Topçubaşovun Nazim Hacıyevi yenidən əməliyyat etmək istəyi baş tutmur, həm də naməlum səbəbdən.

Getdikcə vəziyyəti ağırlaşan Nazim Hacıyevin təkrar Moskvaya müalicəyə göndərilməsi heç bir nəticə vermir və 1962-ci il iyulun 30-da dövlət xadimi gözlərini dünyaya əbədi yumur. Bütün milli düşüncəli, vətənpərvər, Azərbaycanı düşünən azərbaycanlıların taleyi kimi sonuclanan daha bir tale. Onu Filarmoniyada keçirilən vida mərasimindən sonra minlərlə insanın axını ilə Bakıda Fəxri Xiyabanda dəfn edirlər. Özü ilə birgə ölüm sirlərini də aparır. İllər sonra bütün bunları oğlu, tarixçi Aydın Hacıyev araşdırıb tapmasaydı, bu sirri biz də bilməyəcəkdik.

Sənədlərdən bəlli olub ki, Topçubaşov nəticələrlə tanış olub, heç bir şişin, metastazın olmadığını deyib. Onun nəşi 4 saylı klinik xəstəxananın morqunda araşdırılıb. Topçubaşov nəşi araşdırandan sonra da eyni fikri deyib: "Nazim Hacıyevə sui-qəsd edilib!" Amma sonradan sənədi imzalamağa məcbur olub...

40 mərasimindən sonra Nazim Hacıyevin xanımı Ziba Bədəlova SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vladimir Semiçastnıya zəng vurur. Ona Topçubaşovun gəldiyi qənaət və narahatlıqları barədə danışıb, işin araşdırılmasını xahiş edir. Hacıyevlə silahdaş olan Semiçastnıy özünün də şübhələndiyini və məzarı açdırıb araşdırma aparacağına vəd verib. Bir həftə sonra Semiçastnıy Ziba xanıma zəng vurub, "Onlar məndən daha güclüdür" - deyir...

***Ramilə Qurbanlı***

# Mirzə İbrahimovdan 10 inanılmaz fakt

***Mirzə İbrahimov 1911-ci il oktyabrın 28-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Eyvaq kəndində anadan olub. O, uşaq yaşlarında valideynlərini itirib. 3 yaşı olanda anası dünyasını dəyişib. Atası onu və böyük qardaşını götürüb Bakıya yollanıb. Burda da facia baş verib. Neft buruqlarındakı fontanda atasını itirib. Mirzə harasa üzüqoylu düşüb əlacsızlıqdan ağlayıb. Onda gələcək yazıçının vur-tut 7 yaşı var idi...***



Faciə zənciri bitmək bilmir. Qardaşı ilə iş üçün yola çıxan Mirzə yenə sarsıntı yaşayır. Zabrata çatanda Mirzənin qardaşı vəfat edir. O, həm aclığa, həm də yolun yorğunluğuna dözə bilmir.

Mirzə İbrahimov bir bəyin yanında nökər olub. Bəyin qoyunlarını otarırmış... Bəyin bir oğlu, üç qızı varmış. Mirzə onların həyətindəki balaca əl evində, betonun üstündə ac-susuz yatırmış. Bəyin balaca qızı öz yeməyindən bir parça çörək, bir az da pendir gətirib ona verirmiş.

Aradan uzun illər keçir. Mirzə İbrahimov Nazirlər Sovetində sədr müavini işləyirmiş. Bir gün katibə deyir ki, yanına çadralı bir xanım gəlib, qucağında da uşaq. Mirzə İbrahimov qadını qəbul eləyir və gözlərinə inana bilmir; bu, bir vaxt ona pendir-çörək verən bəyin balaca qızıymış! Qız dərdini danışır, məlum olur ki, sovet hökuməti qurulanda atası ölkədən gedib, bacılarının hərəsi bir diyara düşüb, qardaşı da içkiyə qurşanıb? məhv olub. Mirzə İbrahimov ona əlindən gəldiyi qədər yardım edir. Bu hadisə ən ağır illərdə, 40-cı illərdə olur. Qadın Mirzə İbrahimova heç bir ünvan vermir, yenə gələcəm deyir, amma bir daha heç vaxt gəlmir.

”Gələcək gün” romanı, demək olar ki, avtobioqrafiyasıdır. Orda təsvir edilən bütün dəhşətlər, o cümlədən qadının aclıqdan öz uşağını yeməsi səhnəsi həqiqidir. Özü danışırmış ki, balaca və zəif olduğum üçün heç kim məni nökər də götürmürdü. Zabratdakı bəy razılaşanda o qədər sevinmişdim ki, Xalq yazıçısı adını alanda da, ən yüksək vəzifələrə təyin olunanda da bu qədər sevinməmişdim...



O, Azərbaycan SSR Ali Sovetinin sədri olanda 20 avqust 1956-cı ildə ”Azərbaycan SSR-in dövlət dili haqqında Azərbaycan SSR-in Konstitusiyasına maddə əlavə edilməsi haqqında qanun”un qəbul etməsinə nail oldu. Burda məqsəd Azərbaycanda rəsmi dövlət sənədlərinin rus yox Azərbaycan dilinə yazılması, dövləd idarələrində doğma dildə danışılması məsələsi qaldırılırdı. Bu qanunun qəbulundan sonra Moskva ona düşmən kəsilir. O, həm vəzifəsini, həm də deputat mandatını itirir.

Nazim Hikmət Bakıya gələndə tələbələrdən biri soruşur: - Ustad, əgər bir adam başqa dildə təhsil alırsa, evdə, işdə bu dildə danışırsa, bir sözlə, düşünəndə başqa dildə düşünürsə, onu azərbaycanlı hesab etmək olarmı?

Nazim Hikmət deyir:

- Çətindir.

Görüşdə iştirak edən Mirzə İbrahimovun isə reaksiyası daha kəskin olur:

- Beləlari dönükdür, əclafdır!

Sonralar Mirzə İbrahimov bu məsələyə görə vəzifəsindən uzaqlaşdırılır, amma ittihamlar qarşısında Nazim Hikməti müdafiə edir. Onu satmır.

Mərkəzi Komitədə iclas vaxtı Mir Cəfər Bağırov deyir ki, Üzeyir Hacıbəyov da, Səməd Vurğun da xalq düşmənidir. Bu zaman Mirzə İbrahimov etiraz edib:

- Üzeyir Hacıbəyov necə vətən xainidir ki, ”Koroğlu” operasını yazıb, Səməd Vurğun necə xalq düşmənidir ki, ”Vaqif” dramını yazıb.

Bağırov əsəbləşir:

- Əyləş, sən də onların tayısan!

Dəfn günü Mirzə İbrahimovu məzara qoyanda bir qadının səsi gəlir: ”Umer naş papa!” Mirzə İbrahimovun qızı maraqlanıb ki, bu kimdir. Qadın deyib ki, mən uşaq evində böyümüşəm, 50-ci illərdə Mirzə müəllim Ali Sovetin sədri olanda hər ay bizə pul, ərzaq malları göndərərdi. Biz onu ”ata” deyə çağırardıq.

Mirzə İbrahimov evdə deyirmiş ki, yazılarımın qonorarı bizə bəs edir, maaşımı yetim uşaqlar üçün uşaq evlərinə köçürürəm.





Bu xatirəni yazıçının qızı Sevda İbrahimova danışır:

Ana ilk azərbaycanlı pianoçu qadın idi. Uzun müddət atama ”yox” deyib. Anam ağır adam idi. Cavabı buna görə ləngiyirdi. Anamın da razılığını Səməd Vurğun alır. Deyib, bəsdir də, ay Sara bacı, bizim yazıçını incitmə. Onlar hamısı evli idi - Səməd Vurğun, Rəsul Rza, Sabit Rəhman... Bircə atam qalmışdı. Anamı çox sevirdi. Rəhmətə gedəndən sonra bağdakı yatağını yığışdırmağa qoymadı. Hər gedəndə o çarpayının üstünə qızılgüllər səpərdi”.

Ömrünün sonlarında əlindən ”Qurani-Kərim” düşməyən yazıçının ən böyük arzusu qızını Cənubi Azərbaycandakı kəndlərinə aparmaq olub. Lakin, çox arzulasa da, buna imkan olmayıb. Dövlət xətti ilə Cənubi Azərbaycana getsə də, doğulduğu Sərab kəndinə heç vaxt gedə bilmir. Vəfat edəndən sonra qızı ora gedir və Sərabdan torpaq gətirib atasının qəbrinə səpir(Kulis.az).

# “Miras” bədii-sənədli filmi Kanadada Azərbaycanı təmsil edəcək



***Bakı Media Mərkəzi tərəfindən istehsal olunan, Nobel qardaşlarının Azərbaycanda neft sahəsində fəaliyyətinə həsr olunmuş “Miras” bədii-sənədli filmi Kanadada keçiriləcək 9-cu Kalqari Avropa Film Festivalında (Calgary European Film Festival) ölkəmizi təmsil edəcək.***

Noyabrın 7-dən 15-dək davam edəcək film festivalı çərçivəsində ümumilikdə 20 Avropa ölkəsindən məşhur filmlərin izləyicilərə təqdim olunması nəzərdə tutulur. Festivalın rəsmi saytında “Miras” bədii-sənədli filmi haqqında ətraflı məlumat yerləşdirilib.

(https://calgaryeuropeanfilmfestival.ca/2020-films/miras/

Xatırladaq ki, Bakı Media Mərkəzinin istehsal etdiyi “Miras” filminin məqsədi Nobel qardaşlarının Azərbaycandakı fəaliyyətinin həm regionda, həm də dünya neft hasilatının inkişafında tarixi rolu və əhəmiyyətini vurğulamaq, eləcə də Azərbaycanda neft hasilatı tarixinin işıqlandırılması və təbliği işinə töhfə verməkdir. Bakı Media Mərkəzinin əməkdaşı Zaur Qasımlının rejissoru olduğu ekran əsərində Nobellərin böyük nailiyyətləri - dünyada ilk neftdoldurma tankeri və neft məhsullarının saxlanılması üçün dəmir çənlərin (rezervuarların) yaradılması, Avropada ilk neft boru kəmərinin məhz Bakıda istifadəyə verilməsi və şirkətin neft sənayesində tətbiq etdiyi bu kimi bir sıra digər yeniliklərdən də bəhs olunur. Eyni zamanda, filmdə neft sənayesinin inkişafı ilə “qara qızıl”ın geostrateji xammal kimi əhəmiyyətinin artması, eləcə də Azərbaycanın regionda geosiyasi önəm qazanması və bir neçə qitənin nəhən...

şirkətlərinin Bakı nefti uğrunda gərgin mübarizə aparmalarından da danışılır. “Miras” filmində həmçinin Nobel qardaşları tərəfindən ”qara qızıl”a dair yaradılan irsin bu gün Azərbaycanda inkişaf etməsi və ölkənin dünyanın etibarlı enerji təminatında rolu nümayiş olunur. Filmlə əlaqədar Nobellər ailəsinin üzvləri Piter Nobel ( Robert Nobelin nəticəsi), Tomas Tiden (Lüdviq Nobelin nəticəsi, professor) və tanınmış ekspertlər Villiam Brays ( ABŞ Neft tarixçisi) və Brita Asbrink (İsveç yazıçısı, jurnalist) özəl müsahibələr alınaraq filmdə geniş istifadə olunub.

Məlumat üçün deyək ki, “Miras” bədii-sənədli filmi sərbəst baxış üçün Bakı Media Mərkəzinin rəsmi “YouTube” səhifəsində də geniş izləyici auditoriyasına təqdim olunub.

# Xocalı soyqırımından bəhs edən “Sonsuz Dəhliz" filmi "Amazon Prime" yerləşdirildi




***”Amazon Prime” Dağlıq Qarabağ münaqişəsindən bəhs edən, mükafat qazanan yeganə uzunmetrajlı ”Sonsuz Dəhliz” sənədli filmini tamaşaçılarına təqdim edib.***

APA-nın məlumatına görə, sənədli filmin platformaya daxil edilməsi, bu təsirli hekayənin kinematoqrafiyasına, həmçinin bu gün bölgədə döyüşlərin davam etdiyi vaxtda qlobal tamaşaçı üçün əhəmiyyətinə dəlalət edir. Sənədli filmin bu qədər geniş izləyici auditoriyasına çatmasını təmin etmək bir çoxlarına Dağlıq Qarabağ münaqişəsinin tarixini və insan dəyərlərini daha yaxşı anlamağa imkan verəcək.

Qeyd edək ki, Xocalı soyqırımından bəhs edən ”Sonsuz dəhliz” sənədli filmində hadisələr faciə şahidlərinin litvalı jurnalist Riçard Lapaitislə söhbəti ilə təqdim olunur. Filmin çəkilişləri 5 il davam edib. “Sonsuz dəhliz” filmi 2015-ci ildə Tenerife Beynəlxalq Film Festivalında ”Ən Yaxşı Sənədli film”, rejisdor Aleksandras Brokas isə “Ən Yaxşı Sənədli Film Rejissoru” mükafatlarını, eyni il Accolade Humanitar Mükafatlarında ”Ən yaxşı Uğur” mükafatını alıb.

Oskar mükafatlı aktyor Ceremi İronsun rol aldığı filmi ”Emmy” mükafatı laureatı Gerald Rafşun istehsal edib.

Filmin prodüseri və rejissoru Aleksandras Brokas, son gərginləşmə və münaqişənin başlaması ilə əlaqədar olaraq filmin bugünkü aktuallığını şərh edib: ”Bu müharibə həm döyüş meydanında, həm də informasiya sahəsində aparılır. Saxta xəbərlər medianı bürüdüyü üçün beynəlxalq, təcrübəli və müstəqil jurnalistlərin həm təcavüzkarların, həm də qurbanların perspektivlərini göstərdikləri bizim kimi geniş miqyaslı araşdırma sənədli film hazırlanması aktual hadisələrə dəqiq baxış üçün vacibdir”.

”Sonsuz Dəhliz” filmi 2015-ci ildə beynəlxalq debüt edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi ”Xocalıya ədalət” məlumatlandırma kampaniyası ilə birlikdə təbliğ edilib. Xatırladaq ki, Avropa Azərbaycan Cəmiyyəti bu məlumatlandırma kampaniyasını geniş dəstəkləyib.

Qeyd edək ki, ”Amazon” yalnız ABŞ və Böyük Britaniyada 110 milyondan çox üzvü olan dünyanın ən böyük onlayn pərakəndəçisidir.



## Dirsək oynağının çıxıqları

***Bu çıxıqlar yuxarı ətraflarda ən çox rast gəlinən travmalarından biridir. Dirsək oynağı çox mürəkkəb quruluşa malikdir. Onun əmələ gəlməsində 3 sümük: mil, dirsək (said) və bazu sümükləri iştirak edirlər. Travma nəticəində mil və dirsək sümüyü və ya ancaq mil sümüyü çıxa bilər.***

Dirsək oynağının travmasının növündən və yerdəyişmə istiqamətindən asılı olaraq aşağıdakı çıxıqlar ayırd edilir:

-Arxa çıxıqlar - dirsəkönü sümüklərin arxaya yerdəyişməsi nəticəsində və əl açıq vəziyyətdə yıxıldıqda baş verir.

-Ön çıxıqlar - dirsəkönü sümüklıri önə doğru yerdəyişməsi ilə xarakterizə olunur. Bu çıxıq dirsək üstə yıxıldıqda baş verir ki, əl bükülmüş vəziyyətdə olur.

-Yan çıxıqlar - bu zman sümüklər yana doğru yerlərini dəyişir. Nadir hallarda əl yana açılmış vəziyyətdə olduqda yıxıldıqda olur.

-Mil sümüyünün çıxıqları əsasən uşaqlarda olur, daxilə çevrildikdə və aşağı uzadıldıqda baş verir. Eləcə qarışıq olaraq həm çıxıq, həm də sınıq ola bilər.

**Əlamətləri:**

Disək oynağında çıxıq, onun deformasiyası, güclü ağrı ilə müşayiət olunur. Oynaq nahiyəsində şişkinlik, dərialtina qansızmalar olur. Zərərçəkən əlini açıb bükə bilmir. Bəzən damarlar və sinirlər də sıxıla bilir. Bu nahiyədə dəri solğunlaşır, göyümtül olur, keyləşır, iynə sancma, "qarışqa yerişi" hissi meydana çıxır. Belə şəxs biləyini, barmaqlarını aça bilmir, cəhd etdikdə güclü ağrı olur.

**Siz nə edə bilərsiniz:**

Bu zaman mütləq "təcili yardım" çağırmaq lazımdır. Həkim gələnə qədər qola taxta parçası qoyub, yaylıqla bağlamaq lazımdır. "Təcili yardım " həkimləri müvəqqəti şina qoyurlar. Xəstəyə ağrıkəsicilər verilir, disək oynağı nahiyəsinə soyuq qoyulur. Özbaşına çıxığı yerinə salmaq olmaz, fəsadlara səbəb ola bilər.

**Həkim nə edə bilər:**

Travmatoloji şöbədə yerli keyitmə altında çıxıq yerinə salınır, oynaq nahiyəsinə anestetiklər vurulur. Çıxıq yerinə salındıqdan sonra gips sarğı qoyulur, 2-3 həftə saxlanılır. Mutləq rentgenoqrafiya olunmalıdır ki, sınıq inkar edilsin. Belə şəxsin iş qabiliyyəti 4-6 həftədən sonra bərpa olunur. Gips çıxarıldıqdan sonra fizioterapiya, massaj, müalicəvi bədən tərbiyəsi tətbiq olunur.

## Koronavirusun ürəyə necə təsir etdiyi açıqlandı

***Yeni növ koronavirus infeksiyasından sağalan insanlarda yalnız ağ ciyərlərdə deyil, ürək əzələlərində də ciddi fəsadlar yaranır.***

"Unikal" ted.az-a istinadən bildirir ki, ürək-damar sistemində fəsadlar pasiyentin xəstəliyi ağır və ya yüngül keçirməsindən asılı olmayaraq yaranır. Hətta altı aydan sonra da həkimlər həmin şəxslərdə ürək toxumasının iltihabını qeydə alıblar. Koronavirusun ürəyə təsiri barədə ilk məlumatı çinli alimlər bəyan edib. Belə ki, mart ayında koronavirusa yoluxan 416 xəstə müayinə edilib və yoluxanların təxminən 20 faizinin ürəyində ciddi problemlər aşkar edilib. Bundan əlavə, Vuhan xəstəxanalarının birinin reanimasiya şöbəsində müalicə alan xəstələrin 44 faizinə aritmiya diaqnozu qoyulub.

Artıq iyul ayında zərərin qalıcı olması məlum olub. Almaniya və İtaliyadan olan mütəxəssislərə görə, sağaldıqdan iki ay yarım sonra belə xəstələrin 78 faizində ürək anomaliyası yaranıb. 60 faiz xəstədə miokard iltihabının əlamətləri müşahidə edilib.

# Arıqlamağa kömək edən səhər yeməyi

***Bu səhər yeməyi sizin ayda 5 kq arıqlamağınıza və orqanizminizin yığılıb qalmış toksinlərdən xilas olmağınıza səbəb olacaq.***

Biz günümüzə səhər yeməyi ilə başlayırıq. Səhər yeməyinin yaxşı olmağı bizim günümüzün necə keçəcəyini bəlli edir. Sağlam və bol vitaminli səhər yeməyi bizim gün ərzində enerjili olmağımıza səbəb olur.

Mütəxəssislər insaların sağlamlığına səhər yeməyinin böyük rol oynağını qeyd edirlər. Vitamin və minerallarla zəngin səhər yeməyi isə orqanizmdə maddələr mübadiləsinin normal getməsinə və orqanizmin sağlamlığına səbəb olur.

Dietoloqlar isə orqanizmdən yığılıb qalmış toksinləri xaric edən və bağırsaqlardan asanlıqla xaric olan səhər yeməyini məsləhət bilirlər. Bu reseptlə hazırlanmış səhər yeməyi qəbizliyi a radan qaldırır və ay ərzində 3-5 kq arıqlamağa səbəb olur.

Dietoloqlar istənilən nəticəni əldə etmək üçün bu səhər yeməyini ən azı bir ay qəbul etməyi məsləhət bilir. Bu yeməyin ən azı bir ay yeyilməsi sizin orqanizminizi yığılıb qalmış toksinlərdən azad etməklə saçlarınızın və dırnaqlarınızın sağlamlığını bərpa edəcək və dərinizi cavanlaşdıracaq.

**Yeməyin hazırlanması:**

* yulaf - 2 xörək qaşığı
* yağsız qatıq - 1 fincan
* kakao tozu - 1 çay qaşığı
* üyüdülmüş kətan toxumu - 1 çay qaşığı
* quru gavalı - 5-7 ədəd

**Hazırlanması:**

1. Yeməyin hazırlanmasına axşamdan başlamaq
2. Gavalının üzərinə 100 qram qaynar su tökülür və 10 dəqiqə saxlanılır.
3. Digər qabda yulaf, kakao və kətan toxumu qarışdırılır.
4. Qarışıma yağsız qatıq əlavə edilir.



5. Sonra yumşalmış gavalı doğranır və qarışıma qatılır.
6. Qarışım blenderdə üyüdülür.
7. Hazırlanmış məhsul soyuducunun dondurma gözündə saxlanılır.

Qarışın hər axşam hazırlanır, soyuducuda saxlanılır və səhər donu açıldıqdan sonra otaq temperaturunda qəbul edilir.

# İmmundefisit virus infeksiyası

***İmmundefisit virus infeksiyası kəskin limfopeniya, orqanizmin şərti pathogen və pathogen mikroblara qarşı rezistenliyinin azalması, onkoloji xəstəliklərə meyilliyin artması ilə özünü göstərən virus mənşəli xroniki xəstəlik olub, adətən ölümlə qurtarır. Xəstəliyi bakteriyalar törədir, sürətlə yayılır. Xəstəlik ölüm faizinə görə spiddən sonra ikinci yerdə durur. Immundefisit virus infeksiyası dünyanın bütün ökələrində yayılıb və artmaqda davam edir.***

**Etiologiyası:**

İİV infeksiyasının törədicisi viruslardır. Virus insanın qanında, gözyaşında, spermasında, tərində, sidiyində, vaginal sekretində olur. Virusar xarici mühitə davamsızdırlar.

**Epidemiologiyası:**

İİV infeksiyasını xəstə adamlar və virusgəzdirənlər yoluxdururlar. Onların qanı, vaginal sekreti və sperması yoluxucudur. Xəstəlik adətən cinsi əlaqə zamanı xəstənin qanı toxunmuş preparatlardan sağlam adam istifadə etdiyi za-



man, orqan və toxumaların köçürülməsi zamanı qanla çirkləndirilmiş tibbi alətlərdən yoluxur. Xəstəlik anadan dölə keçə bilir. Xəstəliklə əksər hallarda homo və biseksuallar, narkomanar, fahişələr, alkoqol düşkünləri, hemofiliyalı xəstələr, qanla təmasda olan tibb işçiləri yoluxur və yayır. Xəstəlik sıx təmasla ailə üzvlərinə və digər adamlara da keçə bilir.

**Patogenezi:**

Virusgəzdirmə halları bəzən 8-10 il çəkir. Insanlar yoluxmanın ilk 2 ayından virusun gəzdiricisinə çevilir. Əksər hallarda bütün limfa düyünləri, bəzən ayrı-ayrı vəzilər də zədələnir.

**Klinikası:**

Xəstəlik kəskinləşənə qədər klinik əlamətlər təzahür etmir. Xəstəlik kəskinləşdikdə özünün qızdırma, baş və boğaz ağrısı, mialgiya, qızılcayabənzər səpgilərlə, səbəbsiz davamlı diareya və arıqlama, bəzən aseptic meningit əlamətləri özünü göstərir. Xəstəliyin qripəbənzər əlamətləri baş və əzələ ağrıları ilə yanaşı kataral əlamətlərin olması ilə özünü göstərir.

**Diaqnozu:**

Klinik əlamətlər, epidemioloji məlumatlara, seroloji, virusoloji və hemotoloji müayinələrə əsasən qoyulur. İİV infeksiyası diaqnozu 2 aydan çox çəkən, müalicə oluna bilməyən və nəcisdə kriptosporidiya tapılan ishal, uzunmüddətli qızdırma, 10%-dən çox arıqlama, şərti pathogen mikroblardan tez-tez xəstələnmə , mərkəzi sinir sistemini limfoması, müalicəyə davamlı və bəlğəmdən pnevmosist tapılan pnevmoniya aiddir.

# Aloe bitkisinin 50-dən çox xəstəlikləri müalicə etdiyini bilirdinizmi?

***Aloe bitksini qədim zamanlarda yunanlar "ölməzlik bitkisi" adlandırıblar. Onlar bitkiyə bu adı onun insan orqanizminə verdiyi şəfalara görə təyin ediblər. Belə ki, aloe bitkisi daxili xəstəliklərlə birlikdə, yanıqları, dəri xəstəliklərini və sinir xəstəliklərini də müalicə edir.***

Aloenin tərkibində 200-dən artıq bioloji aktiv maddə var. Bu maddələrin tərkibi vitaminlər, minerallar, fermentlər, aminturşuları, polisaxaridlərlə zəngindir. Sadalanan maddələr isə insan həyatı üçün vacib sayılan maddələrdir.Aloenin tərkibi həm də kalsium, dəmir, sink, xrom, kalium və s. ilə də zəngindir.Bu bitki iltihab əleyhinə təsir göstərir və antibakterial gücə sahibdir. Aloe immun sistemi möhkəmləndirir, orqanizmi detoksikasiya edir.

Aloenin tərkibində nəinki vitamin və minerallar var, o hətta B12 ilə də zəngindir. Btkinin tərkibində 20-22 əvəzolunmaz amin turşuları vardır ki, bu turşular mədə və bağırsaqlardakı yaraları müalicə edir və qıcqırmanı aradan qaldırır. Aloenin ağız boşluğundakı yaraları da sağaltmaq qabiliyyəti vardır. Bu səbəbdən ağız boşluğunda və mədə bağırsaq sistemində xəstəliklər olan adama aloe şirəsi içmək və ya onu ağız boşluğuna sürtmək məsləhət bilinir.



Oxuduqlarınızı bəyəndinizsə elə bu gündən aloe şirəsi içməyə başlayın və bu yazını dostlarınızla paylaşıb onları da məlumatlandırın.

# “Qarabağ”ın “Sivasspor”la matçının hakimlərinin dəyişdirilməsinin səbəbi açıqlandı



***“Qarabağ”ın UEFA Avropa Liqasının qrup mərhələsinin 3-cü turu çərçivəsində “Sivasspor”la oyununun hakimlərinin dəyişdirilməsinin səbəbi müəyyənləşib.***

”Unikal” qəzeti xəbər verir ki, buna səbəb ilk olaraq oyuna təyinat alan portuqaliyalı Joao Pineyronun koronavirus testinin pozitiv çıxmasıdır. Bundan sonra görüşün idarəçiliyi İsveçrədən olan Sandro Şarerə tapşırılıb.

Dünən keçirilən oyunda “Qarabağ” 0:2 hesabı ilə məğlub olub.

# "Fənərbağça"nın sabiq prezidenti Aziz Yıldırım bəraət aldı



***Türkiyə futbolunda danışılmış oyunlarla bağlı növbəti məhkəmə prosesi keçirilib.***

”Unikal” qəzetinin məlumatına görə, bu dəfə 23 nəfər barəsində hökm oxunub.

Məhkəmənin ilk prosesində aralarında “Sivasspor”un prezidenti Məcnun Otyakmaz və “Fənərbaxça”nın sabiq rəsmisi Şekip Mosturoğlu da olan 19 şübhəli şəxs bəraət alıb. İstanbul 13-cü Ağır Cəza Məhkəməsi daha sonra “Fənərbaxça”nın keçmiş prezidenti Əziz Yıldırım, həmçinin daha 3 nəfərlə bağlı məsələni araşdırıb və onların da bəraətinə qərar verib.

Qeyd edək ki, danışılmış oyunlarda şübhəli bilinənlər arasında Türkiyə millisinin sabiq futbolçusu Ümit Karan da var.

# “Qarabağ”ın legioneri cəzalı duruma düşdü

***“Qarabağ”ın yarımmüdafiəçisi Filip Ozobiç cəzalı duruma düşüb.***

”Unikal” qəzeti xəbər verir ki, 29 yaşlı yarımmüdafiəçi Avropa Liqasının qrup mərhələsinin üçüncü turu çərçivəsində Türkiyədə “Sivasspor”a qarşı keçirilən səfər matçının 53-cü dəqiqəsində sarı vərəqə alıb.




Bu, xorvatiyalı oyunçunun turnirdəki üçüncü xəbərdarlığı olub. Ozobiç bu səbəbdən növbəti turda “Sivasspor”la ev matçını buraxmalı olacaq.

Qeyd edək ki, “Qarabağ” “Sivasspor”a bu oyunda 0:2 hesabı ilə məğlub olub. “Qarabağ” - “Sivasspor” qarşılaşması isə noyabrın 29-da baş tutacaq.

# "Sivassspor"un prezidentindən Azərbaycana dəstək

***Türkiyənin ”Sivasspor” klubunun prezidenti Məcnun Otyakmaz Azərbaycana dəstək olub.***

”Unikal” qəzeti xəbər verir ki, 55 yaşlı funksioner bu barədə UEFA Avropa Liqasının qrup mərhələsinin III turunda evdə ”Qarabağ”a 2:0 hesabı ilə qalib gəldikləri matçdan sonra yerli mətbuata açıqlamasında bildirib. Otyakmaz Azərbaycanın Türkiyə ilə dost və qardaş ölkə olduğunu söyləyib: ”Azərbaycanın mübarizəsində daim onlarla birlikdəyik. Allah ədalətli olanın və haqlının yanındadır. ”Qarabağ” klubuna da uğurlar arzulayıram”.

Qeyd edək ki, qrup mərhələsində IV turun ”Qarabağ” - ”Sivasspor” matçı noyabrın 26-da olacaq. Ağdam klubu ölkədəki hərbi vəziyyətə əlaqədar ev oyunlarını neytral meydanda keçirir.

# NBA-nın sabiq basketbolçusu həbsxanada öldü

***NBA-nın (Milli Basketbol Assosiasiyası) sabiq basketbolçusu Eddi Conson dünyasını dəyişib.***

”Unikal” qəzeti TMZ nəşrinə istinadən xəbər verir ki, 61 yaşlı veteran oyunçu Florida ştatında saxlanıldığı həbsxanada vəfat edib. Onun ölümünə xəstəlik səbəb olub. ABŞ-dan olan idmançı 2008-ci ildə 8 yaşlı qıza təcavüz ittihamı ilə həbs olunmuşdu. Keçmiş basketbolçuya ömürlük azadlıqdan məhrumetmə cəzası verilmişdi.

Qeyd edək ki, Eddi Conson karyerası ərzində ölkəsində ”Kanzas-Siti Kinqz” (”Sakramento Kinqz”), ”Finiks Sanz”, ”Sietl Supersoniks”, ”Şarlott Hornets”, ”İndiana Peysers”, ”Hyuston Rokets” və Yunanıstanda ”Olimpiakos” klublarının formasını geyinib.

# "Real" əməkhaqqıları yenidən azaldır

***”Real”ın yaxın gələcək üçün maliyyə planları məlum olub.***



”Unikal” qəzeti ”Cadena SER”ə istinadən xəbər verir ki, Madrid təmsilçisi koronavirus pandemiyası üzündən radikal addımlar atacaq.

Belə ki, İspaniya nəhəngi maliyyə xərclərini 190 milyon avroya endirməkdə qərarlıdır. Paytaxt təmsilçisinin idarəçiləri öncə oyunçuların əməkhaqqılarını 15-20 faiz aşağı salmaq üçün fərdi danışıqlara başlayacaq. İlin sonuna qədər maaşların azaldılmasıyla əlaqədar məsələləri yoluna qoymağı hədəfləyən rəhbərlik ardından Serxio Ramosun yeni müqavilə məsələsinə baxacaq.

# Koronavirus səbəbindən təxirə salınan oyunun vaxtı açıqlandı



***Azərbaycan Premyer Liqasının təxirə salınan “Sabah” - “Zirə” matçının vaxtı dəqiqləşib.***

”Unikal” qəzeti məlumatına görə, IX turun bu gün keçirilməli olan oyunu noyabrın 8-də baş tutacaq.

“Sabah”ın futbolçularında koronavirus aşkarlandığı üçün təxirə salınan matç saat 17:00-da start götürəcək.

Azərbaycan Premyer Liqası 8 noyabr (bazar) 17:00. “Sabah” - “Zirə” “Bank Respublika Arena”, 17:00

# “28 il sonra doğulduğum torpaqlara qayıdıram”

***Azərbaycan millisinin və “Qarabağ”ın futbolçusu Qara Qarayev “TRT Spor”a açıqlama verib.***



”Unikal” qəzeti xəbər verir ki, təcübəli yarımmüdafiəçi açıqlamasında cəbhədə gedən döyüşlərdən də danışıb:

“Mən 1992-ci ildə Füzulidə anadan olmuşam. 28 il öz torpağıma, doğulduğum kəndə gedə bilməmişəm. Bu gün Azərbaycan Ordusu bu sevinci, qüruru bizə yaşadır. Uzun illərdir, torpağaqlarımız işğal altında idi. Bu, o demək deyil ki, Azərbaycan milləti, ordusu, dövləti qorxaqdır və ya nədənsə çəkinir. Biz münaqişənin sülh yolu ilə həllini gözləyirdik, amma mövcud durum buna gətirib çıxartdı ki, torpaqlarımızı müharibə ilə geri qaytaraq. İlk olaraq ordumuza təşəkkür edirəm. Daha sonra millətimizə, prezidentimizə, haqq yolunda bizi dəstəkləyən türkiyəli qardaşlarımıza və digər dövlətlərə öz minnətdarlığımı bildirirəm. Biz işğalçı deyilik, öz vətənimizdə müharibə aparırıq. Mən 28 il sonra doğulduğum torpaqlara qayıdıram”.

# “Qarabağ”ın futbolçusu Avropa Liqasının intizamsızları arasında



***UEFA Avropa Liqasının qrup mərhələsində 3-cü turun oyunlarından sonra statistik göstəricilər açıqlanıb.***

”Unikal” qəzeti xəbər verir ki, ilk üç tur ərzində ən çox qaydanı pozan futbolçuların siyahısında “Qarabağ”ın üzvü Filip Ozobiç də yer alıb. 29 yaşlı futbolçu bu göstəricidə ilk iki pilləni bölüşür. Xorvatiyalı oyunçu və Serbiya “Srvena Zvezda”sında çıxış edən Dieqo Farçinelli üç oyun ərzində 13 dəfə qaydanı pozub. Ozobiç ardıcıl üç görüşdə sarı vərəqə ilə cəzalandırılıb və 4-cü turda komandasına kömək edə bilməyəcək. “Qarabağ” Avropa Liqasındakı 48 komanda arasında qayda pozuntularının sayına görə 3-4-cü pillələri bölüşür. Ağdam təmsilçisi və Avstriya “Rapid”i üç görüşdə 52 dəfə kobudluq edib. İsveçrə “Yanq Boyz”u 1-ci, Çexiya “Slaviya”sı (54) isə 2-ci sırada qərarlaşıb.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# Hamı Xatirənin bu mahnısından danışır - "Kəndinə qayıdır Xan"



***Müğənni Xatirə İslam da vətənpərvərlik mövzusunda mahnı ifa edib.***

Axşam.az xəbər verir ki, "Kəndinə qayıdır Xan" adlanan bəstənin müəllifi Şey Ree-dir. İfaçı fərqli janrda səsləndirdiyi mahnısını "Youtube" kanalında yerləşdirib.

Xatirə bildirib ki, mahnını doğulduğu Xankəndinə həsr edib. İfa qısa zamanda böyük marağa səbəb olub. Sənət dostları belə Xatirənin mahnısını bəyəndiklərini vurğulayıblar.

# "Cəbrayıla getmək istəyirəm, həyat yoldaşımın qəbri ordadır" - Gülüstan Əliyeva



***Əməkdar artist Gülüstan Əliyeva "Evdəkilərə salam" proqramına qonaq olub.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, veriliş zamanı ifaçı işğaldan azad olunan torpaqlarımızla bağlı sevincini, eyni zamanda 1-ci Qarabağ müharibəsində şəhid olan həyat yoldaşı və qardaşı ilə ilə bağlı xatirələrini bölüşüb:

"Azərbaycanın hər bir bölgəsi doğmadır, əzizdir. İllərdir işğal altında olan torpaqlarımız üçün ürəyimiz sızlayırdı. Əlbəttə, bu gün hamımız qürurlu və sevincliyik. Mən isə bu hissləri ikiqat yaşayıram. Çünki ailə üzvlərimi itirdiyim torpaqları Ali Baş Komandanımız və ordumuz bizə qaytardı.

İnsan həyatı üçün bundan böyük hədiyyə və uğur ola bilməz. 2016-cı ildə Seysulan kəndi işğaldan azad edilləndə elə bildim ki, qardaşım vəfat etməyib, sağdır. Çünki şanlı ordumuz onun qanı tökülən torpaqları geri qaytardı. Daha sonra həyat yoldaşımın şəhid olduğu Cəbrayıl və onun kəndləri düşmən tapdağından azad edildi. Daha ailə üzvlərim şəhid olduğuna görə ağlamayacam. Çünki dərd o zaman insana yük olur ki, onun dərmanı tapılmasın".

Danışdıqca göz yaşlarına boğulan müğənni həyat yoldaşının son günlərini belə xatırlayır:

"Zahid minaya düşmüşdü. Ağır dərəcəli yanıq xəsarətləri almışdı. Onu xəstəxanaya aparmaq üçün bir neçə dəfə helikopter göndərilsə də, artıq gec idi. İlk bir-iki gün onu görməyimi istəməmişdi. Sonralar eşitdim ki, ömrünün son günündə məni istəyib. Bəlkə mənə nəsə vacib sözü var idi, bilmirəm. Onda da atasıgil qoymayıb... Çox cəhd etsəm də, Zahidi görə bilmədim. Bir dəfə yatdığı otağın qapısı aralı qalmışdı. Onda az da olsa gördüm: qapqara kömür kimi yanmışdı, sadəcə sarğıları ağarırdı. O, vəfat edəndə oğlumuz Rüfətin 40-ı yeni çıxmışdı".

G.Əliyeva həyat yoldaşından sonra yeganə qardaşının da şəhid olduğunu bildirib:

"Yoldaşım şəhid olandan sonra qardaşım da sanki dəyişib başqa bir adam oldu. Özünə yer tapa bilmirdi. Tez-tez deyirdi ki, mən getmək istəyirəm. Orduya yollandı, Murovda xidmət etməyə başladı. Bir müddət sonra aprel ayında orada genişmiqyaslı döyüşlər baş tutdu. Bizim neçə-neçə igid oğullarımız bu döyüşdə həlak oldu. Onlardan biri də mənim qardaşım idi".

Müğənni Cəbrayıl azad olunarkən yaşadığı sevinci belə təsvir edib:

"Oğlumla sevindiyimizdən elə qışqırmışdıq ki... Dedim, Rüfət, Cəbrayıla gedək. Dedi, tələsmə ana, yollar açılsın, gedərik. Yoldaşımın qəbri Cəbrayıldadır. Aldığımız məlumatlara görə, ermənilər hamısını dağıdıblar".



# Əməkdar artistin "Green card" udan oğlu cəbhədə döyüşməyi seçdi

***Şuşa Dövlət Musiqili Dram Teatrının direktoru, Əməkdar artist Yadigar Muradovun oğlu cəbhəyə yola düşüb.***

"Unikal" kulis.az -a istinadən xəbər verir ki, bu haqda Əməkdar artistin özü məlumat verib:

"Bu gün ortancıl oğlum Üzeyiri cəbhəyə yola salıram. O, ali təhsilli həkimdir. Cəbhəyə hərbi həkim kimi gedir. Çox qürur hissi keçirirəm. Üç oğlum var hər üçü də vətənpərvərdir. Üzeyirin Amerikada yaşamaq icazəsi var. "Qrin kart" udmuşdu. Amma buna baxmayaraq, o könüllü olaraq orduya yazıldı. Oğlumun 32 yaşı var. Mən də o yaşda olanda birinci Qarabağ müharibəsində iştirak etmişəm".

# "Ağdam azad ediləndə gedib o qəbirlərin qarşısında diz çökəcəm" - Fatma Mahmudova



***"Bizə gələn məcburi köçkünlərin arasında bir oğlan var idi. Dəqiq bilmədim Xocalı, yoxsa Quşçular kəndindən idi. Məndən çörək istədi. Ona bütöv bir çörək verdim. O çörəyi öpüb, gözünün üstünə qoydu və mənə neçə gündür ac qaldıqlarını dedi".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu fikirləri Xalq artisti Fatma Mahmudova "Vaxtı gəldi" verlişinə qonaq olan zaman səsləndirib. Aktrisa doğulduğu Ağdamda müharibə dövrünü belə xatırlayır:

"Demək olar ki, müharibə veteranıyam. Həyat yoldaşım Tofiq Qarayev də (aktyor - red.) Milli Orduda döyüşüb. Evim Ağdamın mərkəzində yerləşirdi. Orada Musiqili Teatrda çalışırdım. Hərbi hissələrdə tədbirlər olanda uşaqlarımla gedirdim. Mən Xocalıda və digər ərazilərimizdə qaçqın düşən həmvətənlərimizin aqibətinə şahid olmuşam. Evimin qapıları hər zaman onlara açıq idi. Xocalıdan, Quşçulardan qaçqın düşənlər var idi. Onlar bizim evə pənah gətirib sığınırdılar. Ayaqları donan insanlara kömək edirdim. Onlara su, çörək, yemək verirdim".

F.Mahmudova Ağdam azad olunandan sonra ilk olaraq oradakı qəhrəmanlarımızın qəbrini ziyarət edəcəyini bildirib: "Ağdamın bir çox qəhrəman oğulları var idi. Arzu edirəm ki, torpaqlarımız alınanda bir-bir o qəhrəmanların qəbrini ziyarət edim. Onların ruhu ilə görüşüm. Məzarları önündə baş əyib, diz çöküm".